Xalqın qəzeti!

# Xalq qəzeti

№ 16 (30420) 26 yanvar 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

# Azərbaycanın AŞPA ilə yollarını ayırmasına dair 10 məqam

## Ölkəmizin prinsipial qərarından hansı dərslər çıxarılmalıdır?




**Azərbaycan nümayəndə heyətinin Avropa Şurası Parlament Assambleyası ilə əməkdaşlığını və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarı bir neçə cəhətdən vacib və əhəmiyyətlidir. Yazımızda həmin cəhətləri təsnifatlandıracaq və mövcud xüsusdakı bir sıra zəruri məqamların üzərində dayanacağıq. Elə bilirik ki, vurğulayacaqlarımız məlum qərarın çıxarılmasına rəvac vermiş bütün qütbləri, habelə, onlarla əlaqədar olanların hər birini ciddi şəkildə düşündürməlidir.**

Birincisi, məlum qərar ölkəmizin milli maraq və mənafelərinə uyğun məsələlərə münasibətdə hansısa kənar təsirlərin yolverilməzliyinin vurğulanmasıdır. Dünyanın mövcud reallığı nəzərə almasının vaxtı çoxdan çatıb. AŞPA-dakı nümayəndə heyətimizin addımı vaxtı çatmış məsələ ilə əlaqədar, bir növ, təbil zəngidir.

İkincisi, qərar Avropa Şurasının və onun ayrı-ayrı strukturlarının Azərbaycan ilə təzyiq dili ilə danışmasına sərt münasibətinin ifadəsidir. Hesab edirik ki, həmin strukturlar hazırkı insidentdən dərs götürməlidirlər.

*(ardı 3-cü səhifədə)*



# Avropa Parlamentinin qərəzi



**Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfər və ondan sonrakı dövrdə bir-birinin ardınca əldə etdiyi hərbi-siyasi qələbələr, o cümlədən ötən ilin sentyabrında lokal xarakterli antiterror tədbirləri nəticəsində ərazi bütövlüyünü və dövlət suverenliyini tam bərpa etməsi Qərbdəki anti-Azərbaycançı, islamofob və türkofob dairələrin, necə deyərlər, yuxusunu ərşə çəkib.**

Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı dövrdə səsləri çıxmayan, işğalçıya tutduğu torpaqlardan, hətta keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə heç bir aidiyyəti olmayan yeddi rayondan çıxması üçün heç bir təzyiq göstərməyən həmin dairələr gücümüz hesabına torpaqlarımızı düşmən tapdağından qurtarmağımızı ölkəmizə bağışlaya bilmirlər. Onlar müxtəlif bəhanələrlə ölkəmizə əsassız hücumlar edir, böhtanlar atır, haqq işimizə kölgə salmağa çalışırlar.

Yanvarın 24-də Avropa Parlamentinin Brüsseldəki binasında keçirilmiş "Dağlıq Qarabağın mədəni və dini irsinin qorunması" adlı konfrans da bu qəbildəndir. Konfransın belə təxribatçı ad altında keçirilməsi, orada səslənmiş fikirlər tədbirin Azərbaycana qarşı hücumların tərkib hissəsi olduğunu deməyə əsas verir. Konfransda Avropa Parlamentinin slovakiyalı deputatı Miriam Leksman, italiyalı deputat Fabio Massimo Kastaldo, "Avropa Nostra" təşkilatının baş katibi Sneşki Kuedvliq Mixayloviç, Avropa Kilsələri Konfransının katibi Petea Pavloviç çıxış ediblər. Onlar Qarabağdakı mədəni və dini irslə bağlı ənənəvi yalançı erməni tezislərini təkrarlayıblar. Əsas məruzəçilərdən biri beynəlxalq hüquq sahəsində mütəxəssis, erməni mediasının "BMT-nin Beynəlxalq Ədalət Məhkəməsində Qarabağın tarixi-mədəni irsi üzrə nümayəndəsi" kimi təqdim etdiyi Pyer de Arjan olub.

**(ardı 4-cü səhifədə)**

# Qarabağ seçki marafonuna qoşulub




Səhifə ⇨ 6

# Milli İxrac Strategiyasının yeni hədəfləri



**İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) və Beynəlxalq Ticarət Mərkəzinin (BTM) birgə təşkilatçılığı ilə keçirilən tədbirdə respublikamızın gerçəkləşdirdiyi ticarət prosesində nəzərə çarpan qeyri-tarif maneələrinin aradan qaldırılması istiqamətində interaktiv müzakirələr aparılıb.**

AZPROMO-nun icraçı direktor müavini Tural Hacılı layihənin ixraca dəstək baxımından əhəmiyyətini qeyd edərək bunun Azərbaycan məhsullarının Aİ ölkələrinə ixracı zamanı üzləşilən problemlərin həlli yollarının tapılmasına mühüm töhfə verəcəyinə əminliyini bildirib. O, mövcud çətinliklərin aradan qaldırılması istiqamətində hazırda intensiv işlər aparıldığını və bu müstəvidə dövlət-özəl tərəfdaşlığı, eləcə də təsdiqlənməsi gözlənilən Milli İxrac Strategiyasının yerli sahibkarlar üçün ticarətin asanlaşdırılması perspektivləri haqqında bəhs edib.

*(ardı 7-ci səhifədə)*

# Qış turizminin qaynar çağı



Səhifə ⇨ 8

# Heydər Əliyev Mərkəzində Lado Qudiaşvilinin sərgisi



Səhifə ⇨ 10

# "Qiyamçı" mühafizəkarlar baş naziri yıxa biləcəklərmi?



Səhifə ⇨ 11

## “Azərbaycan Respublikasında iqtisadi siyasətin və iqtisadi islahatların yeni idarəetmə çərçivəsinin yaradılması və “Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 iyul tarixli 995 nömrəli Fərmanının ləğv edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 9 sentyabr tarixli 1151 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Respublikasında iqtisadi siyasətin və iqtisadi islahatların yeni idarəetmə çərçivəsinin yaradılması və “Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 iyul tarixli 995 nömrəli Fərmanının ləğv edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 9 sentyabr tarixli 1151 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1141 (Cild I) 2-ci hissəsində (birinci halda) “Respublikasının Birinci vitse-prezidentinin” sözləri “Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 yanvar 2024-cü il**

## “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə İraq Respublikasının Rabitə Nazirliyi arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nun təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2023-cü il dekabrın 7-də Bağdad şəhərində imzalanmış “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə İraq Respublikasının Rabitə Nazirliyi arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə İraq Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 yanvar 2024-cü il**

# Əli Əsədov gürcü naziri qəbul edib



**Yanvarın 25-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Gürcüstanın təhsil, elm və gənclər naziri Giorgi Amilaxvari ilə görüşüb.**

Görüşdə Azərbaycanla Gürcüstan arasında mehriban qonşuluq və strateji tərəfdaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunub.

İki ölkə arasında humanitar sahədə əməkdaşlığın səviyyəsi yüksək qiymətləndirilib.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında təhsil və elm sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

***XQ***

# Daxili işlər naziri Gədəbəydə qəbul keçirib



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov yanvarın 24-də və 25-də Gədəbəydə vətəndaş qəbulu keçirib.**

Rayon Polis Şöbəsinin inzibati binasında Ağstafa, Daşkəsən, Tovuz, Qazax, Gədəbəy və Şəmkir şəhər və rayonlarından qəbula gələn 125 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

***XQ***

# Naxçıvanda xarici və yerli investorlarla görüş



**Dünən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli xarici və yerli istehsalçılar, eləcə də investorlarla görüşüb.**

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” barədə ətraflı məlumat verən Fuad Nəcəfli diqqətə çatdırıb ki, 11 prioritet sahəni əhatə edən proqramda nəzərdə tutulan layihələrin artıq icrasına başlanılır. Xüsusilə “yaşıl enerji”, o cümlədən günəş və külək elektrik stansiyalarının inşası istiqamətində çox böyük layihələrin icrası nəzərdə tutulur. Beynəlxalq konsorsium, həmçinin Türkiyə, Almaniya və Çindən investorlar bu layihələrin icrasında yaxından iştiraka maraq göstəriblər.

Bildirilib ki, Naxçıvan azad iqtisadi zonaya çevriləcək, burada fəaliyyət göstərən şirkətlər üçün vergi və gömrük güzəştləri, daşıma və digər sahələrdə müvafiq stimullaşdırma təbiq ediləcək.

***XQ***

## Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2024-cü ildə dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 ili tamam olur.

Məhəmməd Füzuli Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yer tutan, Yaxın və Orta Şərq ölkələri ədəbiyyatına mühüm təsir göstərən qüdrətli sənətkardır. Hərtərəfli biliyə malik mütəfəkkir kimi onun həyata, insana dərin məhəbbət aşılayan və daim gözəllik duyğusu ilə, ülvi ideallarla yaşamağa çağıran çoxcəhətli bədii-fəlsəfi irsi Azərbaycan xalqının bəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi misilsiz mənəvi sərvətlərdəndir. Məhəmməd Füzuli anadilli poeziyanın mükəmməl nümunələrini yaratmış, Azərbaycan bədii dilini daha da zənginləşdirərək yeni zirvəyə yüksəltmişdir. Onun parlaq dühasının təcəssümü olan və bu gün də sevilə-sevilə oxunan əsərləri yarandığı ilk vaxtlardan geniş coğrafiyada yayılmış və müəllifinə böyük şöhrət qazandırmışdır.

Məhəmməd Füzuli istedadlı nümayəndələri ilə tanınan bütöv bir ədəbi məktəb formalaşdırmışdır. Öz müasirlərindən başlayaraq, sonrakı dövrlərdə Füzuli ənənələrinin davamçısı olmuş bütün görkəmli sənətkarlar bu nəhəng söz ustasının adını hər zaman ehtiramla yad etmişlər.

Füzulinin yubileyinin UNESCO tərəfindən qəbul olunmuş qərarla beynəlxalq səviyyədə layiqli şəkildə qeyd edilməsi milli mədəni dəyərlərin qorunmasına həmişə xüsusi diqqət və qayğı göstərmiş Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölməz şairin 500 illiyi müstəqil Azərbaycan Respublikasında keçirilən ilk dünya miqyaslı möhtəşəm ədəbiyyat və sənət bayramı olmuşdur.

Məhəmməd Füzuli Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixinin iftixarıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 illiyinin qeyd edilməsini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 yanvar 2024-cü il**

# Elçin Əmirbəyov: Biz dini müxtəlifliyimizlə fəxr edirik

**Biz heç bir siyasi konyunkturadan asılı olmayan dini müxtəlifliyimizlə fəxr edirik. Müsəlman, yəhudi, xristian - hamımız bir ailəyik. Bu, bizim DNT-mizin bir hissəsidir.**



Azərbaycan Prezidenti İlham Əliyevin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun bu fikirləri ABŞ-ın “International Policy Digest” nəşrində dərc olunmuş bir məqalədə yer alıb.

Məqalədə diqqətə çatdırılıb ki, müsəlman ölkəsi olsa da, Azərbaycan müsəlman, xristian və yəhudi vətəndaşlarının təmsil olunduğu hökumət və təhsil sistemi qurub, bununla fəxr edir. Yazının müəllifi Krişna Naq məqaləsində Şərqlə Qərbi birləşdirən tarixi İpək Yolu üzərində strateji mövqedə yerləşən Azərbaycanın əsrlər boyu qonaqpərvərliyin çırağı olduğunu yazıb.

Azərbaycanda bütün dinlərin təmsilçilərinin azadlıqlarına toxunan jurnalist bu mənada ölkəmizi hamıya nümunə göstərib. Bildirib ki, Azərbaycan mürəkkəb regionda yerləşsə də, öz identikliyini qoruyub. Hətta Roma Papası belə həmişə Azərbaycan haqqında yüksək fikirlər səsləndirib.

Bütün bunlara baxmayaraq, Azərbaycanın gözlənilmədən sanki cəzalandırıldığını, müəmmalı bir addımla İran, Pakistan və Səudiyyə Ərəbistanı kimi dövlətlərlə yanaşı, dini etiqad azadlığına nəzarət siyahısına daxil edildiyini bildirən jurnalist ABŞ-ın Beynəlxalq Dini Etiqad Azadlıqları Komissiyasının Qarabağda xristian irsinin qorunub saxlanması ilə bağlı narahatlığını bəyan etdiyini vurğulayıb. Bildirilib ki, Azərbaycan buna açıq cavab verib. Prezident İlham Əliyevin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov bu media orqanına müsahibəsində bildirib: “Biz bu əsassız və qərəzli qərardan təəssüf edir və onu rədd edirik!”. E.Əmirbəyov, həmçinin bir sıra digər mühüm məqamlara toxunub, o cümlədən də Roma Papası Fransiskin 2016-cı ildə Bakıya səfəri haqqında danışıb. Deyib ki, Roma Papası Azərbaycanın dini harmoniyasını tərənnüm edib. Azərbaycanın izlənilən ölkələr siyahısına salınması çaşdırıcıdır. Beynəlxalq hüquq Qarabağı və onun ətrafındakı rayonları hər zaman Azərbaycan ərazisi kimi tanıyıb. BMT-nin Ermənistanın həmin ərazilərdən geri çəkilməsini tələb edən qətnamələrinə baxmayaraq, işğal onilliklər boyu davam edib. Azərbaycan Ermənistanın işğalı altında olan torpaqlarını bu yaxınlarda geri qaytarıb.

Xüsusi tapşırıqlar üzrə nümayəndə deyib ki, Qərbdən olan müşahidəçilər, o cümlədən “L’Institut Prospective et Sécurité en Europe”dan Emmanuel Düpüi uzun illər Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın mədəniyyət abidələrinin təhqir edilməsini, dağıdılmasını görüb və pisləyiblər. Onilliklər ərzində Qarabağdakı Azərbaycan mədəniyyət nümunələri sistemli şəkildə vandallığa məruz qalıb, mənimsənilib və məhv edilib.

Sonda yazıda qeyd olunub ki, dünyanın tolerantlığa can atdığı bir şəraitdə Azərbaycan kimi strateji tərəfdaşdan uzaqlaşmaq əks effekt verir. Bunun əvəzində isə Qərb Azərbaycanın zəngin dini plüralizm təcrübəsindən istifadə edərək, Yaxın Şərqdə və başqa yerlərdə daha ahəngdar mövcudluq üçün səylər göstərsə, daha uğurlu alınar və faydalı olar.

***XQ***

# Səfir etimadnaməsini Yunanıstan Prezidentinə təqdim edib

**Azərbaycanın Yunanıstandakı səfiri Arif Məmmədov etimadnaməsini Yunanıstan Prezidenti Katerina Sakellaropulouya təqdim edib. Bu barədə Yunanıstanın Azərbaycandakı səfirliyi məlumat yayıb.**



"Azərbaycanın Yunanıstandakı səfiri Arif Məmmədovu etimadnaməsini Yunanıstan Respublikasının Prezidenti Katerina Sakellaropulouya təqdim etməsi münasibətilə təbrik edir, ona fəaliyyəti dövründə uğurlar əldə etməsini diləyirəm",- paylaşımda qeyd olunub.

***XQ***

# AŞPA-nın Azərbaycan "problemi": ədalətsizliyin anatomiyası

## III HİSSƏ

*"Menon, buradakı (Qədim Yunanıstanda – müəllif) istənilən adamdan "fəzilətli insan kimdir?" deyə soruş, sənə gülüb deyəcəklər ki, "nə bilim?"!*

*"Menon" dialoqu*

### Qoca Sokrat, Avropa sənin üçün darıxmışdır!

Amma Sokrat doğurdan müdrik idi. Çünki həm həmvətənlərini yaxşı tanıyırdı, həm də intellekti fəzilətli idi. O deyirdi ki, "düşünəndə ilk növbədə olub-keçənləri fikirləş və onu indi baş verənlərlə müqayisə et: onda aydın olmayan hər şey bir anda aydınlaşacaq" ("Arılar" dialoqu). Sokratın məntiqinə uyğun olaraq, AŞPA-nın fəzilətli (yəni müdrik, doğruçu, xeyirxah, sülhpərvər) olduğunu bilmək istəyiriksə, onun keçmişinin bir sıra fraqmentlərini yada salaq.



Bunun üçün Azərbaycan nümayəndə heyətinin AŞPA-da fəaliyyətini dayandırmasına yol açan məqamlara baxaq. Özlüyündə Azərbaycan tərəfinin bu addımı gözlənilən hadisə idi. Bütövlükdə bu təşkilatın ayrı-ayrı dövlətlərlə münasibətləri tarixçəsinə nəzər salanda aydın olur ki, AŞPA heç də şəffaf bir təşkilat deyil. Onun atdığı addımlarda, kifayət qədər, süni və konkret siyasi məqsədlərə xidmət edən məqamlar mövcuddur. Bir sıra dövlətlərlə münasibətlərinin tarixçəsinə qısa diqqət yetirsək, bu tezisin doğruluğuna əmin olarıq. Öncə, AŞPA-nın yeni seçilmiş sədri haqqında bir sıra faktlara baxaq.

### Rusopulos: yunan "yeni demokratları"nın korrupsioneri?

Yunanıstanın mediası və siyasiləri təntənə ilə bəyan edirlər ki, Tedoros Rusopulosun AŞPA-ya yekdilliklə sədr seçilməsi böyük uğurdur və hətta qələbədir. T.Rusopulos Yunanıstanın keçmiş dövlət naziridir, həm də jurnalistdir. Yunanıstanda Böyük Britaniyada və ABŞ-da təhsil alıb. Ölkənin "Yeni demokratiya" partiyasının üzvüdür. Bu partiya da öz növbəsində Avropa Xalq Partiyasına daxildir. Avropa Xalq Partiyası 1976-cı ildə yaradılıb. Ümumavropa partiyası sayılır. Sağ-mərkəzçi hesab olunur. O, AŞPA-nın aparıcı siyasi təşkilatıdır. Tərkibinə Avropa ölkələrinin xristian-demokrat və liberal-konservator partiyaları daxildir. Xristian-demokratlarla liberal-konservatorları birləşdirən cəhətlərdən biri Avropanın və dünyanın inkişafını xristian dəyərləri əsasında görmələridir. Yəni, strateji məqsəddə xristian dəyərləri, siyasi-ideoloji normativləri çərçivəsində bütün dəyər növlərini (siyasi, ideoloji, mədəni, təhlükəsizlik və s.) universallaşdırmaq var.

Bu bağlılıqda maraqlıdır ki, AŞPA-ya daxil olan partiyaların bəzilərinin (bizim bildiyimiz informasiya daxilində) liderləri Bilderberq Klubunun üzvləridirlər. Məsələn, alman xristian-demokratlarının keçmiş lideri Angela Merkel 2005-ci ildə Bilderberq Klubunun konfransında iştirak edib. Bu sırada E.Makron və Ursula fon der Lyayenin də adları çəkilir.

Bu kimi informasiyaların fonunda, AŞPA-nın yeni sədrinin kimliyi haqqında mövcud olan bir sıra məlumatlar maraq doğurur. Onu deyək ki, T.Rusopulos qurumun Miqrasiya, qaçqınlar və köçkünlər komitəsinin 2023-cü ildən üzvü idi. Görünür, məhz bu məsələlərlə məşğul olan birinin təşkilata sədr gətirilməsi təsadüfi deyil. Bu, o deməkdir ki, Aİ-nin miqrasiya siyasəti dəyişməyəcək və onun islamofob xarakteri hələ davam edəcək.

T.Rusopulosun bu siyasətə dəstək verəcəyinə şübhə yoxdur. Bunu onun karyerasının bir fraqmenti də təsdiqləyir. Yunan mediasının məlumatına görə, 2009-cu ildə Antonios Samaras "Yeni demokratiya" partiyasının sədri seçiləndən sonra, "təmizlik" işlərinə başlayıb. O, prinsipial olaraq qanuna əməl etməyən partiya silahdaşlarını cəzalandırıb. O cümlədən, partiya sıralarından çıxarılmalarını tələb edib. Partiyanın mövqeyinə əks olduğu üçün həmin dövrün xarici işlər naziri D.Bakoyannini qurumdan uzaqlaşdırıb. A.Samaras, eyni zamanda, korrupsiyaya uğramış üzvlərə qarşı da addım atıb. Onların sırasında...Teodoros Rusopulos da olub. Simens şirkətinin yunan şöbəsindən rüşvət almaqda ittiham edilib.

Xatırladaq ki, 2010-cu il mayın 28-də Yunanıstanın keçmiş nəqliyyat və kommunikasiya naziri Tasos Mantelis parlament komitəsinə Simens şirkətindən 100 min avro rüşvət aldığını etiraf edib. Məsələ isə 2004-cü ildə Afinada keçirilmiş Olimpiya oyunları ilə bağlı qalxmışdı. O zaman bütövlükdə yunan tərəfi 100 milyondan çox rüşvət almaqda ittiham olunmuşdu. Bu işə görə T.Mantelis 8 il şərti zəcaya məhkum edilmişdi.

T.Rusopulosla bağlı bu məsələdə hansısa cəza tətbiqi haqqında yazılmır. Lakin A.Samaras açıq bəyan etmişdi ki, T.Rusopulos partiyadan korrupsiya işinə qarışdığına görə çıxarılıb. Deməli, buna baxmayaraq, bu adamın partiyada qalması nəinki təmin edilmiş, hətta onun üzvü kimi inkişaf etmişdi və hazırda AŞPA-nın sədridir. Kimlər onun əlindən tutub, "yuxarı çıxarıblar"? Hansı vədlərlə? Bizim üçün qaranlıqdır, lakin tarix bütün qaranlıqları aydınlığa çıxarır.

Beləliklə, AŞPA-nın və Yunanıstanın tarixində ilk dəfə bir yunan siyasətçinin bu təşkilata sədr seçilməsi qaranlıq məqamlarla xarakrterizə olunur. Bunun xeyirli iş olub-olmadığını zaman göstərəcək. Lakin AŞPA-nın bir sıra dövlətlərə qaşı etdiklərinə nəzər salsaq, burada da sualların az olmadığını görərik.

### AŞPA-nın Yunanıstan "sindromu"

Yunanıstanda 2008-ci ildə ciddi maliyyə böhranı başlayanda bütün Avropanı silkələdi. Aİ siyasi mühitinə "yunan böhranı" adlanan hadisə daxil oldu. Avropa İttifaqı Yunanıstana yardım etməkdə könüllü deyildi, A.Samaras hökuməti beynəlxalq təşkilatlardan maliyyə yardımını uyğun görmürdü və Aİ də buna qarşı fəaliyyət göstərməyə başlamışdı. Həmin dövrdə Avropa İttifaqının bir neçə dəfə toplanaraq məsələni müzakirə etdiyini xatırlayırıq.

Təşkilat Yunanıstandan incik idi. O dövrdə yunan hökuməti ilə AŞPA arasında da müəyyən çəkişmələr yaşandı. AŞPA, faktiki olaraq, "yunan sindromu" ilə üz-üzə qaldı. Doğrudur, bu, yalnız AŞPA-nı əhatə etmirdi – bütövlükdə Avropa İttifaqının məsələsi idi. Lakin bütün hallarda aydın görünürdü ki, böhranlı vəziyyətə düşmüş yunan hökumətini Avropa İttifaqı müəyyən şərtlərlə dəstəkləmək siyasətini yeridir. Yəni, onu yunanların çətin vəziyyəti deyil, "filan şərtə əməl et, sonra yardım al" mövqeyi maraqlandırırdı. Bu, pərdəarxası hansı oyunların getdiyinə işarə verirsə də, konkret informasiya olmadan qəti fikir söyləmək düzgün deyil.

Bütün hallarda yunan böhranı göstərdi ki, rəsmi Brüssel münasibəti heç də obyektivlik, demokratiya, humanizm prinsipindən çıxış edərək qurmur. Hətta öz üzvləri ilə də!

### AŞPA–Türkiyə: anlaşılmazlıq, yoxsa məqsədli siyasət?

Avropa Şurası Parlament Assambleyası Türkiyəyə qarşı da suallar doğuran addımlar atıb və yenə də atmaqdadır. O cümlədən, təşkilat Türkiyə hökumətindən tələb edib ki, Səlahəddin Dəmirtaşı və Osman Kavalanı "təcili həbsdən azad etsin"! Ritorikaya diqqət: "təcili azad et"!

Xatırladaq ki, S.Dəmirtaş Türkiyədə kürd partiyası kimi tanınan HDP-nin həmsədri idi. O, terror aktını təşkil etməkdə və qarışdırmaq yaratmaqda ittiham edilərək həbsə atılıb. S.Dəmirtaş Türkiyədə separatçılığı və terroru qızışdıran siyasətçilərdən biri kimi tanınır. Osman Kaval isə FETÖ-nun əmri ilə "Gəzi hadisəsi" adlanan prosesdə ittiham olunur. Onun da əsas məqsədi Türkiyədə cinsi azlıqlar üzərindən cəmiyyətdə parçalanma yaratmaqdan ibarət olub. O.Kavalanın cinayəti məhkəmədə sübut olundu və indi də həbsdədir. S.Dəmirtaş və O.Kavalanı həbsdən qurtarmaq üçün Qərb (o cümlədən, ABŞ və Almaniya) çox çalışdı, lakin qətiyyətli və milli Türkiyə iqtidarı bütün cəhdləri boşa çıxardı.

Türkiyə Xarici İşlər Nazirliyi həmin hadisə ilə bağlı yaydığı bəyanatda AŞPA-nın qərarını "tarixi səhv" adlandırmışdı. Vurğulayaq ki, söhbət AŞPA-nın Türkiyə nümayəndə heyətinin fəaliyyətini məhdudlaşdırmaq və bir sıra hüquqi prosedurlardan məhrum etmək istiqamətində qəbul etdiyi sənəddən gedir. Türkiyə tərəfi AŞPA-nın məhkəmə işlərinə qarışdığını və bununla "diplomatik dialoq kanallarını bağladığını" ifadə etmişdi.

S.Dəmirtaş və O.Kavala Türkiyənin birliyinə və milli təhlükəsizliyinə təhlükə yaratdıqlarına və mövcud istiqamətdə konkret addımlar atdıqlarına görə tutulublar. S.Dəmirtaşa qarşı irəli sürülmüş ittihamlardan yüzlərlə Türkiyə vətəndaşına qarşı terrorun təşkili xüsusi yer tutur. Bütün bunları AŞPA görməzdən gəlir və tutuquşu kimi təkrarlayır: Dəmirtaş və Kavala azad edilsinlər! Yəni, onları buraxın ki, həvəslənib yeni-yeni terrora imza atsınlar! AŞPA-nın Türkiyə siyasətinin ana xətti bundan ibarətdir.

Burada AŞPA-nın Azərbaycan mövqeyi ilə bir oxşarlıq görürük. AŞPA Azərbaycanda da erməni terrorçu və separatçıların həbsinə son verilməsini tələb edir. Bəhanə də eynidir: "demokratiya və insan haqları"!

Türkiyə və Azərbaycan xəttini tamamlamaq üçün AŞPA-nın Rusiya siyasətinə də qısa nəzər salaq.

### AŞPA: "Rusiya, sən hər şeydə günahkarsan!"

O cümlədən, nə qədər qəribə də olsa, AŞPA da daxil olmaqla, Qərb siyasi dairələri "Rusiya, sən niyə, ümumiyyətlə, mövcudsan?" kimi qaba və antiinsani bir sualı verməkdən özlərini güclə saxlayırlar. Yeri gəlmişkən, eyni məntiqi Türkiyəyə münasibətdə də görürük.

Doğrudur, Rusiya Krımı, Donbası, Luqanskı işğal edib və ona bu məsələdə haqq qazandırmaq mümkün deyil! Ancaq tam əminik ki, məsələ avropalıların Ukraynanın ərazi bütövlüyünün və artıq sayı milyonu keçmiş zərərdidlərinin haqlarının dərdini çəkməklə bağlı deyil! Bunu Avropanın dövlətçilik ənənəsi də, müasir mərhələdə apardığı siyasət də təsdiqləyir. Məsələn, təsəvvür edin ki, Rusiya özünün indiki siyasi-coğrafi ərazisində separatçılıqla mübarizə aparsa idi, AŞPA daxil olmaqla, Qərb təşkilatlarının reaksiyası eyni olacaqdı. Yəni, Rusiya hansı addımı atsa, "niyə belə etdin, bu demokratiyaya uyğun deyildir" sözlərini eşidəcəkdi. Məsələn, Türkiyə və Azərbaycan kimin torpaqlarını işğal edib? Heç kimin, lakin onlar da eyni ittihamlarla üz-üzədir! Türkiyə və Azərbaycan hansı ölkənin ərazisinə iddia edib? Ancaq uydururlar ki, nə vaxtsa, Azərbaycan və Türkiyə Zəngəzuru işğal edəcək! Türkiyə və Azərbaycan hansı ölkənin dinc vətəndaşlarını kütləvi qətlə yetirib? Heç kimin!

Son olmayan söz: haqq, ədalət, müstəqil dövlətçilik uğrunda mübarizəmiz bir an belə dayanmayacaq! Kimliyindən və hansı regionda (Qərb və ya Rusiya, Latın Amerikası və ya Uzaq Şərq, Asiya və ya ən yaxın qonşu - fərqi yoxdur) aparmasından asılı olmayaraq, Türkiyə və Azərbaycan müstəqillik mübarizəsini, ədalət naminə savaşını qətiyyən dayandırmayacaq. Bizə qarşı olan qərəzə qərəzlə deyil, ədalətlə cavab veririk və bu, belə davam edəcək! II Qarabağ savaşının da yekunlarından biri tarixi ədalətin bərpasıdır! Bu barədə dövlətimizin başçısı da fikrini ifadə edib! Ayrıca, milli qürurumuz tarixi ədalətlə yanaşı, beynəlxalq hüququ təmin edib!

Bunlara görə, AŞPA-nın sədri istənilən korrupsioner və ya gizli təşkilatın üzvü ola bilər. Türklər isə ədalətli və haqlı dövlətlərini inkişaf etdirəcəklər! Buna, kimsə, o cümlədən, AŞPA şübhə etməsin!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Azərbaycanın AŞPA ilə yollarını ayırmasına dair 10 məqam

**(əvvəli 1-ci səhifədə)**

**Üçüncüsü,** AŞPA-dakı nümayəndə heyətimizin qərarından dərs götürməli olan yalnız Avropa Şurası deyil. Nəzərə alaq ki, ölkəmiz "köhnə qitə"nin, eləcə də dünyanın digər təşkilatlarında da təmsil olunur, yaxud həmin təşkilatlarla əməkdaşlıq əlaqələrinə malikdir. Yəni, onlar da hazırkı durumun ciddiliyinə həssas yanaşmalıdırlar.

**Dördüncüsü,** nümayəndə heyətimizin addımı dünyanın aparıcı təşkilatları üçün siqnal olmalıdır, o anlamda ki, həmin təşkilatlarda birləşmiş çoxluq, sanki, dəvənin başını samanlığa salıb arxasına diqqət etməməsinə bənzər görkəmdədir. Bu çoxluğun nümayəndələri anlamalıdırlar ki, təmsil olunduqları qurumların gəlişigözəl ifadələrdən o yana keçməyən məramları ilə manipulyasiya cəhdlərini kənardan çox yaxşı görənlər və tutarlı reaksiya verənlər var. Obrazlı desək, belələri özlərini dəvə olmaqdan qurtarmalıdırlar. Başlarını samanlıqdan çıxarıb ətrafı yaxşı-yaxşı müşahidə etməlidirlər.

**Beşincisi,** AŞPA-dakı nümayəndə heyətimizin təşkilatdakı iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarı dünyanın mötəbər institutlarının böhranından xəbər verməkdədir. Azərbaycan bu böhrana ilk reaksiya verən ölkə kimi nümunədir. AŞ-nin üst eşelonu nəzərə almalıdır ki, səslərinə etimad etdikləri şəxslər hərəkət və davranışları, ədalətsizlikləri və haqsızlıqları ilə böhranı daha da dərinləşdirməkdədirlər.

**Altıncısı,** nümayəndə heyətimizin addımı nəinki AŞ-nin, bütövlükdə Avropanın və dünyanın aparıcı təşkilatlarının ermənipərəstlik mərəzindən qurtulması üçün də siqnal olmalıdır. Bu təşkilatlar Ermənistanın və havadarlarının siyasi oyunlarında alətə çevrilərək, anti-Azərbaycan mövqe tutmaqla, dünya üçün son dərəcə təhlükəli presedent formalaşdırmaqdadırlar. Çünki hərəkətləri, böyük ölçüdə, separatizm və ekstremizm xüsusundakı siyasi avantürizmə dəstəkdir. Bu dəstək bumeranq effekti yarada bilər. İndiki halda nəzərə alaq ki, "köhnə qitə"nin bir çox yerlərində potensial separatizm ocaqları mövcuddur. AŞPA-nın Azərbaycana qarşı tutduğu ədalətsiz mövqe isə həmin ocaqların baş qaldırması üçün presedentdir. Belə hal yaşanacağı təqdirdə, Avropanın siyasi və mənəvi industriyasının hansı vəziyyətə düşəcəyini proqnozlaşdırmaq qorxunc düşüncələrə yol açır.

**Yeddincisi,** AŞPA-dakı nümayəndə heyətimizin qətiyyətli mövqeyi, bilavasitə, Ermənistan hakimiyyətinə və onun xaricdəki havadarlarına da dərs olmalıdır. Onlar düşünməlidirlər ki, Azərbaycan beynəlxalq təşkilatlar vasitəsilə özünə ünvanlanmış təzyiqlər qarşısında geri çəkilmir, prinsipial mövqeyinin qorunması naminə hər cür mötəbər sayılan tribunadan imtina əzminə malikdir.

**Səkkizincisi,** Avropa Şurası və AŞPA öz məhvərinə qayıtmalıdır. Əslində, bu gün Azərbaycan üçün onlardan tamamilə ayrılmaq su içimi kimi bir şeydir. 2001-ci ildən təşkilata üzvük və onun parlament məclisində təmsil oluruq. Sual olunur: bu üzvlük və təmsilçilik bizə nə qazandırıb? Sualı birbaşa qoyaq: Avropa Şurası Azərbaycan üçün nə edib? Əslində, heç nə. Qurum ölkəmizdə insan hüquqları, media azadlığı və sair bu kimi layihələr reallaşdıraraq, yerli şəbəkə formalaşdırıb Azərbaycana qarşı təzyiq üçün "materiallar" toplamaq funksiyasını gerçəkləşdirib. Daim qərəz toxumları səpib. AŞ, ilk növbədə, məhz bu yanaşmasında dəyişiklik aparmalıdır. Onun məhvərinə qayıtması mövcud xüsusda baş verməlidir.

Əlbəttə, "Avropa Şurası Azərbaycan üçün heç nə etməyib" fikri ətrafında düşünərkən, Qarabağ məsələsi üzərində ayrıca dayanmaq lazımdır. Məlum olduğu kimi, qurum uzun müddət Azərbaycan torpaqlarının işğalına səssiz yanaşıb. Arqument bu olub ki, münaqişənin həllində səlahiyyətli deyil. Çünki onunla ATƏT-in Minks qrupu məşğul olur. Halbuki, ortada insan amili var idi. Bir milyona yaxın azərbaycanlı öz doğma yurd-yuvasından qaçqın düşmüşdü, həmvətənlərimizin həyat ehtiyaclarına, azadlıqlarına təcavüz gerçəkləşmişdi. Bəs, onlar insan deyildilərmi?..

**Doqquzuncusu,** Azərbaycanın BMT Təhlükəsizlik Şurasının tərkibinin genişləndirilməsi ilə bağlı irəli sürdüyü təşəbbüs Avropa Şurası və ümumən dünyanın təsisatları baxımından da keçərlidir. O anlamda ki, ölkəmiz haqq və ədalət tələb edir. Bu təsisatlar isə məsələyə prinsipial yanaşma irəli sürə bilmirlər. Elə təsir bağışlayır ki, onlar dünya üçün əhəmiyyətli qərarlar verən qurumlar yox, yalnız müəyyən məqsəd və mənafelər naminə bir araya toplaşmış insanların klubudur. Məsələn, ötən il Avropa Parlamentinin bir deputatı iclas zalında narkotik maddə qəbul edərkən, yaxalanmışdı. Heç şübhəsiz, təşkilatın deputatları içərisində geylər və transvestitlər də var. Belələri haqq və ədalət carçısı ola bilərlərmi? Məsələ heç də bu adamların cinsi orientasiyasında deyil. Nəhayət öz həyatlarını bildikləri kimi yaşamaq hüququna malikdirlər. Problem ondadır ki, belələri ayrı-ayrı ölkələrin necə yaşamalı olduğunu diktə edirlər və özlərinin yaşam tərzinə uyğun gəlməyən durumu təməl prinsiplərin pozulması kontekstində dəyərləndirirlər.

Nəticə etibarilə bu yanaşma ehkamlaşaraq, onu irəli sürənlərin təmsil etdikləri təşkilatların strategiyası halına gəlir. Əsil fəlakət də məhz o zaman yaşanır. Deməli, indiki halda biz Avropanın və dünyanın aparıcı qurumlarında xristian təəssübkeşliyi motivlərini aşkar görürüksə, bu, məhz din amili üzərində manipulyasiya edənlərin siyasi səhnəni zəbt etmələri təəssüratını formalaşdırır. Heç şübhəsiz ki, zaman keçdikcə haqqında söz açdığımız geylər və transvestitlər də meydana atıla bilərlər. Bilavasitə ölkəmizə olmasa da, digər dövlətlərə münasibətdə mövcud tendensiyanın ayrı-ayrı təzahürlərini müşahidə etməkdəyik. Belə bir mürəkkəb konfiqurasiya şəraitində deformasiyaya uğrayıb sıradan çıxan isə bəşəri dəyərlər, haqq və ədalət olur.




**Nəhayət, onuncu və sonuncu məqam** üzərində dayanaq. Azərbaycan Prezidenti İlham Əliyev 44 günlük müharibə müddətindəki çıxışlarının birində bildirmişdi ki, beynəlxalq təşkilatların təmsilçiləri Azərbaycana haqsız müharibə apardığını deyib irad tuta bilməzlər, çünki ölkəmiz illər ərzində onların qəbul etdikləri sənədlərdə Ermənistanın işğalçı kimi vurğulanmasına nail olub. Yəni, həmin təşkilatların özlərini inkar yolu tutmaları məntiqi deyil. Biz müharibədən sonrakı müddətdə bu qurumların bəzilərinin məhz özlərini inkar yolu tutduqlarının şahidi olduq və olmaqdayıq. Özünü danmaq yolu tutanlardan biri də məhz AŞPA-dır. Qeyd edək ki, qurumun növbətçi də olsa, bəyanatlarında Azərbaycan torpaqlarının, o cümlədən, Qarabağın ermənilər tərəfindən işğal olunduğu bildirilib. Hazırda qurumun tutduğu ermənipərəst mövqe isə həm də o anlama gəlir ki, təcavüzkar, zorakılığa yol verən Ermənistan yox, Azərbaycandır. Əlbəttə, bu yanaşma, bütövlükdə, AŞ-ni prinsipsizləşdirir. Bu yanaşmanın qurumu haqsızlıq və ədalətsizlik üçün vasitəyə çevirdiyi də öz yerində.

Bəli, AŞPA nə vaxt prinsipsizliyindən, buqələmunluğundan daşınar, o zaman Azərbaycan onunla əməkdaşlığa, qurumda təmsilçilik məsələsinə baxa bilər. Doğrudur, bu, elə də asan məsələyə oxşamır. Ona görə də ölkəmizin müəyyənləşdirdiyi müddət qeyri-müəyyəndir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Avropa Parlamentinin qərəzi



(əvvəli 1-ci səhifədə)

Tədbirdə iştirak etmək üçün Brüsselə gedən Eçmiədzin kilsəsinin təbliğat mərkəzinin direktoru və "Qarabağın mənəvi və mədəni irsi idarəsinin rəhbəri" arximandrit Qaregin Ambarsumyan, "mədəni irs üzrə mütəxəssis" Armine Tiqranyan, Ermənistanın Belçikadakı səfiri və Aİ-dəki nümayəndəsi Tiqran Balayan isə çıxışları zamanı qərbli "canıyananlar"a dəstəvuz veriblər. Xüsusilə, Armine Tiqranyan diqqətə çatdırıb ki, bu gün 4000-dən çox erməni abidəsi (?), monastır kompleksləri, digər mədəni obyektlər Azərbaycanın nəzarəti altındadır və guya, azərbaycanlılar onları məhv edə bilərlər.

İştirakçılar ölkəmizi Qarabağda, yəni öz ərazisində "mədəni soyqırımı törətməkdə" (?) suçlayıblar və qeyd ediblər ki, bunun qarşısını almağın əsas yollarından biri beynəlxalq sülhməramlıların yerlərdə mövcudluğu və aydın mexanizmlərin olmasıdır. Avroparlamentin deputatları "əzabkeş erməni xalqının" nümayəndələrinin könlünü xoş etmək üçün onları əmin ediblər ki, bu məsələnin Avropa İttifaqının icra orqanının diqqət mərkəzində qalması üçün əllərindən gələni əsirgəməyəcəklər. Deputat Fabio Massimo Kastaldo gələcəkdə beynəlxalq strukturlarda istifadə etmək məqsədilə Qarabağda baş verən hər şeyi izləmək və sənədləşdirmək üçün Avropa peyklərindən istifadəni məqbul sayıb. Konfransın sonunda iştirakçılar təşkilati işlərdə iştirak edən Avropa Parlamentinin fransalı deputatı Belyaminin videomüraciətinə baxıblar.

Qeyd etdiyimiz kimi, hazırda Qərbin Fransa başda olmaqla, bəzi dövlətləri, Parisin təsirinin güclü olduğu regional təşkilatlar "erməni məsələsi"ni əllərində bayraq edərək, ölkəmizin üzərinə hücuma keçirlər. Onların yanaşmaları orta əsrlərin səlib yürüşlərini xatırladır. Zaman göstərir ki, Qərb zahirən dəyişsə, inkişaf etsə də, daxilən yerində sayır. Onun təmsilçilərinin təfəkkürü hələ də orta əsrlərdə ilişib qalıb. Bu yanaşma isə acı təəssüf doğurur.

Zənnimizcə, bu məqamda Prezident İlham Əliyevin 2023-cü il dekabrın 31-də xalqa müraciətindən iqtibas gətirmək yerinə düşər: "Ermənilər 30 il ərzində bizim torpaqlarımızı dağıdaraq bütün evləri, tarixi binaları, məscidlərimizi yerlə-yeksan etmiş, bizə qarşı soyqırımı, eyni zamanda, urbisid, ekosid törətmişlər. Bizim çaylarımız zəhərləndi, bizim meşələrimiz qırıldı. Bütün bunları edən Ermənistan dövləti idi. Əfsuslar olsun ki, bu cinayətlərə görə onlar bu günə qədər Qərbdə qınaq obyektinə çevrilmədi..."

Bəli, Qərbdəki həmin dairələr Ermənistanın cinayətləri zamanı susdular, Azərbaycanı isə hazırda əsassız ittiham etməklə məşğuldurlar. Bunu edən avropalılar son yüzilliklər ərzində davamlı qələbələrə öyrəşiblər. Onlar böyük imperiyalar qurub, müstəmləkə ərazilərinin yeraltı və yerüstü sərvətlərini metropoliyalara daşıyıb, əhalisini isə qul kimi işlədib, alıb-satıb, qarşılarına qoyduqları bütün məqsədlərinə çatıb, hegemon qüvvəyə çeviriliblər.

Qərb koalisiya yaradaraq, 1991-ci ildə İraqı, 1999-cu ildə keçmiş Yuqoslaviyanı bombalayıb, 2001-ci ildə Əfqanıstana, 2003-cü ildə İraqa müxtəlif adlar altında müdaxilə edib. Bəzi hallarda heç BMT Təhlükəsizlik Şurasının qətnaməsinə də ehtiyac duymayıb. Qərbin qızışdırıcı siyasəti sayəsində 2011-ci ildə Yaxın Şərqdə və Şimali Afrikada "Ərəb baharı" adı alan proseslər start götürüb. Nəticədə 30-a yaxın ölkədə, o cümlədən, Suriyada, Misirdə, Bəhreyndə, Livanda, Yəməndə, Tunisdə, Əlcəzairdə və digər ölkələrdə kütləvi iğtişaşlar, vətəndaş müharibələri başlayıb. Bəzi ölkələrdə qanuni hökumətlər devrilib, bəzilərində qanlı münaqişələr hələ də davam edir. Hesablamalara görə, həmin hadisələr mülki şəxslər də daxil olmaqla, ən azı 800 min insanın ölümünə səbəb olub. Lakin kimlərsə Qədim Romadan miras qalan "Divide et impera" ("Parçala və hökm sür") yanaşma, tipik imperiya təfəkkürü ilə bu proseslərdə öz marağını güdüb.

Qərb Ermənistanı Cənubi Qafqaz regionundakı əsas dayağı adlandırır. Rəsmi şəxslər dilə gətirməsələr də, ermənipərəst mədəniyyət və incəsənət xadimləri, jurnalistlər Ermənistanı üç tərəfdən müsəlman ölklələri ilə əhatə olunmuş "xristianlıq qalası" adlandırırlar. Məsələn, Britaniyanın məşhur "Queen" qrupunun üzvü Brayan Mey 2022-ci ilin sentyabrında Ermənistanla Azərbaycan arasındakı sərhəd toqquşmasından sonra demişdi: "Ermənistan heç bir nefti, qazı və ya böyük sərvəti olmayan kiçik bir ölkədir. Hər tərəfdən müsəlman rejimlərlə əhatə olunmuş xristianlıq və demokratiya adasıdır. Bu, dünyanın ən sülhsevər ölkələrindən biridir. Hazırda Ermənistan yenidən yer üzündən silinmək planı ilə təhdid edilir. Azərbaycan–Türkiyə–Rusiya ittifaqına (?) qarşı Ermənistan tamamilə müdafiəsizdir və sağ qalmaq üçün Qərbin tam dəstəyinə ehtiyacı var".

Bəli, Qərbin rəsmi şəxslərinin mütləq əksəriyyətinin də yanaşması bundan ibarətdir. Belə bir şəraitdə onlar əhalisinin əksəriyyəti müsəlmanlardan ibarət olsa da, sekulyar dövlətçilik modelini seçmiş Azərbaycanın Qərbin regiondakı dayaq nöqtəsi üzərində qələbə çalmasını həzm edə bilmirlər. Zənnimizcə, ölkəmizə hücumların kökünü burada axtarmaq lazımdır. Eyni zamanda, bu hücumlardakı sinxronluq da onların eyni mərkəzdən idarə olunmasının göstəricisidir. Ancaq onlar deyəsən, başa düşmürlər ki, bununla ilk növbədə elə "halına yandıqları" Ermənistana ziyan vururlar. Kənardan olan müdaxilələr Bakı və İrəvan arasında sülhün əldə olunmasına neqativ təsir göstərir. Sülhün yaranmaması isə Ermənistanın əvvəlki kimi dalan, təcrid vəziyyətində qalması deməkdir.

**Bununla bağlı fikirlərini "XQ" ilə bölüşən "Qafqaz tarixi" Mərkəzinin rəhbəri, siyasi şərhçi Rizvan Hüseynov** dedi ki, Avroparlamentdə keçirilən qondarma tədbir Fransa və onun əlaltısı



olan bəzi dairələrin davamlı anti-Azərbaycan siyasətinin tərkib hissəsidir. Onun sözlərinə görə, istər AŞPA, istərsə də Avropa İttifaqı strukturları səviyyəsində Azərbaycana qarşı kampaniyanın başladığını görürük: "Guya, onlar mədəni irslə bağlı narahatdırlar və sair. Ancaq burada sadə bir sual yaranır. Belə tədbirlərdə qarşı tərəfin mövqeyini ifadə edən heç olmasa, bir nəfər şəxs olmalıdır. Orada səsləndirilən ittihamlara əks arqumentlər gətirilməlidir. Bunu etməmək özü də sırf qərəzdən xəbər verir. Əsas istəkləri Azərbaycana qarşı sanksiyalar tətbiq etməkdir. Bu fikir də orada səsləndirilib. Heç bir nəticəsi olmayacaq. Bu baxımdan səslənən fikirlər təbliğatdan başqa bir şey deyil".

Qarabağdakı abidələrə gəldikdə isə Rizvan Hüseynov qeyd etdi ki, iqtisadi rayondakı abidələr qorunur: "İstər erməni, istər alban irsinə aid abidələrin vəziyyəti bəllidir. Azərbaycan dövləti məsələyə həssas yanaşır. Niyə həmin tədbirdə bir dəfə deyilmir ki, Ermənistan ərazisində və işğal dövründə Qarabağda Azərbaycan irsinə aid abidələr – məscidlər, türbələr, qəbiristanlıqlar, karvansaraylar, qalalar dağıdılıb. Məscidlər, qəbiristanlıqlar təhqir edilib. Deməli, bu, həm qərəzdir, həm xristian təəssübkeşliyi prizmasından səlibçilərin keçirdiyi bir tədbirdir. Deməli, Azərbaycana qarşı səlib yürüşü davam edir. Orta əsrlərdə səlib yürüşlərinin qarşısını Azərbaycandan çıxan sərkərdələr – Nurəddin Mahmud Zəngi, onun yetirməsi Səlahəddin Əyyubi alıblar. Onlar səlibçiləri darmadağın ediblər. Görünür, indi də müasir səlibçilər onların taleyini yaşamaq istəyirlər. Azərbaycan o vaxt olduğu kimi, hazırkı proseslərdə də öz tarixi rolunu oynayacaq".

**Politoloq Yeganə Hacıyeva** isə bildirdi ki, Avropa Parlamentinin yanaş-



ması heç vaxt reallığı əks etdirməyib və anti-Azərbaycan mövqeyinə əsaslanıb. Onun sözlərinə görə, biz istər işğal dövründə, istərsə də işğaldan sonrakı dövrdə bunun şahidi olmuşuq: "Avroparlamentdə üzv ölkələrdən olan partiyalardan ibarət siyasi qrupların erməni lobbisi ilə sıx əlaqələri var və onların maraqlarına xidmət edirlər. Buna görə də, belə bir tədbirin keçirilməsi adi haldır. Orada səslənən fikirlər reallığı əks etdirə bilməz".

Yeganə Hacıyevanın fikrincə, Vətən müharibəsindən əvvəl Avropa Parlamentinin qəbul etdiyi qətnamə və bəyanatlarda erməni işğalı ifadəsi əksini tapsa da, məsələdə Azərbaycana qarşı həmişə ikili standartlar siyasəti yürüdülüb: "Qurum Ermənistana işğal etdiyi Azərbaycan torpaqlarından çıxması üçün heç vaxt təzyiq göstərməyib. Heç bir halda işğalı təsdiqləyən BMT-nin qətnamələrinə riayətə və beynəlxalq hüququn normalarına və prinsiplərinə hörmətə çağırmayıb".

Politoloq qeyd etdi ki, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlar Ermənistanla Azərbaycan arasında mübahisələrin həllini, danışıqlarda vasitəçilik istəyirlərsə, mütləq prinsipial, ədalətli və qərəzsiz mövqe tutmalı, heç bir tərəfin maraqlarına xidmət etməməlidirlər.

*Səxavət HƏMİD*
*XQ*

# Ruben Rubinyanın növbəti düşmənçiliyi

**Ermənistanın Avropa Şurasının Parlament Assambleyasında ölkəmizə qarşı növbəti düşmənçilik addımları bu ölkənin sülh və dialoqda maraqlı olmadığını bir daha nümayiş etdirib.**

Yanvarın 24-də AŞPA-da Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin təsdiqlənməməsinə ən çox çalışan nümayəndə heyəti elə Ermənistan parlamentinin vitse-spikeri və Ermənistan-Türkiyə normallaşma prosesində əsas şəxslərdən olan Ruben Rubinyanın rəhbərlik etdiyi heyət olub.

Daim sülh və dialoqdan danışan Rubinyan bu çirkin, məkrli kampaniya və addımları ilə sübut edib ki, onun bölgədə sülhün, dialoqun yaradılmasına çağırışlarının heç bir əsası yoxdur.

*XQ*

# Sülh gündəmindən Azərbaycan əleyhinə kampaniyaya

## *Puşkinin dahiliyi, ayının min oyunu və "ölüyə" süni nəfəs*

**Ayının min oyunu bir armudun başındadır. Hazırda Azərbaycana qarşı beynəlxalq miqyasda aparılan total kampaniya bu atalar misalımızın məna çalarları barədə düşünməyə vadar edir.**

Əslində, 2024-cü ilin ilk ayında yaşananlar qəribə durum formalaşdırır. Sanki sonxronlaşmış, koordinasiya edilmiş anti-Azərbaycan oyunu gedir. Fransa Senatının qətnaməsi, Avropa Şurası Parlament Assambleyası müstəvisində baş verənlər, Avropa İttifaqının yolverilməz yanaşmaları, Avropa Parlamentində ölkəmizi hədəfə alan diskussiyalar...

Bir sözlə, kollektiv Qərbin Avropa seqmentinin aktivləşməsini görürük. Bu proses fonunda okeanın o tayındakılar sakitdirlər. Hadisələri kənardan seyr etməklə kifayətlənirlər. Axı indi "növbə" onların deyil... Avropanın necə ölkə parlamentinin vitse-spikeri Ruben Rubinyandır. O Rubinyan ki, Ermənistan-Türkiyə normallaşma prosesində əsas şəxslərdən biridir. Onu da yada salaq ki, bu məxluq daim sülh və dialoqdan, normallaşmadan danışırdı. Deməli, saxta səmimiyyətlə maskalanırdı. Sual vermirik ki, o, ara səngiyəndən sonra hansı üzlə qaldığı yerdən davam edəcək? Çünki ermənidir, min sifətlidir. Bu yerdə, istər-istəməz, yada böyük rus şairi Aleksandr Puşkinin sözləri düşür: sən köləsən, sən qulsan, sən ermənisən!

Bəli, kollektiv Qərbin Avropa seqmentinin başlatdığı anti-Azərbaycan



oynamasına tamaşa edirlər. Bilmək olmaz, bəlkə "konsultativ dəstək" də göstərirlər. Hər halda, ayının armuda əl yetirməsini arzulayırlar. Armud nədir, ondan söz açacağıq.

Ancaq əvvəlcə onu bildirək ki, hələ 2023-cü il başlayanda bir sıra siyasi ekspertlər və analitiklər cari ilin Cənubi Qafqaza sülh gətirəcəyini vurğulayırdılar. Müxtəlif fikirlər səsləndirirdilər. Azərbaycanla Ermənistan arasında bir sıra gərginliklərin yaşanmasına, ən əsası isə sentyabrın 19-20-də əsil müharibə şəraitinin mövcudluğuna, Azərbaycanın Silahlı Qüvvələrinin həmin tarixdə həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərinin Ermənistanda, müəyyən mənada, barışmaz ab-hava doğurmasına baxmayaraq da eyni fikri dəstəkləyənlərin olduğunu görə bilirdik. Onlar hətta 2023-cü ilin dekabrında da Bakı-İrəvan sülh razılaşmasının əldə olunacağına münasibətdə nikbin ovqat bəsləyirdilər. Lakin gözlənilənlər özünü doğrultmadı. Belədə ümidlər 2024-cü ilin yanvarına qaldı.

İlk baxışdan, hər şey aydın idi. Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün hansısa maneə yoxmuş kimi gəlirdi. Bəzi prinsipial anlaşılmazlıqların qalmasına rəğmən, bunu İrəvan rəsmiləri də dilə gətirirdilər. Lakin indiki durum tamam fərqli mənzərədən xəbər verir. Mənzərənin ana xəttini isə əvvəldə haqqında söz açdığımız anti-Azərbaycan kampaniyası təşkil edir.

Qeyd edək ki, əvvəllər Ermənistanın danışıqlar prosesində manipulyativ mövqe tutduğunu görürdük. Əslində, həmin manipulyasiyaların 2024-cü il başlayar-başlamaz yenə gündəmə gəldiyinin şahidi olduq. Məsələ burasındadır ki, əvvəllər bu meyil sırf İrəvanın düşüncə məhsulu kimi meydana çıxırdısa, artıq fərqli nüanslar ətrafında düşünməyə ehtiyac yaranıb. Görünür, "meydanda tək qalan döyüşçü deyil" məntiqi işə salınıb. Ona görə də Fransa Senatı, AŞPA, Avropa İttifaqı, Avropa Parlamenti "hərəkətə keçib". Yəni, ayının armudu dərməsinə dəstək göstərməyə girişiblər.

Bəli, armud sülh müqaviləsidir. İndiki halda ayı Qərbin ermənipərəst dairələridir. İstəkləri sülh müqaviləsini "yeməkdir", sənədin imzalanmasına yol verməməkdir. Əvvəldə barəsində söz açdığımız sinxronluq və koordinasiya edilmiş fəaliyyət də bundan qaynaqlanır. "Fəaliyyətin" Fransa və Almaniya kimi konkret oyunçuları var. Oyunçular Azərbaycanın beynəlxalq ictimaiyyətin gözündən salınması kursunu götürüblər. Təsəvvür edin, Bakı hazırda nə işlə məşğul olmalıdır, ancaq nəyə qol çırmayıb? Ölkəmiz Qərbin iftiralarına cavab verməyə vaxt sərf edir. Daha doğrusu, sülh üçün ayırmalı olduğu zamanı və enerjini buna xərcləyir.

Mövcud durumda Ermənistan tərəfindən səslənməkdə olan bəyanatlar isə sülhün "başına" çuval keçirməkdir. Hazırda İrəvan tam sərbəstdir. Özünə qarşı heç bir müqavimət hiss etmir... Təsəvvür edin ki, Ermənistanın AŞPA-da ölkəmizə qarşı növbəti düşmənçilik addımlarını idarə edən şəxs oyununda məqsəd bəllidir – Azərbaycan-Ermənistan sülh prosesinə zərər vurmaq, onu tamamilə sıradan çıxarmaq, pozmaq. Bu cinah paralel olaraq, Azərbaycan xalqının iradəsini heçə saymaq niyyətinə köklənib. Ölkəmizdə fevralın 7-də keçiriləcək Prezident seçkiləri barədə mənfi rəy formalaşdırmaq, prosesin əhəmiyyətsizliyinə dair görüntü yaratmaq da eyni planın tərkib hissəsidir. Bir sözlə, Azərbaycanı hərtərfli sıxmağa girişiblər. Yaxşı bilirlər ki, ölkəmiz seçkidən sonra yeni inkişaf mərhələsinə qədəm qoyacaq. Gözəl anlayırlar ki, o zaman dövlətimiz öz prinsiplərini daha qətiyyətlə irəli sürəcək. Reallıqları görürlər...

İstəkləri budur ki, dünya miqyasında ölkəmizə qarşı neqativ münasibət formalaşsın. Formalaşsın ki, beynəlxalq ictimaiyyət sülh prosesi ilə bağlı haqlı tələblərimizə qarşı çıxmaq immuniteti qazansın. Hər şey buna hesablanıb. Ona hesablanlıb ki, Ermənistan Cənubi



Qafqaz müstəvisində üstünlüyə yiyələnsin. Heç olmasa, vaxt udsun.

Hesab edirlər ki, İrəvan vaxt udub güclənəcək və onun köməyi ilə Cənubi Qafqaz müstəvisində itirilmiş mövqelərini bərpa edəcəklər. Çalışdıqları yalnız və yalnız budur və qəti şübhə yoxdur ki, Ermənistan bir qədər güclü olsa, Azərbaycanın beynəlxalq platformada məşğul duruma düşdüyü indiki dönəmdə ölkəmizə qarşı hücuma keçər. O zaman "ssenari" tam gerçəkləşmiş olar. Təxminən belə: Demokratik Ermənistan "anti-demokratik Azərbaycan" üzərinə yeriyir ki, məzlum Qarabağ ermənilərini öz dədə-baba torpaqlarına qaytarsın. Pafos pafos dalınca sıralanar. Onsuz da işləməyən beynəlxalq hüquq isə yerin dibinə soxular. Dünyanın ikiüzlü media orqanları da reportajlar yayımlayarlar ki, guya, qəhrəman erməni xalqı öz haqqı uğrunda savaş aparır və sair ilaxır.

Ancaq bunu edə bilmirlər. Potensialları yalnız sabun köpüyü və ucuz populizm şousu yaratmağa çatır. Sadəcə vaxtı uzadırlar. Ermənistanı güc- bəla ilə ayaqda tuturlar. Tutsunlar, görək "ölünü" nə zamanadək süni nəfəs aparatında saxlayacaqlar! Görək, Ermənistanın spekulyasiyalarına dəstək vermələri nə qədər sürəcək!

Hazırda AŞPA-da təmsil olunmuruq. Lazım gəlsə, Avropa Şurasından da çıxarıq. Bunu dünən yüksək səviyyədə də bəyan etdik. Yəni, göstərdik ki, heç bir təzyiqdən çəkinmirik. Buyursunlar! Əllərindən nə gəlirsə, etsinlər. Amma sonra bizdən inciməsinlər, ağlaşma qurmasınlar. Əgər ləyaqətləri varsa, düşünsünlər və nəzərə alsınlar ki, özü yıxılan ağlamaz.

*Əvəz CAHANGİROĞLU*
*XQ*

Yazılsın tarixə qızıl bir xətlə

# Hamımızı səfərbər edəcək seçki

**Növbədənkənar prezident seçkiləri müasir Azərbaycan tarixində əlamətdar hadisə hesab edilir. Çünki builki seçkilər ilk dəfə bütöv və suveren Azərbaycanı əhatə edəcək. Təsadüfi deyil ki, fevralın 7-də keçiriləcək seçkiləri həm də "Zəfər seçkiləri" adlandırırlar. Həmin gün biz Şuşaya, Laçına, Kəlbəcərə, Xankəndiyə, Füzuliyə, Cəbrayıla, Zəngilana və digər azadlığa qovuşmuş ərazilərimizin səsinə səs verəcəyik. Bu qədim yurd yerlərimizi özümüzünküləşdirəcəyik.**



İşğaldan azad edilmiş ərazilərimizdə artıq 26 seçki məntəqəsi yaradılıb. 122 saylı Seçki Dairəsinin 14 saylı məntəqəsi isə Xankəndi şəhərinin mərkəzindəki inzibati binada yerləşir. O bina ki, qondarma qurumun "parlament binası" sayılırdı. Xankəndi şəhəri 2023-cü ilin sentyabrında bir günlük antiterror tədbirləri zamanı yenilməz Ordumuz tərəfindən separatçılardan təmizləndikdən sonra, hazırda bu tikilidə Azərbaycanın Bayrağı dalğalanır.

Xankəndi sakini kimi sevincim yerəgöyə sığmır. Nəhayət, 30 illik həsrətdən sonra doğma torpaqlarımızda seçinc-sevincə, şənlik-şənliyə qarışıb. Əsil şənlik, toy-bayram isə Prezident seçkiləridir. Axı, bu seçkilərdə ölkəmizin gələcək taleyi həll olunur. Biz elə namizədə səs verməliyik ki, son illər Azərbaycanın dünya birliyindən eşidilən sədasını daha da gur etsin. Bir vaxtlar separatçı rejimin Xankəndidə keçirdiyi dünyanın heç bir ölkəsi və beynəlxalq təşkilatı tərəfindən tanınmayan qeyri-qanuni seçkiləri indi ədalətli, demokratik, azad, şəffaf Azərbaycan Prezidentliyinə seçkilər əvəzləyəcək. Bir sıra beynəlxalq təşkilatların müşahidəçiləri bəri başdan bəyan edirlər ki, onlar işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda keçiriləcək seçkiləri müşahidə edəcəklər. Bu, o deməkdir ki, artıq dünya birliyi Azərbaycanın ərazi bütövlüyünü tanıyır və qəbul edir.

Bəli, hazırda ölkəmizin hər yerində olduğu kimi, işğaldan azad edilmiş ərazilərimizdə növbədənkənar Prezident seçkilərinə ciddi hazırlıq işləri görülür. Seçki məntəqələri yeni tikilmiş binalarda yerləşir. İndi həmin ərazilərdə məskunlaşanlar böyük seçinc və qürurla növbədənkənar prezident seçkilərinin keçiriləcəyi günü səbrsizliklə gözləyirlər, hamılıqla səfərbər olublar. Bu, həm Ermənistan, həm də onun havadarlarına, xüsusilə, Fransa kimi qatı ermənipərəst, antidemokratik, ağa qara deyən bir dövlətə göz dağıdır.

Azərbaycanın bütün ərazisində keçiriləcək növbədənkənar Prezident seçkiləri müstəqillik tariximizdə yeni iz qoyacaq. Bu izin üzərində qürurla, mətinlə addımlayacağıq. Fevralın 7-də seçki coşğusu, əhalinin əhval-ruhiyyəsi, sevinci bütün dünyaya bəyan olacaq. Otuz ildən sonra doğma ata-baba yurdumuza qayıdırıq. Ən böyük hədiyyəmiz də doğma torpaqlarımızda keçirilən seçkilərdə iştirak etməyimizdir.

44 günlük Vətən müharibəsindən start götürən və Qarabağda keçirilən antiterror tədbirlərindən sonra davam etdirilən birlik marafonu seçki marafonunda müşahidə ediləcək. Ölkəmizin bütün ərazisində hər kəsin sifətində təbəssüm, gözlərində sevgi qürurla, alnıaçıq, üzüağ seçki məntəqələrinə yollanacaq və ən layiqli namizədə səs verəcəklər. İşğaldan azad edilmiş ərazilərdə məskunlaşanların hər biri onlar üçün yaradılmış şəraiti, hazırda göz oxşayan yenidənqurma, tikinti-bərpa işlərinin sürətlə davam etdirildiyini görür və gələcəyə böyük inamla, ümidlə baxırlar. Bütün bunlardan sonra mən də daxil olmaqla, keçmiş məcburi köçkün soydaşlarımız səsvermə məntəqələrinə gedəcək. Bu gün elə keçmiş məcburi köçkün soydaşlarımız var ki, müəyyən səbəblər üzündən qardaş Türkiyədə yaşayırdılar. Hazırda onlar doğma ata-baba yurdlarına qayıdıblar və səsvermədə iştiraka hazırlaşırlar.

Qürurverici haldır ki, hətta beynəlxalq təşkilatlar da öz tədbirlərini işğaldan azad edilmiş ərazilərdə - Şuşada keçirirlər. Ancaq Suqovşanda beynəlxalq miqyaslı idman tədbirinin, Xankəndidə möhtəşəm hərbi paradın, ardınca bu il fevralın 7-də növbədənkənar Prezident seçkilərinin keçirilməsi demokratiyadan, azadlıqdan, haqq-ədalətdən dəm vuran bəzi dövlətləri və beynəlxalq təşkilatları ciddi narahat edir. Elə AŞPA-nın qış sessiyasında Azərbaycana qarşı haqsızlıq da bunun bariz nümunəsidir. Əlbəttə, bütün bu ədalətsizliklər, haqsızlıqlar, qarayaxmalar Azərbaycanı tutduğu yoldan döndərə bilməz. Çünki yolumuz haqq yoludur.

Sonda bir daha vurğulayım ki, Azərbaycanın bütün ərazisində keçiriləcək növbədənkənar Prezident seçkiləri tariximizə birlik, bərabərlik və bütövlük seçkisi kimi düşəcək. Bununla da hər bir kəs ölkəmizin yeni tarixi mərhələyə qədəm qoymasına töhfə verəcək. Bu, otuz il ərzində ölkəmizə qarşı ikili standartlardan əl çəkməyən, işğalçını öz adı ilə çağıra bilməyən, ədalətsizlik edən bəzi dövlətlər və beynəlxalq təşkilatlar üçün də əsil dərs olacaq.

*Havva MƏMMƏDOVA,*
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, tarix elmləri doktoru*

# Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının iclası

**Qarabağ Dirçəliş Fondunun (QDF) Müşahidə Şurasından bildiriblər ki, iclasda Müşahidə Şurasının sədri, iqtisadiyyat naziri Mikayıl Cabbarov, Şuranın üzvləri - ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Milli Məclisin deputatları Tural**



**Gəncəliyev və Fatma Yıldırım, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, Xalq artisti Alim Qasımov, eyni zamanda, fondun İdarə Heyətinin sədri Rəhman Hacıyev iştirak ediblər.**

Əvvəlcə Müşahidə Şurasının sədri Mikayıl Cabbarov Şuranın üzvü, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevi cari ilin noyabrında ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) prezidenti seçilməsi münasibətilə Şura üzvləri adından təbrik edib, sözügedən tədbirin yüksək səviyyədə keçəcəyinə əminliyini bildirib.

Qeyd olunub ki, bu cür nüfuzlu tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı qərarın verilməsi dövlətimizin növbəti qələbəsidir.

Daha sonra Şuranın sədri gündəlikdə yer alan Fondun cari il üzrə büdcəsinin təsdiq olunması, bərpa və yenidənqurma işlərinə maliyyə dəstəyinin göstərilməsi qaydalarının təkmilləşdirilməsi, kənar auditorun təsdiqlənməsi və digər məsələləri müzakirəyə çıxarıb.

Fondun İdarə Heyətinin sədri Rəhman Hacıyev Müşahidə Şurasına bununla bağlı ətraflı məlumatı verib.

Qeyd edək ki, müzakirə olunan bütün məsələlərlə bağlı Şura üzvləri tərəfindən müvafiq qərarlar qəbul olunub.

Şura üzvləri Fondun gördüyü işlər və fəaliyyət istiqamətləri ilə bağlı razılıqlarını ifadə edib, İdarə Heyətinin sədrinə müvafiq tapşırıqlar veriblər.

**XQ**

# Azərbaycanın Aİ strukturlarında təmsilçiliyinə ehtiyac yoxdur

**Azərbaycan nə yaxın gələcəkdə, nə də uzaq perspektivdə Avropa İttifaqına inteqrasiya haqqında ciddi düşünməyib. Prezident İlham Əliyev dəfələrlə belə planların olmaması barədə bəyanat verib. Bu səbəbdən Azərbaycanın Aİ strukturlarında təmsilçiliyinə heç bir ehtiyac yoxdur.**



**Bu fikirləri Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan nümayəndə heyətinin bu təşkilatla qarşılıqlı fəaliyyətini və orada iştirakını qeyri-müəyyən müddətə dayandırması üzrə qərarını şərh edən türkiyəli ekspert Engin Özer AZƏRTAC-la bölüşüb.**

Agentliyin müsahibinin sözlərinə görə, Bakının artıq həll olunmuş Qarabağ münaqişəsi ilə bağlı məsələdə də Avropa İttifaqının vasitəçiliyinə ehtiyacı yoxdur. O əlavə edib: "Bəli, erməni tərəfi Qarabağ üçün muxtariyyət və ya xüsusi status əldə etməyə çalışır, amma bu, real deyil. Ərazi bütövlüyünü tam bərpa etmiş Azərbaycanın Konstitusiyası da bunu istisna edir və ümumilikdə, həmin məsələ mümkün deyil. Beləliklə, bir daha təkrar edirəm ki, Azərbaycanın Aİ strukturlarında təmsilçiliyinə heç bir ehtiyac yoxdur, bu məsələ aktual deyil".

Azərbaycan nümayəndə heyətinin səbrinin daşmasına səbəb olan AŞPA-nın anti-Azərbaycan mexanizmini işə salmasının səbəblərindən danışan politoloq vurğulayıb ki, bu məsələdə Fransanın mövqeyi xüsusi təhlil aparılmasını tələb edir.

**Türkiyəli ekspert deyib:** "Heç kimə sirr deyil ki, Fransada erməni lobbisinin təsiri ilə bağlı Parisin İrəvanla xüsusi münasibətləri var və burada başqa amillər də mövcuddur. Ermənistan Beşinci respublikanın ciddi müttəfiqinə çevrilir. Bu kontekstdə Fransa ilə Azərbaycan arasında səmimi münasibətlərdən danışmaq yersiz olardı. Faktiki olaraq, bu gün Ermənistanın regionda siyasətini dəstəkləyən iki ölkə var – bunlar, Fransa və İrandır. Amma görünür ki, Tehran Nikol Paşinyan hakimiyyətindən o qədər də razı deyil. Fransanı isə əksinə, Paşinyanın başçılıq etdiyi hökumət regionda öz təsirini saxlamaq baxımından qane edir. Bunun üçün isə erməni cəmiyyətinə Parisin Bakı ilə əməkdaşlığının mümkün olmadığını, Azərbaycanın Qərbə inteqrasiyasının yolverilməzliyini, Fransanın Ermənistana dəstəyinin dönməz olduğunu göstərmək lazımdır. Biz indi məhz bu proseslərin şahidi oluruq".

**Engin Özer əlavə edib ki,** İkinci Qarabağ müharibəsi zamanı Fransa praktik olaraq Ermənistana heç bir dəstək göstərməyib və bu, erməni cəmiyyətinin məyusluğuna səbəb olub. Məhz diqqəti bu məsələdən yayındırmaq və Cənubi Qafqaz regionunda öz siyasətini möhkəmləndirmək üçün rəsmi Parisə bir sıra anti-Azərbaycan hücumları lazım idi. Nə üçün məhz indi? Çünki bu gün hər kəsə tamamilə aydın oldu ki, Qarabağın statusu müzakirə mövzusu ola bilməz.

Dünən Azərbaycan Respublikasının Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyəti qurumun Strasburqdakı binasında bəyanatla çıxış edib. Bəyanatda xüsusilə qeyd edilib ki, AŞPA-nın tarixində heç vaxt bu təşkilat özünü belə biabırçı şəkildə aparmayıb və burada mövcud olan dözülməz irqçilik, Azərbaycanofobiya və İslamofobiya mühiti fonunda Azərbaycan nümayəndə heyəti AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib.

KÖŞƏ

# "Ay daş atan baxtavar"...

**İndi bizə daş atırlar. Qərbdən, özü də vahid mərkəzdən – Fransadan. Amma daşlar təkcə Fransadan atılmır. Paris artıq Avropada Azərbaycana atmaq üçün hərənin əlinə bir daş verib. Ancaq Qərbdə əllərinə daş yığanlar unudurlar ki, bumeranq effekti deyilən bir şey var. Yəni, daşlar geri qayıdacaq. Necə deyərlər, ay daş atan baxtavar, daşın da bir vaxtı var. Azərbaycan xalqının tarixin sınaqlarından çıxararaq, günümüzə gətirdiyi atalar sözlərindən biri də belədir: Daldan atılan daş topuğa dəyər.**



**Paşa ƏMİRCANOV**
**pa ha mirca @ mi lr u**

İndi Avropa, bax, bu vəziyyət qarşısında dayanıb. Avropadakı, elə lap Parisdəki başbilənlər yaddaşlarını itiriblər. Unudublar ki, Azərbaycan otuz ilə yaxın gözləyib. Gözləyib ki, ATƏT-in Minsk qrupunun həmsədrləri təmsil etdikləri ölkələrin gücündən, nüfuzundan istifadə edərək, bapbalaca Ermənistanın özündən üç-dörd dəfə böyük Azərbaycana qarşı ərazi iddialarına son qoyacaq. Amma məlum olub ki, "vasitəçilik missiyasındakı dostlar, tərəfdaşlar, müttəfiqlər, hətta bəzən strateji müttəfiqlər" ölkəmizin Qarabağı ermənilərə güzəştə getməsini istəyirlər. Azərbaycan yalnız bundan sonra silaha əl ataraq, özünün tarixi ərazilərini qaytarıb, suverenliyini bərpa edib. Yəni, bütün bunları avropalılar da, amerikalılar da yaxşı bilirlər. Bəs belə olan halda hansı haqla 30 il bunlara hörmət qoymuş Azərbaycana daş atmağa başlayıblar. Özü də Azərbaycan işğalçı Ermənistan ordusunu öz ərazisindən qovub çıxarandan sonra.

İndi bizi daşa tutanlar bütün sifətlərini ortaya qoyublar. Məlum olub ki, vaxtilə güvəndiyimiz bu başına qar yağan dağlar nəinki işğal dövründə, hətta ermənilər Qarabağı könüllü şəkildə tərk edəndən sonra da Azərbaycana qarşı düşmən mövqeyində dayanıblar. Birmənalı şəkildə İrəvanı dəstəkləyirlər. Bunlar Azərbaycanın vuruşaraq qazandığı şanlı Zəfəri sinirib həzm edə bilmirlər. Fransa, ABŞ, eləcə də bir sıra digər güclü dövlətlərin dəstəklədiyi Ermənistanın uduzması əsəblərini tarmar edib.

Fransa Senatının Azərbaycan əleyhinə qətnaməsinin mürəkkəbi qurumamış Avropa Şurası Parlament Assambleyası üstümüzə daş yağdırmağa başladı. Almaniya qabağa verildi. Frank Şvabenin yalan, qərəz üzərində qurulmuş çıxışından sonra Azərbaycan nümayəndələrinin hüquqlarının məhdudlaşdırılması barədə qərar qəbul olundu. Sanki vahid mərkəzdən verilmiş əmr icra olundu. Artıq hərəkətə, söz-söhbətə yol verməkolmazdı, hər şey tez-tələsik həll olunmalıydı. Yoxsa Fransa Prezidenti Emmanuel Makronun xətrinə dəyərdi.

Artıq Avropa İttifaqı da Fransanın felinə uyub. Təşkilatın xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozef Borrel son günlər xüsusi ermənipərəstliyi ilə seçilir. Onun da əmri həmin vahid mərkəzdən aldığı şübhə doğurmur. O da Azərbaycanın ünvanına yersiz ittihamlar səsləndirir. Təbii ki, Azərbaycanın Xarici İşlər Nazirliyi bütün bu saxta və yalan ittihamlara layiqli cavab verir. XİN-in mətbuat katibi Ayxan Hacızadə haqlı olaraq bildirib ki, Jozef Borrell Bakıya qarşı aqressiv və militarist siyasət yeridir. Nazirlik onun ittihamlarını əsassız adlandıraraq rədd edib. XİN hesab edir ki, Avropa diplomatiyasının rəhbəri faktları təhrif etməklə, "Azərbaycanın qanuni maraqlarına etinasızlıq" nümayiş etdirib: "Belə hədələyici ritorika ikili standartların bariz nümunəsidir, Azərbaycanla Avropa İttifaqı arasında münasibətləri daha da gərginləşdirir".

Yeri gəlmişkən, J.Borrell bir müddət əvvəl bəyan etmişdi ki, Azərbaycanın Ermənistan ərazisinə dair iddialarından narahatdır. Birincisi, Azərbaycan heç vaxt Ermənistan ərazisinə qarşı iddia irəli sürməyib. İkincisi, Azərbaycan ərazilərinin 20 faizi Ermənistanın işğalı altında olanda və Bakı bir milyon qaçqın və məcburi köçkün problemi ilə üzləşəndə, nə Borrel, nə onun sələfləri, nə Makron, nə də ondan əvvəlki prezidentlər qəti narahat olmamışdılar. Hətta, Qarabağın Ermənistana bağışlanmasına açıq işarələr vurur, Azərbaycana münaqişənin hərbi yolla həllinin mümkünsüzlüyünü təlqin edirdilər. Amma Azərbaycan siyasət qazanında, kifayət qədər bişmiş Avropa siyasətçilərinin bir neçə nəslinin bu cür riyakar iddialarına rəğmən, özünün ərazi bütövlüyünü məhz hərbi yolla bərpa etdi. 30 illik münaqişəni cəmi 44 günə bitirdi.

Borrel, eyni zamanda, Ermənistanın suverenliyinin hər hansı bir şəkildə pozulmasının Brüssellə Bakı arasında münasibətlər üçün ciddi nəticələrə səbəb olacağı ilə hədələyib. Bununla da Azərbaycanın bostanına iri bir daş atmış olub. Amma o da, digər həmkarları da unudublar ki, dünən qaz üçün Azərbaycan Prezidentinin qarşısında boyunlarını bükmüşdülər. Avropa Komissiyasının Prezidenti xanım Ursula fon der Lyayenin Bakıda Prezident İlham Əliyevlə görüşündə dediklərini xatırladırıq: "Əla münasibətləri daha da dərinləşdirmək istəyirik. Bu gün imzalayacağımız Anlaşma Memorandumuna nəzər salsaq, ... orada enerji sektorunda etibarlı tərəfdaşlıq, eləcə də orta və uzun perspektivdə bərpaolunan enerji məsələləri xüsusi qeyd edilir".

Azərbaycanın "etibarlı tərəfdaşlığı"na beləmi cavab verirsiniz?! Qorxun, atdığınız daşların geri qayıdacağı gündən qorxun!..

# Arutyunyan, Qukasyan və Saakyanın həbsi 4 ay uzadılıb

**Qarabağda qondarma separatçı rejimin "prezidentləri" olmuş Arkadi Qukasyan, Bako Saakyan, Araik Arutyunyan, sabiq "xarici işlər naziri" David Babayan, eləcə də "parlament sədri" David İşxanyan, generallar Lyova Mnatsakanyan, David Manukyan barəsində seçilmiş həbs qətimkan tədbirlərinin müddətinin uzadılması ilə bağlı Baş Prokurorluğun İstintaq İdarəsinin vəsatətlərinə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatlarına baxılıb.**

Bu barədə Baş Prokurorluğun mətbuat xidmətindən məlumat verilib.

İstintaqı Baş Prokurorluğun rəhbərlik etdiyi, Hərbi Prokurorluq, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd xidmətləri, Daxili İşlər Nazirliyi və digər istintaq qurumlarının peşəkar əməkdaşlarından ibarət birgə istintaq qrupu tərəfindən aparılan cinayət işi üzrə separatçı rejimin ümumilikdə 15 nəfər üzvü məsuliyyətə cəlb olunub.

Məhkəmənin qərarına əsasən, qeyd olunan şəxslərin barəsində seçilmiş həbs qətimkan tədbirinin müddəti 4 ay uzadılıb.

**XQ**

# Onlayn media rəhbərləri ilə görüş

**Yanvarın 25-də Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılov 2024-cü ilin birinci yarımilliyi üzrə maliyyə yardımı göstərilən onlayn media subyektlərinin rəhbərləri ilə görüşüb.**

MEDİA-dan bildiriblər ki, görüşdə çıxış edən Əhməd İsmayılov maliyyə yardımının göstərilməsində əsas məqsədin onlayn media subyektlərinin inkişafı, iqtisadi müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, həmçinin dövlət və cəmiyyət üçün əhəmiyyət daşıyan layihələrin həyata keçirilməsi olduğunu deyib. Bu istiqamətdə qarşıya qoyulan hədəflərə çatmaq üçün müqavilə üzrə öhdəliklərin tam icra olunmasının, xüsusilə maliyyə yardımına dair hesabatlılığın vaxtında təmin edilməsinin zəruriliyi vurğulanıb.

Diqqətə çatdırılıb ki, maliyyə yardımı göstərilən veb-saytların infrastrukturu gücləndirilməli, dil imkanları genişləndirilməli, təhlükəsizliyi tam təmin edilməlidir.

Görüş zamanı onlayn media subyektlərinin rəhbərləri tərəfindən bildirilib ki, ötən dövr ərzində maliyyə yardımının göstərilməsi nəticəsində bir çox veb-saytların texniki problemləri həll edilib. Bir sıra saytlar tamamilə yeni tərtibata keçib, habelə müvafiq media subyektlərində fəaliyyət göstərən jurnalistlərin əmək münasibətlərinin nizama salınması təmin olunub.

Görüş mövzu ətrafında müzakirələrlə davam edib.

**XQ**

# Birlik, bərabərlik və bütövlük seçkisi

## ABŞ-də yaşayan vətəndaşlarımızın seçki hüququ təmin edilib

**Bu il fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkilərində Amerika Birləşmiş Ştatlarında yaşayan vətəndaşlarımızın seçki hüququnun təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının bu ölkədəki səfirliyi tərəfindən mütəmadi olaraq müvafiq tədbirlər görülür.**



Bu məqsədlə Seçki Məcəlləsinin 36-cı maddəsinə uyğun olaraq, ABŞ-dakı səfirlikdə seçki məntəqəsi yaradılıb, məntəqə seçki komissiyasının sədri, katibi və üzvləri seçilib.

Ölkə hüdudlarından kənarda daimi yaşayan, yaxud uzunmüddətli xarici ezamiyyətdə olan 18 yaşına çatmış vətəndaşlarımızın seçki hüququnun təmin edilməsi məqsədilə onlar qeydiyyata alınıblar. Artıq səfirlik tərəfindən seçici siyahıları hazırlanıb və Mərkəzi Seçki Komissiyasına təqdim edilib.

Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarındakı səfirliyi vətəndaşlarımızı prezident seçkilərində fəal şəkildə iştiraka və seçki hüquqlarından istifadə etməyə dəvət edir.

## Xaricdə səsvermələr Şərqdə başlayıb Qərbdə bitəcək



**Azərbaycanın seçki məntəqələri yaradılmış diplomatik missiyalarında fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri ölkəmizin Koreya Respublikasındakı səfirliyində başlayacaq və ABŞ-ın Los-Anceles şəhərindəki Baş konsulluğunda tamamlanacaq. Seçkilər ölkələrin yerli vaxtlarına uyğun olaraq saat 08:00-da başlayacaq və 19:00-da bitəcək.**

Mərkəzi Seçki Komissiyasına təqdim edilmiş məlumatlar əsasında seçkilərin ölkə hüdudlarından kənarda təşkili məqsədilə, ümumilikdə, 37 ölkədə 49 seçki məntəqəsi yaradılıb.

## Siyasi partiyaların seçki fəallığı

**Növbədənkənar prezident seçkilərinin azad və ədalətli keçirilməsi üçün bütn imkanlardan istifadə olunur. Hər bir kəs seçkilərin demokratik və ədalətli keçirilməsi üçün əlindən gələni əsirgəmir. Siyasi partiyalar da prezident seçkilərinə böyük maraq göstərməklə şəffaflığın təmin olunmasında da yaxından iştirak edirlər. Partiya üzvləri fevralın 7-nə təyin edilmiş prezident seçkilərində fəal iştirak edirlər.**



Mərkəzi Seçki Komissiyası seçkilərə öz namizədləri ilə qatılmaq istəyən bütün siyasi partiyaların namizədlərinin irəli sürülməsini təsdiq edib və hamısını qeydə alıb. Hazırda azad seçki mübarizəsi aparan 7 namizəddən 5-i məhz siyasi partiyalar tərəfindən irəli sürülənlərdir.

Əsas məramı siyasi proseslərdə iştirak olan siyasi partiyaların müxtəlif statuslarla da seçkilərə qatıldığını aydın görmək mümkündür. Seçkilərə öz namizədləri ilə qatılmayan çoxsaylı siyasi partiyalar da prezident seçkilərinə ciddi maraq göstərir, kifayət qədər böyük sayda müşahidəçi və məşvərətçi səs hüquqlu komissiya üzvü ilə seçkilərdə şəffaflığın təmin olunmasında yaxından iştirak edirlər. İndiyədək 19 siyasi partiyanın ümumilikdə, 30 minə yaxın müşahidəçisi Mərkəzi Seçki Komissiyasında və dairə seçki komissiyalarında akkreditasiyadan keçməklə seçkiləri müşahidə hüququ qazanıb. Bu proses hazırda da intensiv şəkildə davam edir.

Siyasi partiyalar ölkədə keçirilən seçkilərdə xüsusi yeri və çəkisi olan mühüm seçki subyektlərindəndir. Azərbaycanın mövcud seçki qanunvericiliyi də siyasi partiyaların seçkilərdə öz məqsəd və məramına uyğun iştirakı üçün hərtərəfli, geniş imkanlar təsbit edir. Seçki təcrübəsi aydın göstərir ki, siyasi partiyaların seçkilərdə fəallığı, ictimai-siyasi proseslərə təsir imkanları ilbəil artmaqdadır. Əlbəttə ki, bunda siyasi partiyaların inkişafı, möhkəmlənməsi, ictimai-siyasi proseslərə yaxından cəlb edilməsi üçün respublikada yaradılmış əlverişli mühit önəmli rol oynayır.

## Tələbələr üçün infosessiya

**2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində ilk dəfə səs verəcək Naxçıvan Dövlət Universitetinin nəzdində olan Texniki Kollecdə tələbə-gənclər üçün seçki hüququ ilə bağlı maarifləndirici infosessiya keçirilib.**





Texniki Kollecin direktoru Asəf Ruşanov bu il ilk dəfə səs verəcək gəncləri seçkilərdə səsvermə hüququ qazanmaları münasibətilə təbrik edib.

Sonra 4 saylı Naxçıvan şəhər Dairə Seçki Komissiyasının sədri Çingiz Həsənli gənclərə səsvermə proseduru, seçki gününədək və seçkilər zamanı bilməli olduqları zəruri hüquqi məsələlər haqqında məlumat verib və tələbələri maraqlandıran sualları cavablandırıb.

Görüş Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının təşkilatçılığı və Mərkəzi Seçki Komissiyasının dəstəyi ilə gerçəkləşib. İnfosessiyanın keçirilməsində məqsəd seçki sistemi, seçicinin hüquq və vəzifələri barədə gənclərin maarifləndirilməsi, habelə baş tutacaq seçkilərdə ilk dəfə seçici kimi iştirak edəcək tələbələrin məlumatlılıq səviyyəsinin və seçici fəallığının artırılmasıdır.

Analoji maarifləndirmə tədbiri Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərində də keçirilib.

## "Gənclərin seçki prosesində iştirakının təşviqi"

**Bakıda müxtəlif gənclər hərəkatlarının nümayəndələrinin iştirakı ilə "Gənclərin seçki prosesində iştirakının təşviqi" adlı beynəlxalq konfrans keçirilib. Konfrans İslam Əməkdaşlıq Gənclər Forumu Avrasiya Regional Mərkəzi və Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının (NAYORA) təşkilatçılığı ilə reallaşıb.**



NAYORA-dan verilən məlumata görə, tədbirə Rusiya Federasiyası Tatarıstan Respublikasının aparıcı "Selet" gənclər hərəkatının rəhbəri Aygül Qabdrrəhmanova, Qazaxıstanın aparıcı hakim "Amanat" partiyasının "Jastar Ruhu" gənclər qolunun direktoru Akerke İsgəndərova, Avropada müsəlman icmaları ilə iş üzrə Rumıniya "Şəhrizad" Gənclər Fondunun prezidenti Vəcihə Haris, Pakistanın "Gənclərin Müdafiəsi üzrə Şəbəkə" təşkilatının sədri Fsahat ul-Həssənin çıxış ediblər. NAYORA Baş katibinin moderatorluğu ilə keçən müzakirələrdə gənclər və gənclər təşkilatlarının iştirakı ilə fəal vətəndaşlığın prinsipləri ətrafında müzakirələr aparılıb, iştirakçılar demokratik proseslərdə gənclərin iştirakının uğurlu təşviqi üzrə beynəlxalq təcrübələrini bölüşüblər.

Konfransda iştirakçılar müxtəlif ölkələrdə gənclərlə iş üzrə innovativ yanaşmaları müzakirə edərək fikir mübadiləsi aparıblar. Həmin müzakirələr, ilk növbədə, hər regionda nadir çağırış və imkanların olduğu nəzərə alınaraq fərqli mədəni kontekstlərlə uzlaşan strategiyaların müəyyənləşdirilməsi məqsədi daşıyıb.

Tədbirdə, eyni zamanda, fevralın 7-də Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkilərində gənclərin iştirakı da müzakirə edilib.

## Müharibə veteranları seçkiyə ruh yüksəkliyi ilə gedirlər

**"Sıralarında 65 min üzvü birləşdirən Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyi növbədənkənar prezident seçkilərində fəal iştirak edəcəklər. Bu məqsədilə bölgələrdə geniş maarifləndirmə tədbirləri həyata keçirilir. Hüquqşünas ixtisası və seçki təcrübəsi olan veteranlarımız bu işlərə xüsusi töhfələr verirlər".**

Bun fikirləri növbədənkənar prezident seçkiləri barədə danışan AVMV İB-nin sədri, Birinci Qarabağ müharibəsi qazisi Füzuli Rzaquliyev səsləndirib.

O, qarşıdakı Zəfər seçkisinə böyük fəxarət və qürur hissi ilə getdiklərini diqqətə çatdıraraq deyib ki, 2023-cü ilin sentyabrında həyata keçirilən uğurlu lokal antiterror tədbirləri həm Birinci, həm də İkinci Qarabağ müharibəsi veteranlarında xüsusi ruh yüksəkliyi yaradıb. Separatçı rejimdən tamamilə təmizlənmiş, ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş Azərbaycanın hər bir övladı bu hissi yaşayır. Fevralın 7- də keçiriləcək növbədənkənar prezident seçkilərinin mühüm əhəmiyyəti bu seçkilərin otuz ildən sonra ölkəmizin bütün bölgələrində təşkil olunmasıdır.

F.Rzaquliyev təmsil olunduğu birliyin üzvlərinin növbədənkənar prezident seçkilərinə hazırlıqda fəal iştirak etdiyini vurğulayaraq deyib ki, Vətən və torpaq uğrunda döyüşlərdə iştirak etmiş veteranlar xüsusi təbliğat və təşviqata ehtiyac duymurlar. Amma buna baxmayaraq AVMV İB bölgələr üzrə özünün seçki qərargahlarını yaradıb və seçicilərin maarifləndirilməsi tədbirlərində fəal iştirak edir. Eyni zamanda, dairə və məntəqə seçki komissiyalarında seçkiləri müşahidə edəcək üzvlər seçkinin azad və demokratik şəraitdə keçirilməsinə hər cür dəstəklərini verəcəklər.

## Türkiyədəki soydaşlarımız Azərbaycanın tərəqqisinə səs verəcəklər

**Fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində səsvermə gününü xarıcdə yaşayan azərbaycanlılar da səbirsizliklə gözləməkdədirlər. Bu barədə fikirlər Türkiyədə yaşayan Azərbaycanlı Elm Adamları Dərnəyinin təşəbbüs qrupunun üzvüləri Bilkənd Universitetinin professoru, Türkiyə Azərbaycan Dostluq Əməkdaşlıq və Həmrəylik Xeyriyyə Cəmiyyətinin Qəyyumlar Şurası və İdarə Heyətinin üzvü Əmirulla Məmmədov və Egey Univesrsitetinin professoru Afiq Bərdəli redaksiyamıza göndərdikləri müraciətdə yer alır. Müraciətdə bildirilir:**

Vətəndən uzaqlarda yaşayan biz azərbaycanlılar, eləcə də Azərbycanlı alimlər dogma Vətənimizin bir parçası və vətəndaşı olaraq, növbədənkənar prezident seçkilərində aktiv iştirak edəcək və bütün iradəmizlə səfirliklərdə və ölkəmizin xaricdəki digər nümayəndəliklərində bir nəfər kimi səs verəcəyik. Keçən ilin sentyabrında başladılan, uğurla başa çatdırılan, 23 saata qədər davam edən antiterror əməliyyatının ardından başlanan yeni dövrün realıqları içtimai-siyasi həyatımızın yeni gündəmini yaratdı. Azərbaycanın müstəqillik tarixində ilk dəfədir ki, seçkilər ölkənin bütün ərazisində keçiriləcək. Bu, çəmiyyətin tarixində fövqəl bir hadisə olacaqdır.

Ölkəmizin sərhədlərindən uzaqlarda yaşayan Azərbaycan vətəndaşları dövlətimizin işıqlı gələcəyinə səsvermə yolu ilə töhfəsini verməli və dəyərlərimizi müdafiə etməlidir. Harada yaşamağımızdan asılı olmayaraq, ürəyimiz, qəlbimiz daim Vətənimizlə döyünür. Təbii ki, biz Türkiyədə yaşayan və fəaliyyət göstərən Azərbaycan vətəndaşları bu ölkədə səs verəcəyik. Amma bizim hər birimiz özümüzü ruhən Şuşada, Xankəndidə, Xocalıda, Laçındakı seçki məntəqələrində hiss edəcəyik.

Anlayırıq ki, illər boyu Fransa kimi bəzi Avropa dövlətlərinin Azərbaycan əleyhinə mövqeləri qisas cəhdidir. Bu siyasət bir daha sübüt edir ki, onlar ikili standartlardan, qərəzli və riyakar siyasətlərindən hələ də əl çəkməyiblər. Bir gün əvvəl Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycanın haqq səsini susdurmaq təşəbbüsü də ölkəmizə qarşı düşmənçilik və qisas hissinin növbəti təzahürü olmaqla qərəzli yanaşmanın ən bariz nümunəsidir.



## Qarabağ seçki marafonuna qoşulub

**Növbədənkənar prezident seçkiləri 30 ildən sonra işğaldan azad edilmiş Qarabağımızda da keçiriləcək. Bu, hər bir azərbaycanlını, xüsusən də doğma torpaqlara qayıtmış sakinlərin böyük səbirsizliklə gözlədikləri gündür.**

Növbədənkənar prezident seçkilərinin toy – bayram şəraitində gözləyənlər sırasında Talış kəndinin sakinləri də var. Kənd sakinləri Suqovuşan qəsəbəsindəki seçki məntəqəsində səs verəcəklər. 97 saylı Tərtər-Naftalan-Goranboy seçki dairəsində 59 seçki məntəqəsi yaradılıb. Həmin məntəqələrdən ikisi işğaldan azad edilmiş ərazilərdə yerləşir. Kəndlərdən biri də Tərtər rayonunun Talış kəndidir. Bu kənd Qarabağ iqtisadi rayonunda ilk bərpa olunan kənddir. Kənddə 4 yol-kommunikasiya şəbəkəsi tam olaraq qurulub.

Kənd sakinləri uzun illərin həsrətindən sonra nəhayət, ötən ilin martında doğma ata-baba yurdlarına qayıdıblar. Burada sakinlər üçün hər cür şərait yaradılıb. Kənddə Novruz, Qurban, Həmrəylik Günü və Yeni il bayramlarını qeyd edən sakinlər növbədənkənar prezident seçkilərinin keçiriləcəyi günü səbirsizliklə gözləyirlər. Onlar həmin günün əsil bayram olacağını deyirlər. Çünki bu seçkilər işğaldan azad edilmiş ərazilərimizdə ilk dəfə keçiriləcək. Talış kənd sakinləri böyük həvəslə, qalib ölkənin qalib vətəndaşları kimi seçki məntəqəsinə gedərək səsvermədə iştirak edəcəklər.

## Komissiya üzvlərinin bilik və bacarıqları artırılıb

**Növbədənkənar prezident seçkiləri ilə əlaqədar hazırlıq işləri davam edir. Seçki məntəqələri, demək olar ki, hazırlıq işlərini başa çatdırmaq üzrədir. Hazırda bildirişlərin paylanılması prosesi davam edir. 49 saylı Abşeron ikinci seçki dairəsinin əhatəsindəki seçki məntəqələrində də seçkinin mütəşəkkil başa çatması üçün bütün imkanlardan istifadə olunur. Dairə üzrə yaradılan 38 seçki məntəqəsində hazırlıq işləri Mərkəzi Seçki Komissiyasının təlimatları üzrə aparılır. Builki seçkilərdə dəqiqləşdirilmiş seçici siyahısı üzrə 49 min 579 nəfər qeydə alınıb.**



Dairədən verilən məlumata görə, 18 yaşına çatan 34 seçici ilk dəfə səsvermə hüququndan istifadə edə biləcək. Onlarla maarifləndirmə söhbətləri aparılmış və seçki prosesinə hazırlanmışdır. Dairə üzrə yaşlı seçicilər də müəyyənləşdirilib. Yaşı 80-dən çox olanı seçicilərin 764 nəfəridir.

Dairə Seçki Komissiyasının sədri Rafəddin Nağdəliyev söhbət əsnasında bildirdi ki, Azərbaycan xalqı suverenliyini tam bərpa etdikdən sonra ilk dəfə seçkilərə hazırlaşır. Mərkəzi Seçki Komissiyası aşağı seçki komissiyasının üzvləri üçün genişmiqyaslı maarifləndirmə proqramı həyata keçirir. Məntəqə seçki komissiyasının üzvləri üçün keçirilən treninqlər isə yekunlaşıb. Treninqlərdə seçki gününə dair sənədlərin tərtibi, prosesin gedişi, seçici–məntəqə komissiya üzvünün münasibətləri və digər vacib məsələlər izah olunur. Təlimlərə məntəqə seçki komissiyalarının bütün üzvləri cəlb olunub.

Treninqləri Mərkəzi Seçki Komissiyasının təşkil etdiyi "Trenerlər üçün treninq" kursunda iştirak etmiş dairə komissiyalarının üzvləri aparır. Hər bir iştirakçıya Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar təqdim olunub.

DSK sədri deyib ki, seçki prosesinin şəffaflığını təmin etmək məqsədi ilə altı məntəqədə müşahidə kameraları quraşdırılıb. Seçki günü məntəqələrdə səsvermə prosesi haqqında məlumatların cəmiyyətə çatdırılması üçün yerli və beynəlxalq müşahidəçilərin, media subyektlərinin fəaliyyətinə qanunvericiliyə uyğun şərait yaradılacaq, səsvermə prosesinin yüksək səviyyədə təşkili təmin olunacaq.

*Səhifəni hazırladı:*
*Əliqismət BƏDƏLOV*
*XQ*

# Milli İxrac Strategiyasının yeni hədəfləri

## Ticarətdə qeyri-tarif maneələri aradan qaldırılır



**(əvvəli 1-ci səhifədə)**

BMT-nin rezident əlaqələndiricisi Vladanka Andreyeva isə müəyyənləşdirilən ticarət maneələrinə son qoyulmasının və istifadə olunmayan imkanların araşdırılmasının zəruriliyini vurğulayıb. V. Andreyeva, həm də layihəni Azərbaycanın qlobal bazarda rəqabət qabiliyyətini artırmaq üçün dialoqun və praktik həllərin təşviqində oynadığı rola görə yüksək qiymətləndirib.

Dövlət Gömrük Komitəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), eləcə də İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin AZEXPORT xidməti, həmçinin Azərbaycanda Qadın Sahibkarlığın İnkişafı Assosiasiyasının nümayəndələrinin iştirakı ilə keçirilən birinci "dəyirmi masa"da ticarətdə daxili qaydaların sadələşdirilməsi, ticarət prosedurlarının optimallaşdırılması məsələləri müzakirə olunub.

İkinci "dəyirmi masa" çərçivəsində isə Qida Təhlükəsizliyi Agentliyi, Kənd Təsərrüfatı Nazirliyi, o cümlədən Fındıq, Nar və Azərbaycan Meyvə və Tərəvəz İstehsalçıları və İxracatçıları assosiasiyalarının təmsilçiləri ticarətdə texniki tələblər, keyfiyyət standartları və qiymətləndirmələrə uyğunluğun təkmilləşdirilməsi ətrafında fikir mübadiləsi aparıblar.

Tədbirdə hazırlanan Milli İxrac Strategiyasında qısa və orta, həmçinin uzunmüddətli perspektivdə mövcud məhsulların yeni bazarlara ixracının hədəfləndiyi vurğulanıb. Eyni zamanda 2021-ci illə müqayisədə 2026-cı ildə Azərbaycanın qeyri-neft ixracının 85 faiz artırılmasının, yəni təxminən 5 milyard ABŞ dollarına çatdırılmasının nəzərdə tutulduğu diqqətə çatdırılıb. Qarşıdakı 5 ildə respublikamızın qeyri-neft ixracının dəyərini isə hər il 1 milyard ABŞ dollarından çox artırmaq mümkünlüyü də xatırladılıb.

Müzakirədə bildirilib ki, Beynəlxalq Ticarət Mərkəzi (BTM) Azərbaycanın ixracının artmasına, Aİ və Şərq Tərəfdaşlığının digər ölkələri ilə daha sıx ticarət inteqrasiyasına dəstək vermək öhdəliyinə sadiqdir. Vurğulanıb ki, BTM Birləşmiş Millətlər Təşkilatı və Ümumdünya Ticarət Təşkilatının birgə agentliyidir, inkişaf etməkdə olan ölkələrə ticarət sahəsində texniki yardım göstərməkdə demək olar ki, 60 illik təcrübəyə malikdir, fəaliyyətini KOB-ların inkişafına tam həsr etmiş yeganə çoxtərəfli qurumdur, həmçinin Azərbaycana dəstək verməyi qarşıya mühüm vəzifə kimi qoyur.

Tədbirdə AZPROMO-nun bu ilin sonunadək ticarət informasiya portalını istifadəyə verəcəyi də qeyd edilib. Bununla da "madeinazerbaijan.gov.az" elektron platforması vasitəsilə ixracatçılara daha yüksək və keyfiyyətli xidmətlər göstəriləcək. Portalda ticarət iştirakçıları gömrük prosedurları və sertifikatlaşdırma ilə bağlı mühüm məlumatlar əldə edəcəklər. Azərbaycanda dövlət qurumlarının rəqəmsallaşdırılması üçün nəzərdə tutulan "Rəqəmsal körpü" layihəsinin icrası demək olar ki, başa çatıb. Xatırladaq ki, rəqəmsallıqla bağlı bu layihə əsasən, dövlət qurumlarının rəqəmsallaşdırılması ilə bağlıdır. Bundan əlavə, hazırda KOB-ların rəqəmsallaşdırılması ilə bağlı layihə üzərində iş gedir.

Yeri gəlmişkən, BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının 2006- ci ildə apardığı araşdırmaya əsasən, bir ticari prosedurun 30-a qədər tərəfi, 40-a yaxın sənədi və 200-ə qədər fərqli məlumat bazası var. Bütün bu məlumatların 70 faizini ən azı bir dəfə yoxlamaq tələb olunur. Bu isə artıq vaxt itkisidir. Dünya Bankının 2010-ci ildə Effektiv Loqistika İndeksi sənədinə görə, beynəlxalq səviyyədə ticarəti asanlaşdıraraq onun həcmini yarıbayarı artırmaq iqtisadiyyatda 377 milyard dollar (9,7 faiz) məbləğində böyüməyə səbəb ola bilər. Eyni sənəddə qeyd olunan başqa bir məlumatda bildirilir ki, sadəcə gömrük prosedurlarının asanlaşdırılması isə dünya miqyasında iqtisadiyyatda 33 milyard dollarlıq böyüməni şərtləndirir.

Müzakirədə səsləndirilən bir fikri də diqqətə çatdırmaq istərdik. Bildirilib ki, Azərbaycanın informasiya texnologiyaları (IT) məhsulları hazırda 30-dan çox ölkəyə ixrac edilir. Bu, respublikada İT sektorunun son illər inkişafından xəbər verir. Halbuki əvvəl ölkədə bu sahədə məhdud sayda şirkət var idi. İndi isə onların sayı çoxdur. İT sahəsində tətbiq edilən güzəştlər bu sahədə yeni imkanlar yaradır, ixracı artırır. Azərbaycan şirkətləri xarici bazarlara sürətlə yönəlir.

İnnovasiyalar sahəsində ixracdan əldə edilən qlobal gəlirlər barədə də araşdırma aparılıb. Məlum olub ki, ötən il İsrail İT məhsullarının ixracından 45 milyard dollar, Belarus 3 milyard dollar gəlir əldə edib. Azərbaycanın isə isə bu sahədə gəliri 500 milyon ABŞ dollara yaxınlaşır. Düzdür, bu, adları çəkilən ölkələrin müvafiq göstəriciləri ilə müqayisədə çox aşağıdır. Amma həyata keçirilən layihələrin sürətli icrası yaxın perspektivdə ölkəmizdə İT məhsullarının ixracında müsbət dəyişikliyin olacağını deməyə əsas verir.

Tədbirdə yuxarıda sadalananlarla bərabər, bildirilib ki, artıq Azərbaycan Mərkəzi Bankında (AMB) sahibkarlara lisenziyaların elektron platforma üzərindən – onlayn şəkildə verilməsi qərara alınıb. Qeyd edək ki, bu ildən iqtisadiyyatın bir sıra sektorlarında fəaliyyət göstərən sahibkarların AMB ilə işinin asanlaşdırılması üçün elektron platformalar yaradılıb. Lisenziyaların elektron verilməsi üçün platformadan istifadə olunması istiqamətdə işlərə başlanılıb.

Həmin platforma istifadəyə verildikdən sonra kağız daşıyıcılarda əməliyyat aparılması ilə bağlı zərurət qalmayacaq. Çünki həmin platformaya bir sıra dövlət qurumlarının informasiya sistemləri inteqrasiya olunacaq.

Hazırda AMB-nin elektron müraciət sistemi səmərəli fəaliyyət göstərir. İstənilən sahibkar quruma müraciət edib rəsmi şəkildə cavab ala bilir.

***Vaqif BAYRAMOV***
***XQ***

## "Ordubad" gəmi-bərəsi yenilənib Xəzərə qayıtdı




**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin (ASCO) Dəniz Nəqliyyatı Donanmasına məxsus "Ordubad" gəmi-bərəsinin tərsanə təmiri yekunlaşıb.**

ASCO-dan verilən məlumata görə, təmir işləri Zığ Gəmi Təmiri və Tikintisi Zavodunda aparılıb. Təmir işləri çərçivəsində gəminin gövdəsi qaynaq edilib, avtomatika və boru işləri görülüb, müxtəlif təyinatlı nasoslar təmir olunub. Bundan əlavə, bərənin sualtı və suüstü hissəsi, vaqon göyərtəsi təmizlənərək rənglənib, gəmi heyətinin yaşayış şəraitini yaxşılaşdırmaq üçün kayutlarlarda lazımi işlər görülüb. Təmir işləri başa çatdıqdan sonra gəmi-bərə yenidən istismara qaytarılıb.

Qeyd edək ki, uzunluğu 154,55, eni 18,3 metr olan "Ordubad" gəmi-bərəsinin maksimal sürəti 15 uzel təşkil edir.

## Qeyri-neft sektorunun büdcə gəlirləri 13,5 faiz artıb

**Maliyyə Nazirliyinin məlumatına əsasən, ötən il qeyri-neft sektoru üzrə büdcə gəlirləri ümumi daxilolmaların 49 faizini təşkil etməklə 17 milyard 418 milyon manat məbləğində icra edilib. Bu da proqnozla nəzərdə tutulduğundan 1 milyard 268 milyon manat (7,8 faiz), 2022-ci illə müqayisədə isə 2 milyard 68,4 milyon manat və ya 13,5 faiz çoxdur.**



Vergi daxilolmaları və dövlət rüsumları üzrə dövlət büdcəsinə ümumi gəlirlərin 45,3 faiz həcmində və ya 16 milyard 127 milyon manat vəsait daxil olub ki, bu da proqnoza nisbətən 1 milyard 140 milyon manat və ya 7,6 faiz, 2022-ci illə müqayisədə isə 584 milyon manat və ya 3,8 faiz çoxdur.

Həmin vəsaitin 60,2 faizi və ya 9 milyard 708 manatı qeyri-neft sektorundan daxilolmaların payına düşməklə proqnoza nisbətən 723 milyon manat və ya 8 faiz, 2022-ci illə müqayisədə isə 1 milyard 571 milyon manat və ya 19,3 faiz çox olub.

Neft-qaz sektoru üzrə dövlət büdcəsinə təmin edilmiş vergi daxilolmaları 6 milyard 419 milyon manat təşkil edib ki, bu da proqnoza nisbətən 417 milyon manat və ya 6,9 faiz çoxdur.

## Qarabağ və Şərqi Zəngəzura 5,6 milyard manat vəsait qoyulub

**2023-cü ildə Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin yenidən qurulmasına və bərpasına dövlət büdcəsindən 5 milyard 588 milyon manat vəsait ayrılıb.**



Bu barədə Maliyyə Nazirliyindən məlumat verilib. Bildirilib ki, həmin vəsaitin 4 milyard 800 milyon manatı və yaxud 85,9 faizi Qarabağ və Şərqi Zəngəzur üçün nəzərdə tutulmuş məqsədli xərclərin, 145,4 milyon manatı və yaxud 2,6 faizi Prezidentin Ehtiyat Fondunun, 145,3 milyon manatı və yaxud 2,6 faizi dövlət büdcəsinin ehtiyat fondunun, 32,5 milyon manatı və yaxud 0,6 faizi dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) xərclərinin, 464,8 milyon manatı və yaxud 8,3 faizi dövlət büdcəsindəki digər mənbələr hesabına ayrılmış vəsaitlərin payına düşüb.

***XQ***

# "Azərpoçt"un illik mənfəəti 4,6 milyon manata çatıb

**2023-cü ildə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) əməliyyat mənfəəti 11,5 milyon manat, xalis mənfəəti isə 4,6 milyon manat təşkil edib. İl ərzində qurumun gəlirləri və xərcləri, təxminən, 10 faiz artaraq müvafiq olaraq 72,3 milyon manata və 67,5 milyon manata çatıb. Xərclərin artımının əsas hissəsi əməkhaqqı ödənişlərinin payına düşüb. Bu da 2023-cü ilin əvvəlində minimum əməkhaqqının 17 faiz artırılması ilə bağlıdır. Bu və digər məsələlər barədə "Azərpoçt" MMC-nin ötən ilin yekunları ilə bağlı hesabat tədbirində qurumun idarə heyətinin sədri vəzifəsini müvəqqəti icra edən İsi Mustafayev məlumat verib.**




Qeyd olunub ki, "Azərpoçt" rəqəmsal çatdırma hesab olunan ilk poçtamatını da AZ1000 indeksli mərkəzi poçt məntəqəsində müştərilərinin istifadəsinə verib. İnsan əməyi olmadan, avtomatlaşdırılmış şəkildə özünəxidmət funksiyalı poçt qutuları həftənin bütün günlərində 24 saat ərzində fəaliyyət göstərərək müştərilərin məmnunluğunu tam təmin edir. "Azərpoçt"un quraşdırdığı poçtamatların əsas üstünlüyü ondan ibarətdir ki, tam avtomatlaşdırılmış rejimdə, mərkəz sistemlə birbaşa inteqrasiyalı şəkildə işləyir. İ.Mustafayevin dediyinə görə, bu zaman poçtamata yaxınlaşan müştəri özünə məxsus kodu yığaraq açılan qutudan heç kəslə onlayn və ya fiziki şəkildə təmasda olmadan bağlamasını götürə bilir. Ötən il Azərbaycana gətirilən bu tip qurğular qısa müddətdə hipermarketlərdə də quraşdırılacaq.

Bundan əlavə, "Azərpoçt" yalnız onlayn sifarişlərin çatdırılması üçün nəzərdə tutulan, xüsusi xidmət nöqtələri olan PUDO məntəqələrini də istifadəyə verib. Hazırda 50-yə yaxın bu tip məntəqə səhər 9:00-dan etibarən 12 saat ərzində əhaliyə xidmət göstərir. "20 mindən çox müştəri bazası olan, Türkiyədən onlayn məhsulların sifarişini çatdıran "Postcargo" bu gün 1113 şöbədə vətəndaşlara xidmət göstərir. Hazırda ABŞ-dən test rejimində bağlamaların çatdırılmasını icra edir, yaxın zamanda xidmətin tam istifadəyə veriləcəyi planlaşdırılır", – deyə İ.Mustafayev bildirib.

Qeyd olunub ki, "Azərpoçt" MMC-nin məlumat sistemi ötən 20 il ərzində mütəmadi olaraq yenilənsə də, bu istiqamətdə əsaslı işlər son dövrlərdə aparılıb. Bu sahədə həyata keçirilən ardıcıl tədbirlərin nəticəsi olaraq 2022–2023-cü illərdə "Azərpoçt"un IT sistemi tam yenilənib. Hazırda isə ölkənin baş poçtunun internet bankinq sistemi üzərində işlər davam etdirilir. Bu məqsədlə "AzIntelecom" MMC tərəfindən sistem yoxlanılır. Yaxın günlərdə isə internet bankinq sisteminin təqdimatı keçiriləcək.

İşğaldan azad olunmuş ərazilərdə də poçt xidmətlərinin təşkili ilə bağlı lazımi işlərin görüldüyünü diqqətə çatdıran İ.Mustafayev bildirib ki, 2020-ci ildə Hadrutda, daha sonra Cocuq Mərcanlıda poçt şöbələri yaradılıb. 2022-ci ildə isə Zəngilan rayonunun Ağalı kəndində poçt xidmətlərinin təşkili təmin olunub. Hazırda "Azərpoçt"un Xankəndi Poçt Filialının yaradıldığını bildirən sədr vəzifəsinin icra edən İsi Mustafayevin sözlərinə görə, Şuşa, Laçın, Xocavənd və Əskəran şəhərlərində də poçt xidmətlərinin təşkili üçün inzibati binaların müəyyən olunması ilə bağlı işlər davam etdirilir.

Yeri gəlmişkən, son zamanlar "Azərpoçt" MMC-nin adından əhaliyə saxta mesajlar göndərilir. Xüsusən də 2023-cü ildən başlayaraq bu cür xoşagəlməz halların sayında artım müşahidə olunur. Belə bir narahatedici məqama toxunan İ. Mustafayev deyib ki, ölkəmizdə hətta bir sıra maliyyə qurumları da belə hallarla üzləşirlər. Bildirilib ki, "Azərpoçt" MMC və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzdində Elektron Təhlükəsizliyi Xidməti tərəfindən bu istiqamətdə müntəzəm tədbirlər görülür, əhali arasında maarifləndirmə işləri aparılır.

"Azərpoçt" MMC-də istifadə olunan mövcud proqramın 20 ildir ki, fəaliyyət göstərdiyini vurğulayan qurum rəhbərinin sözlərinə görə, köhnəlmiş proqram səbəbindən sistemdə müəyyən problemlər yaranır. O deyib ki, "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin sistemlərində ləngimənin baş verməsinin səbəbi də məhz onun köhnə olması ilə bağlıdır. Sistem ləngiməsinin aradan qaldırılması üçün müvafiq prosedurların davamlı olaraq həyata keçiriləcəyini bildirən İ.Mustafayev onu da deyib ki, köhnə sistemin yenilənməsi üçün avadanlıqların və cihazların hər birinin dəyişdirilməsi lazımdır. "Bununla bağlı 2023-cü ildə xeyli iş görülüb. Amma bu gün məsələnin tam həlli mümkün deyil. Bu problem tədricən öz həllini tapacaq ki, bu da ayrıca bir layihədir. Təəssüf ki, bunun üçün il yarımadək vaxt lazımdır", – deyə İ.Mustafayev əlavə edib. Yeri gəlmişkən, bəzi hallarda vətəndaşlar bağlamaların itməsi ilə yanaşı, onların vaxtında çatdırılmamasından narazılıqlarını bildirirlər. Məsələyə aydınlıq gətirən İsi Mustafayevin dediyinə görə, bağlamaların gec çatdırılmasının əsas səbəbi ünvanın göstərilməməsi və ya səhv qeyd olunmasıdır.

2024-cü ili mənfəətlə başa vurmaq üçün imkanların səfərbər olunduğunu vurğulayan qurum rəhbəri qeyd edib ki, il ərzində ölkə ərazisində yeni çeşidləmə mərkəzləri tikiləcək, IT infrastrukturu modernləşdiriləcək. Bununla yanaşı, cari ildə "Azərpoçt" MMC-nin inzibati binaları təmir olunacaq, müştəri loyallığı indeksinin artırılması məqsədilə lazımi tədbirlər həyata keçiriləcək. Azərbaycanda universal poçt xidmətləri üzrə tariflərin qaldırılması ilə bağlı hər hansı təklifin olmadığını deyən qurum rəhbərinin sözlərinə görə, minimum əməkhaqqının artırılması ilə bağlı ehtimal edilən qərarlar poçt xidmətlərinin maya dəyərinə təsir etsə də, bu sahədə hər hansı dəyişiklik gözlənilmir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

## Azərbaycan–Türkiyə ticarət dövriyyəsi 7 milyard dolları ötüb

**Hesabat ilində Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsi əvvəlki illə müqayisədə 31faiz və ya 1 milyard 808 milyon dollar artaraq 7 milyard 650 milyon dollar təşkil edib.**

Dövlət Gömrük Komitəsinin məlumatında daha sonra bildirilir ki, ötən il Azərbaycandan qardaş ölkəyə ixracın həcmi 2022-ci illə müqayisədə 51.2 faiz və ya 1 milyard 814 milyon dollar artaraq 5 milyard 359,3 milyon dollara, Türkiyədən respublikamıza ixracın həcmi isə 0,3 faiz və ya 6,1 milyon dollar azalaraq 2 milyard 291 milyon dollara bərabər olub.

Hesabat dövründə Azərbaycandan Türkiyəyə 783 milyon 861 min dollar dəyərində qeyri-neft məhsulları ixrac edilib ki, bu da 2022-ci ilə müqayisədə 9.9 faiz çoxdur.



Xatırladaq ki, 2023-cü ildə Azərbaycanın ümumi ticarət dövriyyəsi 51 milyard 183 milyon dollar, qeyri-neft ixracı isə 3,3 milyard dollar təşkil edib.

***XQ***

**Naxçıvan Muxtar Respublikası – 100**

# Qədim diyarın 1 əsrlik yeni tarixi

**Qədim Naxçıvan torpağı tarix boyu bütün çətinliklərə sinə gərib, Azərbaycanın bu dilbər guşəsinin hər qarışı qəhrəman naxçıvanlılar tərəfindən fədakarlıqla qorunub. Muxtariyyətimizin qazanılmasında, qorunmasında çox şücaətlər göstərilib.**

Muxtar respublikamızın əsl yüksəlişi və bugünkü tərəqqiyə qovuşması Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ötən əsrin 90-cı illərində çox mürəkkəb tarixi-siyasi şəraitdə Moskvada nəzarət və təqiblərdən yaxa qurtararaq öz xalqının köməyinə gələn görkəmli dövlət xadimi Heydər Əliyev Bakıda da dönük rəhbərlərdən soyuq münasibət görəndə doğulduğu torpağa üz tutdu. Naxçıvanlılar Ulu öndəri böyük səmimiyyət və ehtiramla qarşıladılar. Üstünü qara buludlar almış muxtar respublika əhalisi görkəmli dövlət xadiminin zəka və qüdrətinə sığındı.

Naxçıvanlılar Ulu Tanrının xalqımızın xilası və nicatı üçün qoruyub saxladığı, taleyin bu qədim yurd yerinə göndərdiyi böyük rəhbərin ətrafında sıx birləşdi, onu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçdilər. Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə Ümummilli liderin reallaşdırdığı müdrik və qətiyyətli tədbirlər qısa müddətdə muxtar respublikanın etibarlı müdafiəsini təmin etdi, dövlət müstəqilliyi ilə bağlı qabaqlayıcı addımlar atıldı.

"Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2023-cü il tarixli sərəncamında da deyildiyi kimi: "Naxçıvanın davamlı inkişafında Ümummilli lider Heydər Əliyevin böyük xidməti vardır. Ulu öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən vacib qərarların təşəbbüskarı olmuşdur.

Məhz Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət rəmzi olaraq qəbul edilməsi dövrün mürəkkəb ictimai-siyasi proseslərinə həlledici təsir göstərmiş və Azərbaycanı müstəqilliyə sürətlə yaxınlaşdırmışdır".

O günlərdə üçrəngli bayrağımızın ilk dəfə Naxçıvan Ali Məclisində qaldırılması, muxtar respublikanın adından "sovet, sosialist" sözlərinin çıxarılması, qonşu Türkiyə və İranla zəruri əlaqələr yaradılması Ulu öndərin təkcə Naxçıvan deyil, bütövlükdə, xalqımız qarşısında misilsiz tarixi xidmətləri idi. Sonralar Ümummilli Liderimiz bununla bağlı naxçıvanlılara xitabən deyəcəkdi: "Mən 3 il Naxçıvanda yaşamağımı və sizinlə, muxtar respublikanın əhalisi ilə birlikdə işləməyi həyatımın, deyə bilərəm ki, ən parlaq, ən şərəfli bir dövrü hesab edirəm".

1992–1993-cü illərdə AXC–Müsavat hakimiyyətinin xalqa zidd siyasətinin bais olduğu başıpozuqluq dövründə də



Ulu öndər Naxçıvanı qorumuş, onu işğaldan, məhv olmaqdan xilas etmişdir. Ümummilli liderin daimi diqqəti, himayəsi, yerli potensialın hərəkətə gətirilməsi ilə ölkədə ilk dəfə Naxçıvanda başladığı aqrar islahatlar uğurla həyata keçirildi. Mövcud sənaye müəssisələri özəlləşdirildi və yenidən quruldu. Yerli ehtiyatlara əsaslanan müasir istehsal sahələri yaradıldı. Naxçıvan şəhərində, rayon mərkəzlərində, yaşayış məntəqələrində əsaslı quruculuq işlərinə başlandı. Sosial-mədəni obyektlər, binalar təmir və bərpa edildi, yeni obyektlər tikildi. Təhsil, səhiyyə və digər sahələrin inkişafı prioritet vəzifəyə çevrildi.

Əhalinin elektrik enerjisi, qaz, içməli su problemi aradan qaldırıldı. Kommunikasiyalar təzələndi, genişləndi. Rabitə-nəqliyyat şəbəkəsi müasirləşdirildi, tələbata uyğun quruldu. Muxtar respublikanın etibarlı müdafiəsi təmin olundu, hərbi quruculuq məsələləri diqqət mərkəzində saxlanıldı. Minnətdarlıqla vurğulamaq yerinə düşər ki, həyata keçirilmiş misilsiz işlərin hamısında əsas məqsəd məmləkətimizin hərtərəfli tərəqqisinə, insana qayğıya, əhalinin maddi-rifah halının, yaşayış səviyyəsinin və şəraitinin daha da yaxşılaşdırılmasına yönəlmişdi.

Naxçıvanlılar yaxşı bilirlər ki, Heydər Əliyev şəxsiyyəti olmasaydı, Naxçıvan yaşayaraq bugünkü günə gəlib çata, onun muxtariyyəti və ərazisi qorunub saxlanıla bilməzdi. Biz buna görə daim Ulu öndərə borcluyuq. Əldə olunmuş uğurlar və nailiyyətlər dahi rəhbərin yoluna sədaqətin nəyə qadir olduğunun daha bir göstəricisinə çevrilmişdir.

Ulu öndər Heydər Əliyevin Naxçıvanın muxtariyyət statusunun qorunması, muxtar respublikanın yubileylərinin keçirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər dahi rəhbərin bu qədim yurd yerinə qayğısının ifadəsi idi və Naxçıvan Muxtar Respublikasının 80, 85, 90, 95 illik yubileylərinin ölkəmizdə geniş qeyd olunması bunun bariz nümunəsidir.

Son 20 ildə dövlət başçısı 15 dəfə muxtar respublikamıza səfər etmiş, qədim diyarımızın sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair müxtəlif sərəncamlar, Dövlət proqramları imzalanmışdır. "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında" sərəncam imzalaması isə əsl bayram ərməğanı oldu. sərəncamda deyilir: "Naxçıvan Muxtar Respublikası bu gün dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir. Hazırda Naxçıvan beynəlxalq miqyaslı mötəbər tədbirlərin ardıcıl keçirildiyi məkanlardandır. Azərbaycanın ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində muxtar respublika yaşıl enerji zonası elan olunmuşdur. Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat imkanlarının genişləndirilməsi istiqamətində işlər davam etdirilir".

Naxçıvanın uğurları ilbəil artmaqdadır. Həyatın bütün sahələrində müvəffəqiyyətlər qazanılır, diyarın hərtərəfli inkişafı təmin edilir. Muxtar respublikada həyata keçirilən quruculuq, abadlıq və yenidənqurma işləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin gecəli-gündüzlü məqsədyönlü fəaliyyətinin məntiqi nəticəsidir. Onun bu diyara tarixi səfərləri, ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü işlər və həlli vacib olan digər məsələlərin həyata keçirilməsi Naxçıvanın hərtərəfli inkişafını təmin etmiş, regionu çiçəklənən diyara çevirmişdir.

Naxçıvanın muxtar respublika statusu bu bölgənin 100 illik tarixi taleyində, onun ərazisinin qorunub saxlanılmasında və təhlükəsizliyinin təmin edilməsində çox mühüm rola malik olmuşdur. Bu illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi qüdrətinin yüksəlməsinə və hərtərəfli inkişafına da öz layiqli töhfəsini vermişdir. Ölkə Prezidentinin dediyi kimi: "Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmış, respublikada cərəyan edən ictimai-siyasi proseslərə öz müsbət və həlledici təsirini göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılması və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir".

Artıq Naxçıvan muxtariyyətinin 100 yaşının müxtəlif tədbirlərlə qeyd olunmasına start verilib. Şübhəsiz ki, hamımız üçün əziz olan bu il də Naxçıvanda hərtərəfli inkişaf təmin olunacaq, abadlıq-quruculuq işlərinin həcmi, sosial-iqtisadi inkişaf dinamikası və əhalinin rifah halı daha da artacaq, 100 ilin Naxçıvanı tariximizə daha bir yüksəliş və tərəqqi dövrü kimi yazılacaqdır. Bütün bunlar onu göstərir ki, Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsidir. Ulu öndərin "Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin" sözləri indi xoş bir arzu çərçivəsindən çoxdan çıxmış və bu günümüzün möhtəşəm reallığına çevrilmişdir.

Bəli, Ulu öndərimizin Azərbaycan haqqında, Naxçıvan haqqında arzuları, planları Onun layiqli davamçısı, dövlət başçısı tərəfindən uğurla reallaşdırılır. Ölkə başçısının Naxçıvanın çiçəklənməsi uğrunda mühüm qərarlarından biri də muxtar respublikada müasir idarəetmə sisteminin tətbiq olunmasıdır. Xalqın iftixarına çevrilən ölkə Prezidentinin gündəlik diqqət və qayğısı ilə əhatə olunan qədim Naxçıvan diyarında bu gün yeni bir həyat çağlayır, dövlət başçısının Naxçıvanın kiçik problemlərinə belə böyük həssaslıqla yanaşması hər birimizin ürəyini dağa döndərir.

Tarix boyu başı çox bəlalar çəksə də, dəfələrlə yüksəliş dövrü yaşamış, zəngin mədəni irs yaratmış qədim Naxçıvan muxtariyyətinin 100-cü ali təntənəsini yaşayaraq bugünkü inkişafı ilə möhkəm köklər üstündə qol-qanad atıb daha xoş sabahına doğru inamla irəliləyir.

***Məhəbbət MİRZƏYEVA,***
***"Şərq qapısı" qəzetinin əməkdaşı***
**Naxçıvan**

# Qarabağ və Şərqi Zəngəzur torpaqları aqrar dövriyyəyə qaytarılır

## Bu, ölkəmizin ərzaq təhlükəsizliyini daha da gücləndirəcək



**Qələbədən sonrakı üç il müddətində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda aparılan bərpa–quruculuq işlərinə dövlət büdcəsindən 12 milyard manat vəsait ayrılıb. 2024-cü ilin dövlət büdcəsində isə 4 milyard manat vəsait nəzərdə tutulub.**

Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası üçün sonrakı illərdə 14,5 milyard manat vəsait nəzərə alınmaqla 2022-2026-cı illərdə, ümumilikdə, təqribən 30,5 milyard manat məbləğində vəsait tələb olunur. Bu barədə Baş nazir Əli Əsədov çıxışlarının birində deyib: "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr, vergi, gömrük, sosial sığorta, investisiya təşviqi, kredit və digər güzəştlər paketi həmin rayonların sürətlə dirçəlməsinə, əhalinin məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir".

Nəzərdə tutulan vəsaitin bir hissəsi isə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kənd təsərrüfatının inkişafına yönəldilir. Sovet dövründə bu torpaqlarda bol pambıq, taxıl, üzüm, tərəvəz və digər kənd təsərrüfatı məhsulları yetişdirilib, heyvandarlıq inkişaf etdirilib. Lakin bu torpaqlar bir müddət işğal altında qalıb. Ermənistanın kənd təsərrüfatı nazirinin etiraf etdiyinə görə, Azərbaycanın işğal edilmiş torpaqlarında istehsal edilən və işğalçı ölkəyə daşınan taxılın miqdarı hər il 150 – 200 min ton civarında olub. Göstərilən miqdarda taxılın Ermənistana daşınması bu ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayıb.

Artıq böyük potensiala malik ərazilərin yenidən əkin dövriyyəsinə qaytarılması ölkədə aqrar sahənin inkişafına yeni təkan verməklə bərabər, həm xaricdən idxal olunan kənd təsərrüfatı məhsullarının qarşısını xeyli dərəcədə alacaqdır. Bu istiqamətdə layihələr həyata keçirilir. Regionda tarixən mövcud olan üzümçülük, tütünçülük, baramaçılıq və arıçılıq sahələrinin bərpası və genişləndirilməsi ilə yanaşı, intensiv meyvəçilik sahəsi inkişaf etdirilir. Bu işlər işğaldan azad edilmiş ərazilərdə minaların təmizlənməsi prosesi ilə paralel həyata keçirilir.

2020-ci ilin noyabr ayından etibarən işğaldan azad edilmiş ərazilərdə 118 min hektardan çox ərazi minalardan təmizlənib, minlərlə hektar ərazi əkinə cəlb edilib.

Qeyd edək ki, Qarabağ iqtisadi rayonunda 2022-ci ildə kənd təsərrüfatı bitkilərinin cəmi əkin sahəsi 235 min 919 hektar (azad olunmuş rayonlarda 88 min 14 hektar ), Şərqi Zəngəzurda isə 43 min 944 hektar olub. Bu torpaq sahələri su ehtiyatları ilə zəngin ərazilərdə yerləşir.

Bununla bağlı kənd təsərrüfatı naziri Məcnun Məmmədov bildirib ki, strateji əhəmiyyətli su ehtiyatlarının yerləşdiyi ərazilərin işğaldan azad edilməsi ilə yeni sahələrin suvarılması təmin ediləcək. Bütövlükdə ölkədə kənd təsərrüfatının inkişafına müsbət təsir göstərəcək. Yəni, əkin sahələrinin suvarılması üçün problem də olmayacaq.

Qarabağın ümumi su ehtiyatları 2,1 milyard kubmetr həcmində dəyərləndirilir. Bu ehtiyatlardan səmərəli istifadənin təmin edilməsi məqsədilə, ümumilikdə, 9 ədəd su anbarı və onlardan qidalanan kanalların əsaslı şəkildə yenidən qurulması həyata keçirilir. Artıq Xaçınçay, Suqovuşan su anbarları bərpa–təmir işlərindən sonra istifadəyə verilib. Köndələnçay-1, Köndələnçay-2 və Aşağı Köndələnçay su anbarlarının yenidən qurulması işləri son mərhələsindədir. Anbarlar təmir ediləndən sonra bu suların toplanması və qənaətlə istifadə edilməsi əsas hədəflərdən biridir. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin rəsmisi Riad Axundzadə deyib: "Təxminən 30 ildir ki, Azərbaycan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları su potensialından istifadə edə bilmir. Ölkəmiz yaxın gələcəkdə bu potensialdan yararlana biləcək".

Bölgənin heyvandarlıq sahəsi üzrə də güclü potensialı var. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında mövcud olan otlaq və biçənəklərlə yanaşı, taxıl və yem bitkiləri əkinlərinin də genişləndirilməsi hesabına heyvandarlıq inkişaf etdiriləcək. Ət və süd məhsulları istehsalının proqnozlaşdırılan həcmi xüsusilə idxal əvəzetməsi baxımından böyük önəm kəsb edəcək. Çünki ölkəmizin ərzaq bazarının heyvandarlıq məhsulları seqmentinin tutumu daha çoxdur və əhalinin bu məhsullara tələbatının dolğun ödənilməsilə bağlı müəyyən çətinliklər müşahidə edilir.

Qarabağda heyvandarlığın inkişaf etdirilməsi isə yerli istehsalçılar tərəfindən bazara heyvandarlıq məhsullarının təklifinin artımına, sözügedən məhsulların bazar qiymətlərinin azalmasına və əhalinin müxtəlif təbəqələrinin daha keyfiyyətli qidalanmasına imkan verəcəkdir. Bu barədə kənd təsərrüfatı naziri Məcnun Məmmədov bildirib ki, Qarabağ və Şərqi Zəngəzur bölgələrində mövcud olan, təqribən, 350 min hektar örüş-otlaq sahələri, əlverişli təbii şərait burada heyvandarlığın inkişafı üçün də geniş imkanlar yaradır. Nazirin sözlərinə görə, ilkin hesablamalar göstərir ki, bu ərazilərdə iribuynuzlu heyvanların sayının təqribən 430 min başa, xırdabuynuzlu heyvanların sayının isə 1,6 milyon başa çatdırılması mümkündür.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin potensialından istifadə olunması ölkədə kənd təsərrüfatının inkişafına müsbət təsir göstərəcək, iqtisadiyyatımıza yeni töhfələrini verəcək. Ölkəmizin idxaldan asılılığının azalması isə milyonlarla dollar valyutanın qənaət edilməsinə və ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunmasına gətirib çıxaracaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Qış turizminin qaynar çağı

**"Bu gün bölgələrdə fəaliyyət göstərən qış turizmi komplekslərinin sayı az olduğuna görə, rəqabətlilik istənilən səviyyədə deyil. Amma buna baxmayaraq, Qusarda Şahdağ, Qəbələdə Tufandağ, Naxçıvanda kurort turizm kompleksi həm yerli, həm də əcnəbi turistlərin istifadəsindədir". – Bu barədə jurnalistlərə açıqlamasında turizm eksperti Rəhman Quliyev deyib.**

Ekspert bildirib ki, yaxın gələcəkdə Qarabağ bölgəsində, xüsusən də Zəngilan, Kəlbəcər və Laçında relyefə uyğun olaraq qış turizmi komplekslərinin daha geniş və müasir tipli inşası zəruridir: "Həm Qarabağın tanıdılmasına, həm də



bölgədə turizmin inkişafına və dədə-baba torpaqlarına qayıdan sakinlərin məşğulluğuna müsbət təsir göstərəcək. Bu gün bölgələrdə dağ-xizək kurort komplekslərindən başqa, fəaliyyətdə olan otellər də var. Həmin otellərin həftəsonu doluluq səviyyəsi, demək olar ki, 100 faizə çatır. Bölgələrdə intensiv qar yağması qış turizminə marağı daha da artırır. Hesab edirəm ki, bölgələrdə, xüsusən də dağlıq zonalarda fəaliyyət göstərən otellərin işində ciddi bir problem yoxdur. Əgər həmin otellər bu tendensiyanı davam etdirsələr, daxili bazarda böyük bir portfel əldə edə bilərlər. Eyni zamanda daha çox xarici turisti cəlb etmək üçün münbit şərait yaranar".

Rəhman Quliyev qeyd edib ki, dünyada baş verən çaxnaşmaların turizm sektoruna da təsir etdiyi dövrdə Azərbaycanda sabitlik hökm sürür: "Bu da ölkə rəhbərliyinin apardığı uğurlu xarici siyasətin nəticəsidir. Yaranmış fürsətdən səmərəli istifadə bölgələrdə olan otellərə daha çox fayda verə bilər. Həm düzgün qiymət siyasəti aparmalı, həm də maksimal səviyyədə yüksək xidmət göstərməlidirlər ki, gələcəkdə də müştəri bazarlarını qoruyub saxlasınlar. Azərbaycan dünya turizm bazarında yerini daha da möhkəmləndirməlidir. Bu gün Avropadan Rusiyaya



turist axınında müəyyən məhdudiyyətlərin olması, eyni zamanda Yaxın Şərqdə gedən müharibələr də turizm məkanı kimi bizim ölkəmizi daha da önə çəkir. Biz beynəlxalq standartlara tam uyğun şəkildə sağlam turizm rəqabəti sərgiləməklə daha da irəli gedə bilərik ki, bu da Azərbaycanın iqtisadiyyatına çox müsbət təsir göstərər".

***XQ***

Sağlam həyat tərzi

# Böyrəklər necə daş bağlayır?

## Bu bəladan əməliyyatsız da xilas olmaq mümkündür

**Urolitiyaz böyrəklərdə və sidik yollarında sərt daşların əmələ gəlməsi patologiyası ilə xarakterizə olunan geniş yayılmış xəstəlikdir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, Yer kürəsinin yetkin işləyən əhalisinin, ən azı, 3 faizi bu patologiyadan əziyyət çəkir. "Premium" klinikasının uroloq-androloqu, Rusiya və Avropa Uroloqlar Assosiasiyasının üzvü, tibb elmləri doktoru, professor Cəfər Əhmədli aktual olan urolitiyazla bağlı XQ-yə müsahibəsində dedi:**

– Urolitiyaz hər kəsdə və hər yaşda baş verə bilər. Dünya üzrə 30–50 arası yaşda olan əhalinin yarıdan çoxu xüsusi risk qrupuna daxildir. Urolitiyazdan danışanda öncə onu qeyd etməliyik ki, bir qayda olaraq, bu patoloji hal birtərəfli olur. Hər iki böyrəkdə daş yaranması xəstələrin yalnız üçdə birində aşkar edilir. Urolitiyaz planetin ən qədim xəstəliklərindən biri hesab olunur. Xəstəlik haqqında ilk qeydlərə Misir və Yunanıstanın qədim əlyazmalarında rast gəlinir. Məşhur filosof və həkim Hippokrat qaraciyər problemləri ilə mübarizə üsullarını öyrənməklə yanaşı, bu patologiyanın da cərrahi müalicəsinin əsasını qoyub. Amma urolitiyazla bağlı problemlərin dəqiq mənbəyini müəyyənləşdirmək hələ də mümkün olmayıb.



**– Professor, xəstəliyi yaradan və ona təkan verən səbəblər hansılardır?**

– Qidalanmanın qeyri-normal olması ilkin səbəb kimi götürülür. Amma xarici mühitin təsiri, irsiyyət, insanın yaşadığı ərazinin su tərkibi və digər amillər də xəstəliyin yaranmasına təsir edir. Balanslaşdırılmayan pəhriz saxlamaq urolitiyaz yarada bilər. Bu, tez-tez gündəlik menyuda oxşar məhsullardan çox istifadə etməkdir. Məsələn, ət urat daşları, süd kalsium birləşmələrinin yaranmasına səbəb olur. Xəstəliyi müxtəlif infeksiyalara həssaslıq (patogen mikroorqanizmlər sonradan daşlarla əhatə olunan çökmə nüvələri əmələ gətirir), endokrin və ya genetik təbiətin patologiyaları (diabet, gut (podaqra) kimi xəstəliklər bədəndə duz konsentrasiyasının artmasına səbəb olur), sidik durğunluğu ilə müşayiət olunan anomaliyalar (onurğa beyni zədələri, xərçəng şişləri) yaradır.

Urolitiyaza səbəb olan xarici (ekzogen) mənbələri də qeyd etmək lazımdır. Ultrabənövşəyi şüalanma, D vitamini çatışmazlığı və az su qəbul etmək xəstəliyin yaranması ehtimalını artırır. Bəzi mütəxəssislər daşların əmələ gəlməsi ilə həyat tərzi arasında sıx əlaqə olduğunu qeyd edir. Az hərəkətlilik və fiziki fəaliyyətin olmaması sağlamlıq problemlərinin yaranması üçün ilk addımdır.

**– Urolitiyaz hansı simptomlarla özünü göstərir? Həkimə nə vaxt müraciət edilməlidir?**

– Xəstəliyin ilkin mərhələlərinin asimptomatik olması xəstələr kimi həkimlər üçün də problemlər yaradır. Daş əmələ gəlməsinin ilk mərhələlərində patologiyanı müəyyən etmək, demək olar ki, mümkün deyil (kompleks aparat diaqnostikası istisna olunur). İnsan urolitiyazdan yalnız daşlar böyük ölçülərə çatdıqdan və ya hərəkət etdikdən, böyrəklərin işini pozaraq və sidik axınını çətinləşdirdikdən sonra şübhələnə bilər. Xəstəliyin əsas təzahürü ağrıdır. Kanalların qəfil tıxanması ilə kəskin ağrı yaranır. Çox vaxt narahatlıq sol və ya sağ tərəfdə, bəzən hər iki tərəfdə, bel, qarın altı və daha aşağı nahiyələrə yayılır. Patologiyanın gedişi sidikdə qanın görünməsi ilə müşayiət olunur. Bu hal daşların hərəkəti zamanı sidik kanallarının divarlarının zədələnməsi ilə əlaqələndirilir. Təsvir edilən simptomlara iltihab prosesinin ümumi əlamətlərini əlavə etmək lazımdır. Urolitiyaz bədən hərarətinin yüksəlməsi, baş ağrısı, ürəkbulanma, iştahsızlıq, zəiflik və qusmaya səbəb olur.

**– Söylədiyiniz simptomların bəziləri öd daşı, mədəaltı vəz, qaraciyər xəstəliklərində də müşahidə edilir. Urolitiyazın diaqnozu necə müəyyənləşdirilir?**

– Urolitiyaz olduqca təhlükəli xəstəlikdir. Vaxtında müalicə olunmazsa, bu patoloji vəziyyət hidronefroz, kəskin böyrək çatışmazlığı, xroniki hipertrofik sistit, urosepsis və pionefroza səbəb olur. Buna görə, simptomlar müşahidə olunan kimi təcrübəli mütəxəssislərdən məsləhət almaq lazımdır. Uroloq və nefroloq urolitiyazın aşkarlanmasında və müalicəsində iştirak edir. İlk növbədə, həkim xəstəni müayinə edir, anamnez toplayır və ağrının yerini əllə (palpasiya) müəyyənləşdirir. Növbəti addım laboratoriya tədqiqatıdır. Qan və sidik nümunələrində EÇR-də artım, leykosit formulasının dəyişməsi, qırmızı qan hüceyrələrinin və duzların varlığı və konsentrasiyası qeyd olunur. İlkin diaqnoz aparatla müayinədən istifadə etməklə təsdiq və ya təkzib edilir. Kompüter tomoqrafiyası daşların dəqiq yerini, sıxlığını, strukturunu müəyyən etməyə imkan verir. Ultrasəs müayinəsi 5 millimetr və daha yuxarı ölçülü daşları müəyyən etmək üçün uyğundur. Kontrastlı rentgen isə sidik yollarında tıxanıqlığı müəyyənləşdirir. Bu müayinələrdən sonra xəstəliyin tam diaqnozu əldə edilir.

**– Xəstələrin müalicəsi necə aparılır? Onlara tövsiyələriniz.**

– Terapevtik üsulun seçimi daşların ölçüsündən və xəstəliyin ağırlığından asılıdır. İlk növbədə ağrılar aradan qaldırılır. Kanallar tıxandıqda xəstəyə ağrıkəsicilər və qeyri-steroid dərmanlar təyin edilir.

Konservativ müalicə metabolik pozğunluqların düzəldilməsi ilə məhdudlaşır. Bunun üçün xəstəyə pəhriz terapiyası – spirtli içkilərdən imtina, duz və ədviyyatların miqdarının maksimum məhdudlaşdırılması, su – duz balansına ciddi nəzarət təyin olunur. Urolitiyaz üçün antibiotiklərlə müalicə qadağandır. Digər qeyri-invaziv üsul ultrasəs müalicəsidir. Şok dalğası – litotripsi diametri 2 santimetrə qədər olan daşları parçalaya bilir.

Fizioterapiya ilə müalicədə elektrik, işıq, maqnit, mexaniki və termiki üsullardan, hidro və radio müalicədən istifadə edilir. Həmin üsullar və prosedurlar xəstəliyin müddətindən asılı olaraq hər xəstə üçün fərdi seçilir.

Zərərli vərdişlərdən – siqaret çəkmək, spirtli içkilərdən imtina etmək və aktiv həyat tərzi keçirmək (idman, fiziki



fəaliyyət, çox gəzmək vərdişi) faydalı olar. Qeyd edilən üsullar təsir etməyəndə, xəstəyə cərrahi müalicə təyin edilir.

Bu gün daşların cərrahi müalicəsi geniş yayılmış laparoskopiya, klassik qarın cərrahiyyəsi, lazer, pnevmatik avadanlıqdan istifadə ilə aparılır. Tövsiyə olaraq deyə bilərəm ki, patoloji vəziyyətin qarşısını almaq mümkündür. Əməliyyat olunmaq istəməyən böyrəklərini o həddə çatdırmamalıdır. Bunun üçün həyat tərzinə diqqət edilməli, bədənin ümumi sağlamlığını dəstəkləməyə yönəlmiş tövsiyələrə əməl olunmalıdır. Bədən çəkisinə nəzarət və sidik-cinsiyyət sisteminin infeksiyalarını vaxtında müalicə etməklə urolitiyaz riskini azaltmaq mümkündür.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

Ölkəmizi dünyaya tanıdanlar

**Azərbaycanı dünyada tanıdan, adımıza şərəf və ucalıq gətirən görkəmli soydaşlarımızın sorağı dünyanın hər yerindən gəlir. Onlardan biri də uzun illərdir ABŞ-da yaşayan və Mərkəzi Florida Universitetinin Günəş Enerjisi Mərkəzində mötəbər vəzifədə çalışan Nazim Muradovdur.**



# ABŞ Milli İxtiraçılar Akademiyasının ilk azərbaycanlı üzvü

Əslən Qazax rayonundan olan Nazim Muradov 1947-ci ildə dəmiryolçu ailəsində anadan olub. Ailəsi Bakıya köçəndən sonra 160 saylı orta məktəbdə orta təhsilini başa vurub, Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun (indiki ADNSU) kimya texnologiyaları fakültəsində təhsil alıb. Kimyaçı mühəndis-texnoloq kimi 15 il Neft Kimya Prosesləri İnstitutunda çalışıb. Neft kimyası və neftin emalı sahəsində tədqiqatları ilə Azərbaycan elminin inkişafına töhfələr vermiş akademiklər Vahab Əliyev və Musa Rüstəmovun tələbələrindən olub. Namizədlik və doktorluq dissertasiyalarını Moskvada, SSRİ EA-nın Kimyəvi Fizika İnstitutunda uğurla müdafiə edib.

ABŞ-ın Florida ştatının 2-ci böyük şəhəri Mayamidə 1989-cu ildə keçirilən beynəlxalq konfransda onun "Günəş hidrogeninin istehsalı" məruzəsi maraq doğurur və Mərkəzi Florida Universitetinin Günəş Enerjisi Mərkəzində işləmək dəvəti alır. Dəvəti qəbul edən alim 1990-cı ildən həmin təşkilatda çalışır, hidrogen energetikası üzrə qrup rəhbəridir.

Azərbaycanlı professorun elmi nailiyyətləri beynəlxalq arenada yüksək qiymətləndirilir. 2 kitabın, 200-dən çox elmi məqalənin, alternativ yanacaq və ekologiyanın təmizlənməsi sahələri üzrə 50 patentləşdirilmiş kəşfin müəllifi və həmmüəllifidir. Nazim Muradov ABŞ-ın Milli İxtiraçılar Akademiyasına üzv seçilən ilk azərbaycanlıdır. 2006-cı ildən "Hidrogen enerjisi" ("Journal of Hydrogen Energy") beynəlxalq jurnalına redaktorluq edir. Adı "Amerikada kim kimdir və elmdə kim kimdir?" ensiklopediyasında yer alıb.

NASA ilə yaxından əməkdaşlıq edən soydaşımız ABŞ Hərbi Dəniz Qüvvələri tərəfindən aparılan bir sıra elmi araşdırmaların baş tədqiqatçısı olub. Onun yaratdığı hidrogen sensoru texnologiyasını NASA ilin ən yaxşı kommersiya texnologiyası kimi qiymətləndirib və nüfuzlu beynəlxalq "R&D100" mükafatına layiq görüb. Bu mükafat il ərzində 100 ən yaxşı texnoloji kəşfə görə verilir və "İxtiraçıların Oskarı" adlanır. Nazim müəllimin bir sıra patentləri isə ABŞ və Yaponiya şirkətləri tərəfindən lisenziyalaşdırılıb. ABŞ Müdafiə Nazirliyi və Qətərin Aparıcı Elmi Araşdırmalar Fondu tərəfindən maliyyələşdirilən "Sudan hidrogenin alınması" layihəsinin elmi rəhbəridir. Dəfələrlə Tokio, Amsterdam, Madrid universitetlərində, həmçinin ARAMKO (Səudiyyə Ərəbistanı) şirkətində çoxsaylı mühazirələr oxuyub.

Nazim Muradov Azərbaycandakı həmkarları ilə sıx əlaqələri olmasa da, doğma vətənə çox bağlı olduğunu deyir. O, Bakıda keçirilən "Kimya elmləri və texnologiyaları III Beynəlxalq Türk Dünyası" konfransında (2017) plenar məruzə ilə çıxış edib və xüsusi mükafata layiq görülüb. 74-cü Beynəlxalq Astronavtika Konqresinin (2023) nümayəndəsi olub. "Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)" və "Tərəqqi" medalları ilə təltif olunub.

Həyat yoldaşı Pərvin Muradova məşhur rəqqasə və xoreoqraf Əminə Dilbazi, bəstəkar Cövdət Hacıyev və şairə Mirvari Dilbazinin qohumudur. Azərbaycan Milli Konservatoriyasını bitirib, hazırda Floridada kollecin professorudur. İki övladı var: bir oğul və bir qız.

***Namiq QƏDİMOĞLU***
***XQ***

# Sosial xəbərlər

## Ötən il 999 milyon manat sosial müavinət ödənilib

**Dövlət Sosial Müdafiə Fondundan bildiriblər ki, ötən il 491 min nəfər sosial müavinətlə, 378 min nəfər Prezidentin aylıq təqaüdü ilə təmin olunub.**



Qeyd olunub ki, sosial müavinətlər üzrə 24 faiz çox olmaqla 999 milyon manat, Prezident təqaüdləri üzrə 20 faiz çox olmaqla 647 milyon manat ödənilib. Sosial ödənişlərin elektron təyinatına başlandığı 2019-cu ildən 566 min, o cümlədən ötən il 137 min müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

## 126 min şəxsə 326 min xidmət göstərilib

**Prezident İlham Əliyevin tapşırıqları əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək paketinin icrası davam etdirilir. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən XQ-yə verilən məlumatda bildirilir.**

Qeyd olunur ki, qurum tərəfindən icra olunan bu paket çərçivəsində postmüharibə dövründə şəhid ailəsi üzvləri və müharibə əlilləri, həmçinin müharibə veteranı olan 104 min şəxsə 117 min aylıq sosial ödəniş, 22,3 min şəxsə birdəfəlik ödəmə təyin olunmuşdur. Həmçinin şəhid ailələri, müharibə ilə əlaqədar əlil olanların mənzillə təminatı proqramı 5 dəfə genişlənib. Onlara 6 min mənzil və fərdi ev, eyni zamanda, müharibə əlillərinə 500-dək avtomobil təqdim edilib. Şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 11 min nəfərə 56,3 min reabilitasiya xidməti göstərilib, həmçinin 460 şəxs 481 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub. Həmin kateqoriyadan olan 20 min 600 şəxsin məşğulluğu təmin edilib, o cümlədən 10 min 400 şəxs özünüməşğulluq proqramına cəlb edilib.




Bundan başqa, vahid əlaqələndirmə mərkəzlərində həmin kateqoriyalara aid 104 min şəxs müxtəlif xidmətlərdən yararlanıb. Ümumiyyətlə, postmüharibə dövründə qeyd olunan sosial paket 126 min şəxsi əhatə edib, onlara dəstək yönümlü 326 min xidmət göstərilib.

## "Güvənli gələcəyin ən yaxşısı"

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Əmək və Məşğulluq" altsistemi (ƏMAS) Beynəlxalq Məlumat Korporasiyasının (IDC) "The IDC Future Enterprise Awards" müsabiqəsində "Güvənli gələcəyin ən yaxşısı" kateqoriyası üzrə qalib seçilib.**

Münsiflər heyəti ƏMAS barədə təqdim olunmuş məlumatları təhlil edərək bu e-sistemi rəqəmsal etibarlılıqda ən yüksək standartlara cavab verən sistem kimi qiymətləndirib. ƏMAS-ın hökumət və vətəndaş cəmiyyəti institutları, özəl sektor və vətəndaşlar üçün uğurlu bir layihə olduğu xüsusi vurğulanıb. Müsabiqə rəqəmsal strategiyalar üzrə ən yaxşı təcrübələri bölüşmək, davamlı rəqəmsal həllərin tapılmasına yardımçı olmaq, güvənli e-layihələri önə çıxarmaq məqsədi daşıyır.




Müsabiqəyə İsveç, Almaniya, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, İsveçrə və Türkiyə də daxil olmaqla bir çox ölkələrdən 600-dən çox layihə təqdim edilib, onlardan 19-u, o cümlədən ƏMAS qaliblər siyahısında yer alıb.

Xatırladaq ki, 2022-ci ildə istifadəyə verilmiş "Əmək və Məşğulluq" altsistemi ötən il BMT-nin "Cənub-Cənub" əməkdaşlığı platformasında uğurlu innovativ həllərdən biri kimi təqdim edilib. Beynəlxalq Telekommunikasiya İttifaqının "Ümumdünya İnformasiya Cəmiyyəti Sammiti Forumu – 2023"-də isə ƏMAS "Çempion layihə" seçilib.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Tibbi Sığorta Agentliyi ən müasir uroloji avadanlıqlar alıb

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ölkədəki tibb müəssisələrinin ən müasir avadanlıqlarla təchizatını daim diqqətdə saxlayır. Bu günlərdə agentlik tərəfindən böyrək və sidik axarı daşlarının müalicəsinə imkan verən yeni litotripter avadanlığı alıb. Böyrək və sidik axarı daşlarının cərrahi müdaxiləsiz parçalanmasına imkan verən üsullardan biri də ekstrakorporal zərbə-dalğa litotripsiyası adlanır. İsveçrənin Storz Medical şirkətinin istehsalı olan tibbi avadanlıq zərbə dalğasının köməyi ilə böyrəklər, sidik axarı və sidik kisəsindəki daşların parçalanmasını təmin edir. Cihazda rentgen və ultrasəs müayinə funksiyalarının mövcud olması daşın dəqiq yerini və zərbə dalğalarının istiqamətini nəzarətdə saxlamağa imkan verir. Dalğalar ətraf toxumaları zədələmədən yalnız daşlara təsir göstərir. Kiçik fraqmentlərə və quma çevrilən daşlar əksər hallarda sidik yolları ilə sərbəst xaric olur.**

Agentliyin məlumatına görə, ekstrakorporal zərbə–dalğa litotripsiyasının üstünlüklərindən biri də odur ki, prosedur ambulator şəraitdə kəsiksiz və ağrısız aparılır, xəstə həmin gün evə buraxılır. Cihazın çox funksional olması sidik-ifrazat sisteminə aid üzvlərin endoskopik müayinə və müalicəsinin həyata keçirilməsini də mümkün edir.

Ekstrakorporal litotripsiya ilə çıxarılması mümkün olmayan daşların xaric olunması üçün tətbiq edilən üsullardan biri də kontakt litotripsiya adlanır. Bu üsulla icra edilən əməliyyatdan sonra xəstə tez bir zamanda ayağa qalxıb öz gündəlik həyatına geri dönə bilir. Kontakt litotripsiya üsulu ilə uroloji əməliyyatların icrası üçün agentlik tərəfindən alətlərlə bir yerdə pnevmatik və ultrasəs litotripsiya cihazları alınıb.

Ultrasəs litotripsiya böyrək, sidik axarı və sidik kisəsindəki daşların parçalanması üçün effektiv üsul hesab olunur. Yüksək tezlikli vibrasiya nəticəsində daşlar endoskop nəzarəti altında parçalanaraq kiçik hissəciklərə və ya qum halına gətirilir. Bundan sonra onlar əməliyyat sahəsindən aspiratorla kənarlaşdırılır. Çıxarılan fraqmentlərin laborator analizi məqsədi ilə toplanması üçün cihaz xüsusi hazırlanmış steril konteynerlə təchiz olunub.

Sidik axarı daşlarının cərrahi müalicəsində tətbiq edilən effektiv minimal invaziv üsullardan biri pnevmatik litotripsiyadır. Bu növ əməliyyatlarda daşların parçalanması sıxılmış hava təsiri altında baş verir. Sidik kanalından və ya dəridən əməliyyat sahəsinə yeridilən titan zond döyəcləmə effekti ilə daşları parçalayır. Sadəliyi və mobilliyi ilə seçilən bu üsul sidik-ifrazat sisteminin bütün hissələrindəki daşların (böyrəklər, sidik axarları, sidik kisəsi) fraqmentasiyası üçün uyğun olub, istənilən sıxlıqlı daşların parçalanması üçün istifadə oluna bilər.




Yeni Klinikaya çatdırılmış tibbi avadanlıqlar artıq istifadəyə verilib.

Qeyd edək ki, icbari tibbi sığorta çərçivəsində sidik ifrazat sistemi daşlarının qeyd olunan müasir metodlarla müayinə və müalicəsi ödənişsizdir.

***Paşa ƏMİRCANOV***
***XQ***

Dostluq meridianı

# Heydər Əliyev Mərkəzində Lado Qudiaşvilinin sərgisi



**Heydər Əliyev Mərkəzində görkəmli gürcü rəssam Lado Qudiaşvilinin əsərlərindən ibarət sərgi açılıb.**

Sərgi Heydər Əliyev Mərkəzinin təşəbbüsü, Gürcüstanın Azərbaycandakı səfirliyi və Gürcüstandakı Lado Qudiaşvili Fondunun dəstəyi ilə təşkil olunub.

Tədbirdən əvvəl Lado Qudiaşvili Fondunun nümayəndəsi, rəssamın nəticəsi Elizabed Lordkipanidze jurnalistlərə müsahibəsində bildirib ki, fərdi sərgidə rəssamın Paris dövründən həyatının sonunadək yaratdığı əsərlər təqdim olunub. Burada, həmçinin onun qrafika və rəsm əsərləri nümayiş etdirilir.

Rəssamın nəticəsi Heydər Əliyev Mərkəzi və Lado Qudiaşvili Fondu arasında əməkdaşlığın böyük əhəmiyyət kəsb etdiyini, babasının Azərbaycan xalqı ilə xüsusi münasibətləri olduğunu diqqətə çatdırıb. O, sərginin belə yüksək səviyyədə təşkil olunmasına görə Heydər Əliyev Mərkəzinə minnətdarlığını bildirib.

Qeyd edilib ki, boya, qrafik sənət və səhnə tərtibatı üzrə əfsanəvi incəsənət xadiminin əsərləri Azərbaycanda ilk dəfə nümayiş etdirilir.

Tədbirdə çıxış edən Heydər Əliyev Mərkəzinin direktorunun birinci müavini Fərqan Novruzov sərgi barədə bir neçə xüsusi məqamları qonaqların diqqətinə çatdırıb. O, sərginin ərsəyə gəlməsinə görə Lado Qudiaşvili Fonduna və Gürcüstanın Azərbaycandakı Səfirliyinə təşəkkürünü ifadə edib.

Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze iki ölkə arasında hər zaman dostluq, qardaşlıq münasibətlərinin olduğunu qeyd edib. Səfir bildirib ki, Azərbaycanın və Gürcüstanın Baş nazirlərinin iştirakı ilə Tbilisidə Heydər Əliyev adına Azərbaycan Dram Teatrının təməli qoyulub. "Bu yaxınlarda Gəncə şəhərində görkəmli gürcü şairi Nikoloz Barataşvilinin xatirə lövhəsi açılıb. Həmçinin Qax rayonunun Əlibəyli kəndinin Gürcü Dövlət Dram Teatrına görkəmli gürcü yazıçısı İlya Çavçavadzenin adı verilib", - deyə Z.Pataradze əlavə edib.

Diplomat sərginin üç ay davam edəcəyini, ziyarətçilərin bu sərgidən zövq alacaqlarını vurğulayıb.

Azərbaycan Rəssamlar İttifaqının sədri Xalq rəssamı Fərhad Xəlilov Lado Qudiaşvilinin yaradıcılığından söhbət açaraq deyib ki, Lado çox kiçik yaşlardan rəsm çəkməyə başlayıb, onun sənəti indiyədək hamını heyran edir.

Lado Qudiaşvili Fondunun təsisçisi Anna Meliva Azərbaycan dövlətinə və bu sərgidə əməyi keçən hər kəsə təşəkkürünü bildirib.

Tədbir çərçivəsində Gürcüstanın Xalq artisti, əfsanəvi müğənni Nani Breqvadze çıxış edib. Bakı Xoreoqrafiya Akademiyasının məzunları qonaqlara gürcü rəqsini təqdim ediblər.

*XQ*

M.Ə.Rəsulzadə – 140

# ADR liderinin məfkurə irsi



**Görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadənin 140 illik yubileyi ilə bağlı Prezident İlham Əliyevin 30 dekabr 2023-cü il tarixli sərəncamına əsasən AMEA Mərkəzi Elmi Kitabxanası Azərbaycan Türk Ocağı ilə birgə “M.Ə. Rəsulzadə və Türk dünyası” adlı konfrans keçirib.**

Azərbaycan Türk Ocağının sədri Akif Aşırlı M.Ə.Rəsulzadənin Türk Ocaqlarındakı fəaliyyətindən bəhs edərək bildirib ki, onun fəaliyyətinin həmin dövrü lazımınca araşdırılmayıb. Şimali Kipr Türk Cumhuriyyetinin nümayəndəsi Ufuk Turqaner M.Ə.Rəsulzadə irsini yüksək qiymətləndirib: “O, Ziya Göyalpın “Türkləşmək, islamlaşmaq və müasirləşmək” düsturuna sədaqət göstərməklə bütövlükdə Türk dünyasına xidmət göstərib”.



Tarix üzrə fəlsəfə doktoru Firdovsiyyə Əhmədova, AMEA Mərkəzi Elmi Kitabxanasının direktoru Məmməd Əliyev də M.Ə. Rəsulzadə irsi barədə əhatəli çıxışlar ediblər. Milli Məclisin deputatı Arzu Nağıyev M.Ə. Rəsulzadənin 140 illiyi ilə bağlı yubiley nişanın buraxılmasını təklif edib. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri, jurnalist Yadigar Məmmədli Rəsulzadənin adının Bakı Dövlət Universitetinə qaytarılmasını arzu etdiyini söyləyib.

M.Ə. Rəsulzadənin nəvəsi, Əməkdar rəssam Rais Rəsulzadə tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib. Sonda qonaqlar “Rəsulzadə – 140” sərgisinə tamaşa ediblər. Sərgilənən dəyərli kitab, qəzet və jurnallarla tanış olublar.

*Ceyhun MİRZƏLİ*

Sənətin xilasedici gücü

# Azərbaycanlı rəssamın xarici həmkarlarına çağırışı

**Bu günlərdə çağdaş dünya rəssamlarının əsərlərindən ibarət “Dünyanı sənət xilas edəcək" adlı kitab-kataloq Uluslararası Aktivist Sənətçilər Birliyinin (UASB) təşəbbüsü ilə çapdan çıxıb. Azərbaycanda ilk dəfə bu həcmdə və formatda nəşr edilən toplunun təqdimatı bu gün Atatürk Mərkəzində keçiriləcək.**




İdeya rəhbəri rəssam Nəvai Metin (Azərbaycan), məsləhətçiləri sənətşünas Ziyatxan Əliyev (Azərbaycan), rəssam-şair Ümit Yaşar Işıkhan (Türkiyə), rəssamı İrina Averinos (İordaniya) olan kataloq-kitabda 25-dən çox ölkədən 135 ünlü rəssamın əsərləri yer alıb. Təqdimat ərəfəsində Nəvai Metinlə görüşərək söhbət etdik.

Rəssamlar İttifaqının üzvü, UASB-nin 2012-ci ildə yaradılmış Azərbaycan təmsilçiliyinin rəhbəri Nəvai Metin hələ Ağstafanın Zəlimxanlı kəndində orta məktəbdə oxuyarkən bütün siniflərin divar qəzetini hazırladığı üçün ona “Balaca rəssam” deyərmişlər. Elə ilk sərgisi də kənd məktəbində təşkil edilib.



Uluslararası Əlişir Nəvai ordeninə layiq görülmüş Nəvai Metinin Səməd Vurğun bağının yaxınlığındakı emalatxanasına girər-girməz adam sanki nağıllar aləminə düşür. Sənətçinin kolleksiyasındakı heykəltəraşlıq və rəsm əsərlərinin hər birinin öz cazibəsi var. Bildiyim qədərincə, 1988-ci ildə – milli azadlıq hərəkatı təzəcə başlanan vaxtlar çəkdiyi “Məhəmməd Hüseyn Şəhriyar” portreti böyük əks-səda doğurmuş və mətbuatda bu əsər haqqında xoş sözlər yazılmışdı. Çərçivədən baxan şairin obrazı sanki adamla danışır, şeir deyir:

**Yatmış hamı, bir Allah oyaqdı, dəxi bir mən,**
**Məndən aşağı kimsə yox, ondan da yuxarı.**

Nəvai Metin portretə zəndlə baxdığımı görüb, “Bunu şah əsərim sayıram”, – dedi.

Onun rəsmlərinin mövzusu çoxşaxəlidir. Amma daha çox portret janrına, bir də naturadan təbiət təsvirlərinə üstünlük verdiyi göz qabağındadır. “Göyəzən” adlı peyzajında ecazkar bir mənzərə ruh oxşayır. Nəvai Metinin “Göyəzən”i Səməd Vurğunun şeirində olduğu kimi vüqarlıdır.

Rəssamın əsərləri dəfələrlə xaricdə sərgilənib və maraq doğurub. Bir çox rəsmi Amerika, Polşa, İsveçrə, Türkiyə, Rumıniya, Qazaxıstan incəsənət həvəskarlarının kolleksiyalarına daxildir. Bir qayda olaraq, əsərləri ilə heyrət yarada bilən rəssam istedadlı gənclərə güclü dəstək verir, pərvəriş tapıb tanınmalarına kömək edir. Əməkdar rəssam, Prezidentin fərdi təqaüdçüsü Rais Rəsulzadəni isə öz ustadı sayır. Rais müəllim dövlət başçımızın bu yaxınlarda 140 illiyinin keçirilməsi haqqında sərəncam imzaladığı görkəmli ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin nəvəsidir.

**Azərbaycan və Türkiyənin mədəni mühitində, sənət dünyasında daha geniş tanınan Nəvai müəllim xarici səfərləri, ayrı-ayrı ölkələrlə bağlı təəssüratları haqqında sualıma maraqlı cavab verdi:**

– Ümumiyyətlə, bu gün dünyada incəsənət arxa plana keçib. Mənəviyyat maddiyyata məğlub olur. Amma sənət yaşayır, mübarizə aparır. Azərbaycan dövləti daim mədəniyyətə, incəsənətə diqqət və qayğı göstərir. Sadəcə, adamlar bu dəyərləri bəzən arxa plana keçirirlər. Sərgilərə az adam gəlir. Bu yöndə təbliğatı gücləndirmək lazımdır.

**– Nəvai müəllim, yəqin ki, Azərbaycan təmsilçisi olduğunuz UASB də elə bu məramla yaradılıb.**

– Doğrudur, – dedi. – Dünya bir ev kimidir. Döşəməsi torpaq, tavanı səmadır. İnsanlar bunu belə qəbul eləməlidirlər ki, dünyanı qoruya bilək. Dünyanı qoruyan insan kamil insandır. O heç vaxt evinin dağılmasını istəməz. Əksinə, abadlaşması üçün əlindən gələni edər. Buna nail olmaq üçün biz birliyimizi yaradanda “Dünya rəssamları, birləşin!” devizini əsas götürmüşük. Bu baxımdan düşünürəm ki, mədəniyyət adamları daha fəal, daha fədakar olmalıdırlar. Sənət bir qızıl yatağı kimidir, axtaran çox olar, amma az adam tapar. Cəmiyyətdə çox gözəgörünməzləri tapan, layiqincə dəyərləndirən məhz mədəniyyət adamlarıdır. Mədəniyyət adamlarının arasında isə rəssamlar xüsusilə seçilirlər. Bu gün bu qarışıq dünyamızın əmin-amanlığa qovuşması üçün yeni üsullara ehtiyac duyulmaqdadır. Belə ki, siyasi masalardan qalxıb daha çox mənəvi zənginlikləri özündə birləşdirən mədəniyyəti, incəsənəti inkişaf etdirməyin zamanıdır . Ona görə dünya mədəniyyət və incəsənət adamlarının birliyini bərpa etmək lazımdır.

**– Hansı yollarla?**

– İlk növbədə Azərbaycan sənət adamlarının dünyanın fərqli dövlətlərində sərgilərini, konsertlərini təşkil etməklə, həmçinin dünya sənətçilərinin Azərbaycana sıx-sıx dəvət olunmasına, burada onlarla canlı ünsiyyətlərə rəvac verməklə. Belədə dünyada əmin-amanlığın bərpasına yardım etmiş olarıq. Bu birləşmə cəhdlərinin müsbət alınması üçün bütün tərəflər şəxsi ambisiyalarını kənara qoymalı, dünya dövlətlərinin sənətinin, mədəniyyətinin inkişafına xidmət etməlidir. Təsadüfi deyil ki, yenicə yaratdığımız birliyin adı Aktivist Rəssamlar Assosiyasiyası, başlıca şüarımız isə “Dünyanı sənət xilas edəcək”dir. Sənəti təbliğ və təşviq etmək əsas amalımızdır.

**– Dünyanı sənətin xilas edəcəyinə inandınız və bu yola çıxdınız, eləmi?**

– Bəli. İnanıram ki, gedəcəyimiz bu uzun yolda çox sənət adamları bizə qoşulacaq və dünyanın xilasına öz töhfələrini verəcəklər. İncəsənət yalnız böyük ideyalara söykənəndə daha təsirli olur.

Gəlin, bütün maneələrə qalib gələrək böyük ideyalar uğrunda birləşək, dünyanın nicatının bu nöqtədə olduğuna inanaq və əlimizdən gələni edək. Yoxsa bir mahnıda deyildiyi kimi: “Yoxsa dünya məhv olar”. Bəşər övladı sənətə diqqətini artırmalıdır. Hər kəs özünə sual verməlidir: Mən bu yolda nə etmişəm? Sonuncu dəfə hansı tamaşaya getmişəm, evimdə bir rəssamın əl işi varmı, tanıdığım incəsənət adamı varmı? Biz bu platformadan çıxış edərək, təkcə rəssamların deyil, dünyadakı bütün sənət adamlarının birliyini yaratmaq, onları bir araya gətirmək istəyirdiyik.

Heç yadımdan çıxmır, tədbirlərin birində İsraildən olan bir sənətçinin Fələstindən gələn sənətçi ilə qucaqlaşmasının şahidi olduq. Buna nail olmağı bacaran qurucu başkanımız Ümit Yaşar Işıkhanı ancaq alqışlamaq lazımdır. Bəli, yetər artıq, yetər bu qədər qırğınlar, savaşlar, soyqırımları, torpaq hərisliyi. İnsanlar gərək bir az ayılsınlar, faciəvi tamaşanın oyunçusu olmaqdan qurtarsınlar.

**– Bir neçə kəlmə də təqdimatı keçiriləm yeni kitab-kataloq barədə...**

– Bizim ərsəyə gətirdiyimiz bu kitab-kataloqun da məqsədi bəllidir. Rəssamlar cəmiyyətdə seçilən adamlar olduqlarına görə, qoy, sülh elçiləri kimi digərlərinə nümunə göstərsinlər. Sənət adamlarının biri-birini sevmələri, təmənnasız qarşılıqlı ehtiram göstərmələri digər sahələrin, lap elə sadə vətəndaşların insanlarına örnək olmalıdır.

**– Yəqin ki, mərasimin məhz Atatürk mərkəzində təşkilinin də rəmzi mənası var...**

– Əlbəttə. Bildiyimiz kimi, məşhur “Yurdda sülh, cahanda barış!” şüarını ilk dəfə 1931-ci ildə Anadolu səfəri zamanı cəmiyyət qarşısında Türkiyə Cümhuriyyətinin qurucusu və ilk prezidenti, dövlət xadimi, marşal Mustafa Kamal Atatürk səsləndirib. Dediyim kimi, bizim də istədiyimiz elə budur. UASB-nin sloqanlarının biri də "Barışa qanad olaq”dır.

*Əli NƏCƏFXANLI*
*XQ*

Xəbər ardınca

**...Onun haqqında demək olar ki, bütün sosial şəbəkələrdə yazılıb. Yazılıb ki, Zaqatala rayon sakini Rauf Ramazanov 17 ildir ki, məktəbə atla gedib-gəlir. Açığı, iş yoldaşım Əli Nəcəfxanlı mənə bunu deyəndə təəccübləndim və qərara gəldim ki, Zaqatalaya bu səfərimdə Raufla mütləq görüşüb tanış olum, qayğıları ilə maraqlanım.**



# Atgedən yollarla üzü dağlara...

Odur ki, Şəki–Zaqatala Regional Təhsil İdarəsinin Zaqatala üzrə sektorunun müdiri Kəmalə xanım Əhmədova ilə əlaqə saxlayıb Raufu soruşanda “Elədir ki, var, – dedi, – mən deyərəm, sizinlə əlaqə saxlayar”.

Aradan heç yarım saat keçməmiş Rauf Ramazanov zəng vurur. Vədələşirik. Danışırıq ki, sabah görüşək və məktəbə birlikdə gedək. “Ora axı siz nəylə gedəcəksiniz? Yə gərək at ola, ya da...” Sözünü kəsirəm: “Bəlkə bir at da mənə tapasan”. Cavabı qısa olur: “Olar”.

Səhərin açılmasını səbirsizliklə gözləyirəm. Qışın bu oğlan çağında Zaqatalanın havasının necə şaxtalı olmasını bir anlığa təsvvür edin. Soyuq iliyə işləyir. Düşünürəm ki, mən vədələşdiyimiz yerə Raufdan tez gəlmişəm. Elə bu vaxt şəkillərdən tanıdığım Rauf və bir dostu at belində uzaqdan görünürlər. Atlardan düşürlər. Tanış oluruq.

– Dostumdur, – deyir, – Səfər Baharov da bizim kənddəndir, Yuxarı Çardaxlardan. Təsərrüfat adamıdır. Xahiş elədim ki, atını bizə müvəqqəti kirayəyə versin.

Üzümüzə təbəssüm qonur. Sonra Rauf müəllim uzaqdan boy göstərən qülləni göstərir:

– Bax, o qüllənin yanına gedəcəyik. Ora Sabunçu kəndidir. Əvvəllər köhnə məktəbi vardı. 2012-ci ildə yenisini tikiblər. Hər cür şəraiti var. Özünüz görəcəksiniz.

...Bax, beləcə, mən də Səfərin atına minirəm. Birlikdə gah Sabunçu çayının qırağı ilə, gah də içi ilə kəndə doğru gedirik. Yol boyu söhbət edirik. Daha yaxından tanış oluruq.

Rauf müəllim deyir ki, 2007-ci ildə Şəki Pedaqoji məktəbini bitirib. Təyinatla bu məktəbə idman müəllimi göndərilib. O vaxtdan burada işləyir. Hər həftənin 2 günü dərsi olur. O, 2 uşaq atasıdır. Qızı 6-cı, oğlu isə 3-cü sinifdə oxuyur.

– Mən özüm Yuxarı Çardaxlar kəndindənəm, – deyir. – İnanın ki, bu yolu gedib-gəlmək mənə xüsusi ləzzət verir. Görürsünüz də, nə gözəl hava var. Təztez dərindən nəfəs alın. Adam yüngülləşir. Düzdür, dəfələrlə təhlükə ilə üzləşmişəm. Sürətlə axan çay hətta atı yıxıb da... Qarşıma canavar da çıxıb. Amma yenə də çəkinməmişəm. Gəlib məndən müsahibə alanlara da belə demişəm və bir də xahişim o olub ki, heç nəyi şişirtməsinlər, nə var, onu yazsınlar. Hələ eləsi olub ki, nəinki kəndin, hətta mənim öz adımı belə səhv yazıb.

Nəhayət, gəlib məktəbə çatdıq. Şagirdlər müəllimlərini sevinclə qarşıladılar. Mən bir daha müəllim-şagird mehribanlığının və səmimiyyətinin şahidi oldum.

**Dərs qurtarandan sonra geri qayıdırıq. Rauf Ramazanov dillənir:**

– Sizdən nə gizlədim. Bəzən axşam oturub fikirləşmişəm ki, səhər gedib müraciət edəcəyəm, deyəcəyəm ki, yorulmuşam. Bəlkə, mənim yerimi öz kəndimizə dəyişəsiniz? Amma səhər fikrimdən çəkinmişəm. Dərs dediyim uşaqların mehriban çöhrəsi gəlib durub gözümün qarşısında. Getməmişəm. Elə bilmişəm ki, o uşaqlara xəyanət etmiş olaram.

*İlqar HƏSƏNOV,*
*“XQ”nin bölgə müxbiri*
Zaqatala

# Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

## QƏRAR
## № 3-27/3-7-15/2023

**Bakı şəhəri 7 noyabr 2023-cü il**

Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 2016-cı il 16 may tarixli 18/Q nömrəli qərarı ilə təsdiq edilmiş "Taksi minik avtomobillərinin sürücüləri üçün etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlığın keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 2016-cı il 16 may tarixli 18/Q nömrəli qərarı ilə təsdiq edilmiş "Taksi minik avtomobillərinin sürücüləri üçün etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlığın keçirilməsi Qaydası"nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).

**2.** Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**3.** Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri,**
**rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev**

**Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2023-cü il 7 noyabr tarixli 3-27/3-7-15/2023 nömrəli qərarı ilə təsdiq edilmişdir.**

Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 2016-cı il 16 may tarixli 18/Q nömrəli qərarı ilə təsdiq edilmiş "Taksi minik avtomobillərinin sürücüləri üçün etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlığın keçirilməsi Qaydası"nda edilmiş dəyişikliklər:

**1.** Adında "Qaydası" sözü "qaydası, proqramı və müddəti" sözləri ilə əvəz edilsin;

**2.** 3-cü hissədə "Qaydaya əlavə olunan" sözləri "Qaydanın 1 nömrəli Əlavəsində göstərilən" sözləri ilə əvəz edilsin;

**3.** 4-cü hissə aşağıdakı redaksiyada verilsin;

**4.** Xüsusi hazırlığın təşkili və keçirilməsi Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Azərbaycan Yerüstü Nəqliyyat Agentliyində, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələrində təhsil alanlara münasibətdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin müəyyən etdiyi peşə təhsili müəssisələrində, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, təhsil müəssisələri tərəfindən müqavilə bağlanılmaqla təmin edilir.";

4. 5-ci hissə aşağıdakı redaksiyada verilsin:

"5. Xüsusi hazırlıq prosesinin yüksək keyfiyyətini təmin etmək məqsədilə qruplar 25 nəfərdən çox və 10 nəfərdən az olmayan sayda formalaşdırılır. Xüsusi hazırlığın ümumi müddəti mühazirələr (18 saat) və praktiki məşğələlər (6 saat) ilə birlikdə 24 saat təşkil edir və bir sutka ərzində 6 saatdan artıq olmamaqla keçirilir.";

**5.** 6-cı hissədə ", təlim meydançasında və simulyator (avtotrenajor) otaqlarında" sözləri "və təlim meydançasında" sözləri ilə əvəz edilsin;

**6.** 7-ci hissə aşağıdakı redaksiyada verilsin:

"7. Proqramın tədrisində Azərbaycan Respublikasının Vergi Məcəlləsinin, "Avtomobil nəqliyyatı haqqında" və "Sosial sığorta haqqında" qanunlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli Qərarı ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nın taksi minik avtomobili ilə sərnişin daşımalarına, o cümlədən taksi minik avtomobili sürücülərinin və sərnişinlərin hüquqlarına, vəzifələrinə, sərnişin daşımalarının təhlükəsizliyinin təmin olunmasına dair müvafiq müddəalarından, habelə yol hərəkəti qaydalarını özündə əks etdirən materiallardan istifadə olunur.";

**7.** 8-ci hissə aşağıdakı redaksiyada verilsin:

"8. Xüsusi hazırlıq zamanı taksi minik avtomobili sürücülərinə bu Qaydanın 1 nömrəli Əlavəsində göstərilən mövzular üzrə məlumat verilir və praktiki vərdişlərin təkmilləşdirilməsi məqsədilə Proqramda nəzərdə tutulmuş sürmə təlimi keçirilir.";

**8.** 9-10-cu hissələr ləğv edilsin;

**9.** Aşağıdakı məzmunda 13-1-13-6-cı hissələr əlavə edilsin:

"13-1. Sürücülər xüsusi hazırlıq üzrə dərslərdə iştirak etmək üçün aşağıdakı sənədləri bu Qaydanın 4-cü hissəsində göstərilən qurumlara təqdim etməlidirlər:

13-1.1. şəxsiyyəti təsdiq edən sənədin surəti;

13-1.2. bir ədəd fotoşəkil (3x4 sm ölçüsündə);

13-1.3. sürücülük vəsiqəsinin surəti.

13-2. Xüsusi hazırlığı keçirən qurumlar tərəfindən bu Qaydanın 13-1-ci hissəsində qeyd edilən sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər sürücülərdən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi sürücülərin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya sürücülər tərəfindən təmin edilir.

13-3. Xüsusi hazırlıqda iştirak etmək üçün müraciət etmiş və bu Qaydanın 13-1-ci hissəsində göstərilən sənədləri təqdim etmiş sürücülərə hazırlığın başlanılmasına azı 5 (beş) gün qalmış bu barədə məlumat verilir.

13-4. Xüsusi hazırlıq üzrə mühazirələr bu Qaydanın 13-5-ci hissəsinin tələbi nəzərə alınmaqla, əyani formada keçirilir.

13-5. Xüsusi hazırlıq üzrə mühazirələr sürücülərin müraciət etdiyi halda, habelə fors-major hallarda həmin mühazirələri keçirən bu Qaydanın 4-cü hissəsində göstərilən qurumların qərarı əsasında distant formada və ya əyani və distant formanın birgə tətbiqi ilə keçirilə bilər.

13-6. Xüsusi hazırlıq zamanı şəxslər kağız və (və ya) elektron daşıyıcılarda hazırlıq materialları ilə təmin olunurlar.";

**10.** Qaydaya Əlavə - "Taksi minik avtomobillərinin sürücüləri üçün etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlıq keçmələri üzrə Proqram" aşağıdakı redaksiyada verilsin:

**"Taksi minik avtomobillərinin sürücüləri üçün etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlığın keçirilməsi Qaydası"na 1 nömrəli əlavə Taksi minik avtomobillərinin sürücüləri üçün etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlıq keçmələri üzrə**

**P R O Q R A M**

| Sıra № | Mövzuların adları | Dərslərin növləri və həcmi (saat) | | |
|---|---|---|---|---|
| | | Cəmi (saat) | Nəzəri (saat) | Praktiki (saat) |
| **1.** | **Azərbaycan Respublikasının sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktları haqqında ümumi məlumat:**<br>- "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanunu;<br>- Azərbaycan Respublikasının Vergi Məcəlləsi (sadələşdirilmiş verginin ödənilməsinə münasibətdə);<br>- "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu (məcburi sosial sığorta haqlarının ödənilməsinə münasibətdə);<br>- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli Qərarı ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması qaydaları". | 2 | 2 | |
| **2.** | **Taksi minik avtomobillərinə və onların istismarına dair tələblər:**<br>- taksi minik avtomobilinin istismarına dair normativ hüquqi aktların tələbləri;<br>- taksi minik avtomobilinin tanınma nişanları və təchizatı;<br>- taksi minik avtomobilinin texniki vəziyyətinə nəzarət və texniki qulluq;<br>- taksi fəaliyyətində tətbiq edilən müasir texnologiyalar, proqram təminatları və onlardan istifadə. | 4 | 4 | |
| **3.** | **Taksi minik avtomobili** sürücülərinə dair tələblər:<br>- taksi minik avtomobili sürücülərinə dair ümumi tələblər;<br>- sürücünün iş və istirahət rejimi normalarına riayət olunması;<br>- taksi minik avtomobili sürücülərinin və sərnişinlərin hüquq və vəzifələri;<br>- sürücülərin xarici görünüşü və geyim forması. | 2 | 2 | |
| **4.** | **Taksi minik avtomobilləri ilə sərnişin daşınmasında hərəkətin təhlükəsizliyinin təmin olunması:**<br>- taksi minik avtomobilinin idarə olunmasını çətinləşdirən və hərəkətin təhlükəsizliyinə təsir edən amillər;<br>- çətin keçilən sahələrdə, mürəkkəb, eləcə də hərəkət üçün ciddi təhlükə yaradan yol şəraitində, uzun sürən tıxaclarda, fors-major hallarda (təbii fəlakətlər, əlverişsiz hava şəraiti, o cümlədən qar, çovğun, yağış-leysan və s.) taksi minik avtomobilinin düzgün idarə olunması;<br>- yol-nəqliyyat hadisəsinin qarşısının alınması üçün qabaqlayıcı tədbirlər;<br>- taksi minik avtomobilinin sutkanın qaranlıq vaxtında və məhdud görünmə şəraitində idarə edilməsi;<br>- taksi minik avtomobilinin təhlükəsiz idarə olunması. | 2 | 2 | |
| **5.** | **Taksi minik avtomobilləri ilə sərnişinlərin daşınması:**<br>- taksi minik avtomobilinin sifarişçilərə təqdim olunması;<br>- taksi minik avtomobillərinin duracaq yerlərindən düzgün istifadə edilməsi;<br>- daşınması qadağan olunan əşyalar;<br>- sərnişinlərlə ödənişlərə dair hesablaşma;<br>- taksi minik avtomobili ilə sərnişin daşımalarının yerinə yetirilməsinə dövlət nəzarəti. | 2 | 2 | |
| **6.** | **Taksi minik avtomobili sürücülərinin etik davranışı:**<br>- sürücünün davranışının təhlili və davranışına təsir edən faktorlar;<br>- sərnişinlərlə etik davranış və mədəni rəftar;<br>- empatiya və ünsiyyət;<br>- münaqişəli vəziyyətlərin və stressin idarə edilməsi;<br>- taksi minik avtomobilində tütün çəkilməsinin və qida qəbul edilməsinin yolverilməzliyi;<br>- peşəkarlıq və fərdi məsuliyyət;<br>- əlilliyi olan şəxslərlə davranışı. | 4 | 4 | |
| **7.** | İlk tibbi yardım:<br>- ilk tibbi yardım barədə ümumi məlumat (ilk tibbi yardım qutusunun tərkibi və oradakı tibbi ləvazimatlardan, dərman vasitələrindən istifadə);<br>- yol-nəqliyyat hadisəsi baş verdikdə xəsarət alanlara ilk tibbi yardım göstərilməsinin ardıcıllığı;<br>- travmalarda ilk yardım, travmatik şoka qarşı tədbirlər. | 2 | 2 | |
| **8.** | **Taksi minik avtomobilində sürmə təlimi**<br>- hərəkətə başlama, manevretmə və avtomobillərin yolun hərəkət hissəsində yerləşdirilməsi qaydalarına uyğun idarəetmə;<br>- taksi minik avtomobilində sərnişinlərin rahatlığını və təhlükəsizliyini təmin edən idarəetmə üsulları;<br>- mürəkkəb yol şəraitində, eləcə də hərəkətin intensiv olduğu yollarda və sutkanın qaranlıq vaxtı taksi minik avtomobilinin idarə edilməsi. | 6 | | 6 |
| | **CƏMİ** | **24** | **18** | **6** |

## BEYNƏLXALQ HƏYAT

# "Qiyamçı" mühafizəkarlar baş naziri yıxa biləcəklərmi?

## "Dumanlı Albion"da bir çox nazir buna inanmır

**Böyük Britaniyada hakim Mühafizəkarlar Partiyasının bir hissəsi müxalifətin populyarlığının artması fonunda hakimiyyətdə qalmaq məqsədilə parlament seçkilərinə qədər ölkənin Baş naziri Rişi Sunakın istefasına nail olmaq niyyətindədir. Bu haqda Britaniyanın populyar "The Times" qəzeti sensasiyalı xəbər yayıb.**



Qəzet yazır: " Qiyamçı qrup Londonun mərkəzində yerləşir. Deyilənlərə görə, onlar mühafizəkarlardan olan 10 deputatla işləyirlər və Sunakı vəzifədən kənarlaşdırmağı planlaşdırırlar". Bu qrupa ölkənin keçmiş daxili işlər naziri Suella Braverman da daxildir. Qəzetə informasiya sızdıran mənbənin məlumatına görə, Braverman həmçinin yeni baş nazirin seçilməsinə zərurət olduğuna qəti əminliyini də bildirib.

Sunakın əleyhinə olanlar qəti əmindirlər ki, mayda mühafizəkarları yerli seçkilərdə bir sıra fəlakətli nəticələr gözləyir. Bu səbəbdən onlar istəyirlər ki, 3 ay müddətində Mühafizəkarlar Partiyasından kifayət sayda parlamentarilərin dəstəyini əldə edəndən sonra, partiyadaxili mübarizəyə başlasınlar. Buna baxmayaraq, hökumətin bir çox üzvləri "qiyamçılar"ın Sunak üzərində qələbə çalacaqlarına inanmırlar.

Yeri gəlmişkən, ötən ilin dekabrında "YouGov" şirkətinin 14 min respondent arasında apardığı rəy sorğusunun nəticələrinə görə, Britaniya Baş nazirinin reytinqinin rekord həddə aşağı düşdüyü qeydə alınıb. Sunaka olan inam bir ay ərzində 10 bənd azalıb. Sorğu iştirakçılarının 73 faizi Sunak haqqında neqativ fikir bildirib, bununla yanaşı, həmin dövrdə respondentlərin 21 faizinin onun haqqında müsbət fikirdə olmaları məlum olub. Sorğular həmçinin göstərib ki, hökumətin 2024-cü ilin ikinci yarısına planlaşdırdığı parlament seçkilərində mühafizəkarlar 200 deputat mandatını itirmək riski ilə üzləşəcəklər. Hazırkı Sunak hökumətinin 11 naziri parlamentdəki yerini itirə bilər. Onların arasında maliyyə naziri Ceremi Xant da var.

Rişi Sunakın keçmiş müşaviri, partiyadakı həmkarlarından Baş nazirin əleyhinə çıxış edən qrup yaratmaqla məşğul olan Uilli Draya "The Times" nəşrinə verdiyi müsahibədə deyib: "Aydın olur ki, biz, qarşımızda duran çağırışların dəf edilməsini tələb edən ciddi və qəti addımlar atmırıq. Düşünürəm ki, mühafizəkarlar maksimum dağıdıcı məğlubiyyətə doğru getməkdədirlər. Heç şübhə yoxdur ki, qarşıda bizi leyboristlərin onilliklərlə idarəetməsi gözləyir".

"Qiyamçı" mühafizəkarlar güclü şəkildə səfərbər olunurlar və fikirlərində qətidirlər. Onlar Sunakın miqrasiya siyasətinin qeyri-qanuni miqrantlara qarşı kifayət qədər sərt olmadığını nəzərə alaraq, onun siyasətindən məyus olduqlarını bildirirlər. Baş naziri vəzifədən kənarlaşdırmaq üçün onlara Mühafizəkarlar Rartiyasından olan 53 deputatın səsi lazımdır.

"Politico" nəşrinin keçirdiyi rəy sorğusunda da Mühafizəkarlar Partiyasının reytinqinin son vaxtlar sürətlə aşağa düşdüyü göstərilir. Rəyi soruşulanların 26 faizinin mühafizəkarlara səs verdiyi bir vaxtda, Leyboristlər Partiyası 44 faiz səs qazanıb. Belə davam edərsə, Mühafizəkarlar Partiyasını 1997-ci ildən bugünədək ən böyük məğlubiyyət gözləyə bilər.

Buna qədər bəzi mənbələrin yaydığı məlumatlardan aydın olub ki, Britaniya mühafizəkarları 2024-cü ildə keçiriləcək prezident seçkilərində qalib gələcəyi ehtimalı gündən-günə güclənən ABŞ-ın keçmiş prezidentı Donald Trampa böyük rəğbət bəsləyirlər.

Britaniya Nazirlər Kabinetinin keçmiş üzvü Saymon Klark bildirib ki, Sunakın istefaya getməsi zəruridir. Onun fikrinə görə, Baş nazir onun ölkəsinə nə lazım olduğunu bilmir. Ona görə də Mühafizəkarlar Partiyası öz lideri və ölkənin Baş naziri Rişi Sunakın istefaya getməsinə nail olmalıdır.

Böyük Britaniyanın məşhur "The Daily Telegraph" qəzetində dərc edilmiş məqalədə mühafizəkar deputat, 2019-2022-ci illərdə maliyyə və krallığın regional inkişaf və mənzil tikintisi nazirliklərinin müavini vəzifələrində çalışan Saymon Klark yazıb: "Bizim aydın seçimimiz var. Biz Rişini dəstəkləyə və solçulara Britaniyanı öz istədikləri kimi dəyişdirməyə kart-blanş verə bilərik. Yaxud da liderimizi dəyişib, ölkəyə və partiyaya öz gələcəyi uğrunda mübarizə aparmağa şans verməliyik".

Klark məqalədə sonra yazır ki, Sunakın intellekt, təmizlik, yüksək işgüzarlıq kimi bütün üstün keyfiyyətlərinə rəğmən, baş nazirin iki təhlükəli çatışmazlığı var. "O başa düşmür ki, Britaniyaya nə lazımdır və nə istədiklərini hayqıran britaniyalıların səsini eşitmir", – deyə deputat qeyd edir. Klark hesab edir ki, hökumətin miqrasiya siyasəti sərt, iqtisadi siyasəti isə qətiyyətli və radikal olmalıdır.

Bu ərəfədə Avropa ölkələrində keçirilən sorğuların nəticələrini təhlil edən və seçkilərlə bağlı ictimai rəyi öyrənən "Europe Elects" analitik mərkəzinin dərc etdiyi material da Britaniyada gerçək siyasi mənzərəni ortaya qoyub. Qurum qeyd edir ki, Britaniyada keçirilən son sorğular leyboristlərin total üstünlüyünü göstərir. Belə ki, onlar Mühafizəkarlar Partiyasını 23-25 faiz qabaqlayırlar.

Ortaya sual çıxır ki, 26 illik liderlikdən sonra Mühafizəkarlar Partiyasını və onun hökumətini gözdən salan nədir? Birincisi, onu diqqətə çatdırırlar ki, 8 il sonra seçicilər Britaniyanın Avropa İttifaqından (Aİ) çıxmasını neqativ qiymətləndirirlər. "WeThink" təşkilatının bununla bağlı keçirdiyi sorğuya görə, respondentlərin 61 faizi Birləşmiş Krallığın Aİ-yə qayıtmasını dəstəkləyib, ancaq bir şərtlə ki, Londona əvvəlki kimi xüsusi imtiyazlar verilsin. Təəccüblüdür ki, hətta rəyi soruşulanların 39 faizi avronun əsas valyuta kimi qəbul edilməsini dəstəkləyiblər. Bu kifayət qədər ciddi rəqəmdir. Aİ-yə daxil olacaqları təqdirdə funt sterlinqin saxlanmasını isə yalnız 40 faiz insan dəstəkləyib.

İkincisi, heç nəyə baxmadan insanlar ölkədə əsaslı dəyişikliklər edilməsini istəyirlər. Rəy sorğularına əsasən, leyboristlərin potensial seçicilərinin 41 faizi Leyboristlər Partiyasına deyil, 14 ildən artıq hakimiyyətdə olan Mühafizəkarlar Partiyasının əleyhinə səs verməyi planlaşdırırlar.

Bu da ondan irəli gəlir ki, leyboristlər həyatın nəbzini tuta bilirlər. "Tektonik yerdəyişmələr" həm siyasi, həm də sosial aspektlərdə baş verir. Məsələn, Fələstinin birmənalı olaraq tanınması, səhiyyəni və ekologiyanı maliyyələşdirmək addımları bu aspektlərdəndir.

Ən başlıcası isə, lap kobud səslənsə də, mühafizəkarlar sadəcə insanları bezdiriblər və ona görə də leyboristlərin fəaliyyət planının mühafizəkarlardan elə də fərqlənməməsi belə seçiciləri elə də maraqlandırmır.

Britaniyada parlament seçkiləri elə də uzaqda deyil. Bu günlərdə Baş nazir Rişi Sunak bəyan etmişdi ki, krallıqda seçkilər bu ilin ikinci yarısında keçiriləcək və onun bəyan etdiyi kimi seçkilərin ilin ikinci yarısına keçirilməsi "işçi qənaətdir", mövcud müddət "çoxlu məsələlərin həllinə" imkan verəcək. Sunak bu müddətdə özünün və partiyasının nüfuzunu qaldırmaq üçün "əhalinin vergilərinin aşağı salınmasına" və daha çox tənqidə məruz qaldığı "qeyri-leqal miqrasiya ilə mübarizəyə" diqqət yetirməyə çalışacaq.

Seçkilər isə 2025-ci ilin yanvarına qədər mütləq keçirilməlidir. Ehtimal olunan ən real tarix 2024-cü ilin may ayıdır. Amma Sunakın bəyan etdiyinə baxmayaraq, baş nazir səsverməni ilin sonuna çəkməyə çalışacaq ki, seçicilərin mühafizəkarlara etmadını, az da olsa, bərpa edə bilsin. Buna necə nail olacaq, "qiyamçılar" imkan verəcəkmi? Bunu zaman göstərəcək.

**İlqar RÜSTƏMOV**
**XQ**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 16 (30420) 26 yanvar 2024-cü il, cümə

# Bakıda yeni idman qurğuları

**Bakıda "Dreamland" kompleksində yeni idman fitnes mərkəzləri - "Dream Trampoline"in və "Dream Body Athletic Club & Spa" istifadəyə verilib.**



Gənclər və idman naziri Fərid Qayıbov mərkəzin açılış mərasimində iştirak edib. Açılışda mərkəzin xidmətləri və idmançılar üçün yaradılmış şərait barədə məlumat verilib, burada quraşdırılmış müasir idman avadanlıqlarının üstünlükləri nümayiş etdirilib.

# "Neftçi" və "Sabah" cərimələnib

**AFFA (Azərbaycan Futbol Federasiyaları Assosiasiyası) İntizam Komitəsi "Neftçi" və "Sabah" klublarını cərimələyib.**




Belə ki, Azərbaycan Premyer Liqasının XIX turunda komandalar arasında keçirilən oyundakı neqativ hallara görə, "ağ-qaralar" 2 min 200, "bayquşlar" isə 800 manat ödəməli olacaqlar. "Neftçi"nin 4 futbolçusu sarı vərəqə aldığı üçün 700 manat, azarkeşləri tərəfindən pirotexniki vasitədən istifadə edildiyi üçün isə 1500 manat ziyana düşüblər. "Bank Respublika Arena"dakı qarşılaşma başa çatdıqdan sonra meydana kənar şəxslərin daxil olması səbəbindən "Sabah" 800 manat ödəyəcək.

# Badmintonçumuz ən güclü "dördlük"də

**Azərbaycan badmintonçusu Keişa Fatimə Zəhra İsveçin Uppsala şəhərində keçirilən "VICTOR Swedish Open" turnirində qadınların şəxsi yarışında ən güclü "dördlük"də yer alıb.**




Mübarizəyə əsas mərhələdən başlayan idmançı ilk görüşündə isveçli Sesilia Vanqı 2:0 hesabı ilə məğlub edib.

1/8 finalda şotlandiyalı Reyçel Suqdeni (21-9, 21-17) mübarizədən kənarlaşdıran Zəhra 1/4 finalda Danimarka badmintonçusu Frederikke Lundla qarşılaşıb. Üç set davam edən görüş K.Fatimənin (18-21, 21-13, 21-11) qələbəsi ilə başa çatıb. O, finala yüksəlmək uğrunda keçirilən görüşdə fransalı Leonis Hyueyə (13-21, 14-21) uduzub.

Olimpiya Təsnifat dövründə keçirilən yarışdan Keişa Fatimə Zəhranın qazancı 1750 reytinq xalı olub.

*Leyla SABİRQIZI*
*XQ*

# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

## *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*




**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

# "Google Chrome"da süni zəka dəstəyi

**"Google" proqramçıları "Chrome" brauzerinə süni intellekt dəstəyi əlavə ediblər. Rusiya mediası xəbər verir ki, bu barədə layihənin bloqunda məlumat verilib.**



"Windows" və "macOS"da görünəcək yeniliklər istifadəçilərə brauzer nişanlarını avtomatik olaraq qruplara ayırmağa imkan verəcək. Süni intellekt nişanlar olan qovluqlar yarada biləcək.

Adıçəkilən proqramlarda süni intellekt vasitəsilə çeşidli mövzular yaratmaq mümkün olacaq. Süni intellekt istifadəçi istəkləri əsasında ekrandakı fonları dəyişəcək.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

**Ədəbi ehtiramlar**

# Yusif Vəzirin Mirzə Cəlil sevgisi

**Böyük Azərbaycan yazıçısı Yusif Vəzir Çəmənzəminlinin ulu babası Mirzə Əliməmməd Ağa XVIII əsr Qarabağ hökmdarı İbrahimxəlil xanın veziri olmuşdur. Ədib Çəmənzəminli təxəllüsünü isə hələ uşaq ikən Cənubi Azərbaycanın Çəmənzəmin kəndindən olan sədaqətli dostlarının şəninə götürüb. Yazıçı-naşir Mustafa Çəmənli bu dəfə oxuculara Yusif Vəzirin digər böyük ədibimiz Mirzə Cəlil haqqında qələmə aldığı 2 kiçik xatirəsini təqdim edib.**

### "Molla Nəsrəddin" kefimi açdı

1906-cı ildə Şuşada ağır və uzun bir xəstəlik keçirmişdim. Bir gün Haşım bəy Vəzirov ("Təzə həyat" və "Səda" qəzetlərinin müdiri) məni yoxlamağa gələrkən, cibindən rəngli bir jurnal çıxarıb, sevinclə mənə verdi.

Bu, "Molla Nəsrəddin"in ilk nömrəsi idi. Hər şeyi bəyənməyən, qaradinməz adam olan Haşım bəy bu dəfə olduqca məmnun idi. Məcmuəni vərəqləyərək başdan-başa oxudu, oxuduqca da yazılanların hər sətrini xoş qəhqəhələrlə canlandırdı.

Tezliklə, Molla Nəsrəddin nəinki ilk aylar nəşr olunduğu Tiflisdə, Bakıda, eləcə də bütün Yaxın Şərqdə çox populyarlaşdı.

### Mirzə Cəlilin evində...

1926-cı ilə qədər Mirzə Cəlili qiyabi tanıyırdım. Onun da məni bir ədəbi sima kimi qəbul etdiyini bilirdim. 1926-cı ildə zəng edib, onu ziyarət edəcəyimi bildirdim. Mənim çalışdığım "Bakı işçi nəşriyyatı" idarəsinə gələcəyini və orada görüşəcəyini vəd etdi.

O biri gün ortaboylu, iri bığlı, narın çopur bурunlu, iri əsalı bir şəxs masama yanaşdı. Qalxıb çoxdan həsrətində olduğum Mirzə Cəlilin əlini sıxdım.

Gülə-gülə:

–Yazılarınızdan sizi çox yaşlı zənn edirdim, cavanmışsınız, – dedi.

Məni evinə çağırdı. Bir axşam getdim, oturduq, beləcə onunla yaxından tanış oldum. Amma, söhbətimiz, nədənsə, alınmadı. Bizim dialoqumuz rabitəsiz ifadələrdən ibarət oldu. "Mənmi yanılıram, Mollamı qocalmış?" – deyə öz-özümə suallar verdim.

Sonralar küçədə tez-tez ona rast gələrdim.



Mehriban görüşər, halımı xəbər alardı. Artıq xəstə idi, yavaş addımlarla yeriyirdi.

*Hazırladı:*
*Z. HÜSEYNLİ*
*XQ*



# Rusiyada özügedən qatar...

**Şimal qonşumuz dəmiryol nəqliyyatının modernləşdirilməsi istiqamətində uğurlu addımlar atır. Bu günlərdə Moskvada "Gələcəyin nəqliyyat sistemi sərnişinin mənafeyi naminə" mövzusuna həsr olunmuş konfrans keçirilib.**

Tədbirdə "Rusiya Dəmir Yolları" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Oleq Belozyorov bildirib ki, 2024-cü ilin yayında Moskva Mərkəzi Halqasında qismən pilotsuz qatar işə salınacaq. Onun sözlərinə görə, 2026-cı ildə ölkədə bir neçə istiqamətdə tamamilə pilotsuz qatarlar dövriyyəyə buraxılacaq.

*XQ*

# Gün yağmursuz keçəcək, amma dumanlı olacaq



***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən yanvarın 26-da Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.***

Lakin gecə bəzi şəhərətrafı ərazilərdə qısamüddətli yağıntı olacağı ehtimalı var. Cənub küləyi əsəcək. Gecə 0-3°, gündüz 5-8° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunu olacaq, nisbi rütubət 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 0-5° şaxta, gündüz 3-7° isti, dağlarda gecə 9-14°, gündüz 1-6° şaxta olacaq. Gecə və səhər bəzi dağlıq və dağətəyi ərazilərdə yolların buz bağlama ehtimalı var.

*Q. QASIMOV*
*XQ*

# Makedoniyalı İsgəndərin ailə qəbirləri tapılıb

**Alimlər Makedoniyalı İsgəndərin ailəsinə aid olan 3 məzardakı insan qalıqlarının kimliyini müəyyən edə biliblər. Qəbirlər Yunanıstanın şimalındakı Böyük Vergina kurqanında yerləşir.**



Yeni məlumatlara görə, orada İsgəndərin atasının, ögey ana və qardaşlarının, eləcə də oğlunun qalıqları var. Bu barədə "Journal of Archaeological Science: Reports" məlumat yayıb.

İkinci türbədə sağlığında tez-tez at sürən kişi və qadının qalıqları olub. Alimlərin fikrincə, onlar İsgəndərin ögey qardaşı Kral Arrideus və həyat yoldaşı, "qadın döyüşçü" Adea Eurydiceyə məxsusdur.

Tədqiqatçılar ehtimal edirlər ki, üçüncü məzarda Makedoniyalı İsgəndərin uşaq ikən ölmüş oğlu IV Aleksandr dəfn olunub.

*AYTƏN.N.*
*XQ*

## "Neftmaştəmir" ASC səhmdarlarının nəzərinə!

2 aprel 2024-cü il saat 11.00-da səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** Səhmdar cəmiyyətin 2023-cü ilin yekunları ilə bağlı maliyyə-təsərrüfat fəaliyyətinin hesabatı və cəmiyyətin 2023-cü il üzrə illik hesabatlarının təsdiqi.

**2.** Müəssisənin gəlir və zərəri haqqında məlumat.

**3.** ASC-nin nizamnaməsində qismən dəyişikliklər edilməsi barədə.

**4.** Təşkilati məsələ - ASC-nin müşahidə şurasının sədr və üzvlərinin yenidən seçilməsi.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Əlaqə telefonları - (012) 550 27 86, (012) 550 33 00.

İclasın keçiriləcəyi ünvan - Bakı şəhəri, Sabunçu rayonu, Zabrat-1 qəsəbəsi, Oktyabr küçəsi 52.

***✓ 2022-ci ildə ADPU tərəfindən Bağırov Nemət Azər oğlunun adına verilmiş 150517 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3268
SİFARİŞ 151
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır
00:00